Xalqın qəzeti!

# Xalq qəzeti

№ 110 (31079) 25 iyun 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Əs-səlamu əleykum və rəhmətullahi və bərəkətuhu!**

Zati-aliləri.

Dost Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Zati-alinizə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırmaqdan məmnunluq duyuruq. Sizə cansağlığı və uğurlar, xalqınıza isə davamlı tərəqqi və firavanlıq arzulayırıq.

Bu xoş fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız arasında bütün sahələrdə əməkdaşlığı inkişaf etdirməyə sadiqliyimizi bir daha təsdiqləyirik.

Dərin hörmətlə,

*Nizar AMİDİ*
*İraq Respublikasının Prezidenti*

# İslam ölkələri ilə dostluq, həmrəylik və əməkdaşlıq Azərbaycanın xarici siyasətinin üstün istiqamətidir

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisi sədrinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.**

Dövlətimizin başçısı TBMM sədrinin İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirakının önəminə toxundu.

Gələcəkdə ölkəmizdə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində digər tədbirlərin də keçiriləcəyini deyən Prezident İlham Əliyev İslam ölkələri arasında əlaqələri daha da genişləndirməyin əhəmiyyətini vurğuladı.

Qəbula və İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlıq edən Numan Kurtulmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Qonaq Bakıda keçirilən tədbirin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində tərəfdaşlığın genişləndirilməsi baxımından əhəmiyyətini vurğulayaraq, dövlətimizin başçısının tədbir iştirakçılarına ünvanlandığı müraciətin zəngin məzmunlu olduğunu dedi.

Söhbət zamanı Şuşa Bəyannaməsinin əhəmiyyətinə toxunularaq, ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə, o cümlədən parlamentlərarası sahədə uğurlu inkişafı qeyd edildi, dünyada Azərbaycan-Türkiyə birliyinin və qardaşlığının nümunəsinin olmadığı bildirildi və bu, birgə sərvətimiz kimi qiymətləndirildi. Ölkələrimiz arasında dostluğun və qardaşlığın Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin edilməsində mühüm amil olduğu vurğulandı.

Görüşdə qanunverici orqanlarımız arasında mövcud əməkdaşlıq və onun daha da genişləndirilməsinin perspektivləri müzakirə olundu.

***AZƏRTAC***

## Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb



Səhifə ⇨ 4

## Qars stansiyası Orta Dəhlizdə Qafqazı Avropaya qovuşdurur



**Orta Dəhlizin əsası 2014-cü ildə Azərbaycan, Qazaxıstan və Gürcüstanın təşəbbüsü ilə qoyulub. Sonrakı illərdə marşruta Türkiyə ilə yanaşı, Ukrayna, Rumıniya, Polşa və digər ölkələr də qoşulub. Dəhliz Çindən başlayaraq Qazaxıstan ərazisindən keçməklə Xəzər dənizi vasitəsilə Azərbaycana, buradan isə Gürcüstan və Türkiyə üzərindən Avropaya çıxışı təmin edir. Orta Dəhliz Şərqlə Qərbi birləşdirən mühüm ticarət körpüsü funksiyasını yerinə yetirir.**

*(ardı 7-ci səhifədə)*

## Azərbaycan və İslam dünyası



Səhifə ⇨ 9

## ABŞ Konqresində anti-Azərbaycan isteriyası



Səhifə ⇨ 9

## İsrail–Livan danışıqlarında sülh axtarışı



Səhifə ⇨ 15

## İƏT Parlament İttifaqında Azərbaycanın sədrliyinin strateji hədəfləri



Səhifə ⇨ 8

## Orta Dəhliz: iqtisadi səmərə və regional sabitlik



Səhifə ⇨ 8

## Yuri Uşakovun inteqrasiya məntiqi



Səhifə ⇨ 10

## "Orta güc" Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir



Səhifə ⇨ 10

## Qərbi azərbaycanlıların haqq səsi ABŞ konfransında



Səhifə ⇨ 12

## Zəngəzur dəhlizi hara, KTMT hara?




Səhifə ⇨ 12

# Prezident İlham Əliyev İran heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 24-də İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Prezident İlham Əliyev son vaxtlar qardaş İran xalqının çox böyük əziyyətlər çəkdiyini vurğuladı, müharibədə həlak olanlara bir daha Allahdan rəhmət dilədi.

Müharibə dövründə Azərbaycan xalqının və dövlətinin İran xalqı və dövlətinin yanında olduğunu deyən Prezident İlham Əliyev özünün İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefonla danışıqlarını, həmçinin müxtəlif səviyyələrdə digər təmasları və həmrəylik nümunələrini bunun əyani göstəricisi kimi qiymətləndirdi.

Müharibənin dayandırılmasının Azərbaycan tərəfindən sevinc hissi ilə qarşılandığını vurğulayan dövlətimizin başçısı bununla bağlı ölkəmiz tərəfindən dərhal rəsmi bəyanatın verildiyini xatırladı.

"Arzu edirəm ki, bölgədə heç bir müharibə olmasın", - deyən Prezident İlham Əliyev həm Azərbaycanın, həm də İranın vaxtilə müharibələrdən əziyyət çəkdiklərini qeyd etdi.

Məhəmməd Baqir Qalibafın ölkəmizə əvvəlki səfərini məmnunluqla xatırlayan dövlətimizin başçısı onun İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında iştirakının əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev bu tədbirin İslam həmrəyliyinin inkişafına töhfə verəcəyinə ümidvarlığını bildirərək, gələn il ölkəmizin İƏT-in Zirvə Görüşünə ev sahibliyi edəcəyini dedi və bununla bağlı artıq hazırlıq işlərinin başlanıldığını qeyd etdi.

Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Baqir Qalibafın səfərinin, eyni zamanda, ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağını vurğuladı.

Dövlətimizin başçısı Azərbaycan-İran münasibətlərinin uğurlu inkişafına da toxundu.

Prezident İlham Əliyevlə görüşdən məmnunluğunu bildirən qonaq İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Məsud Pezeşkiana çatdırmağı xahiş etdi.

Məhəmməd Baqir Qalibaf İranın çətin günlərində Prezident İlham Əliyev, Azərbaycan dövləti və xalqı tərəfindən göstərilən dəstəyə görə minnətdarlığını bildirdi.

Qonaq, eyni zamanda, İranın ölkəmizdəki səfirliyinə gələrək, İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verməsinə, həmçinin Ayətullah Seyid Müctəba Hüseyni Xameneiyə İran İslam Respublikasının Ali Rəhbəri vəzifəsinə seçilməsi münasibətilə göndərdiyi təbrik məktubuna görə dövlətimizin başçısına təşəkkür etdi.

Müharibənin böyük dərd və faciə olduğunu deyən qonaq həmin dövrdə ölkəmizin İranla mehriban qonşuluq münasibətlərinə sadiq qaldığını, humanitar yardımını əsirgəmədiyini, Azərbaycan xalqının İranın yanında olduğunu vurğuladı və qeyd etdi ki, bu, İran xalqının yaddaşında əbədi qalacaq.

Azərbaycanla İranın çətin günlərdə də daim bir-birinin yanında olduqlarını deyən Məhəmməd Baqir Qalibaf bunu ölkələrimizin birliyinin və həmrəyliyinin daha bir nümunəsi kimi qiymətləndirdi. Qonaq bu müharibənin, eyni zamanda, İrana müsəlman ölkələri ilə təmasların nə dərəcədə vacib olduğunu göstərdiyini bildirdi. Məhəmməd Baqir Qalibaf qeyd etdi ki, İran müharibə dövründə dostunu və düşmənini tanıyıb. Bu xüsusda dost ölkə kimi Azərbaycan İranın yanında olub.

Söhbət zamanı Azərbaycan-İran əlaqələrinin gələcəkdə daha da dinamik inkişafına əminlik ifadə olundu, Ağbənd-Kələlə körpüsünün tikintisinin artıq başa çatdırıldığı və İran ərazisindən keçən Araz dəhlizinin də regionda nəqliyyat imkanlarının artırılmasına xidmət edəcəyi məmnunluqla vurğulandı.

Görüşdə ikitərəfli əlaqələrimizin perspektivləri, o cümlədən parlamentlərarası əməkdaşlıqla bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunuldu.

***AZƏRTAC***

# "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 30 iyun tarixli 518 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 6, maddə 416 (Cild I); 2024, № 5 (I kitab), maddələr 521, 529, № 12 (II kitab), maddə 1369; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 14 aprel tarixli 642 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.26-1-ci yarımbənd əlavə edilsin:

"3.1.26-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirir;".

**2.** Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 12 dekabr tarixli 823 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 718 (Cild I); 2024, № 5 (I kitab), maddə 529) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 9.3-1-ci bənd əlavə edilsin:

"9.3-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirir;".

**3.** Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 aprel tarixli 394 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 4, maddə 326 (Cild I); 2025, № 6, maddələr 541, 559, № 11, maddə 1039; 2026, № 2, maddə 128) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 8.36-1-ci bənd əlavə edilsin:

"8.36-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirmək;".

**4.** Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82 (Cild I); 2024, № 4, maddələr 375, 397, № 5 (I kitab), maddə 529, № 12 (II kitab), maddələr 1366, 1383; 2025, № 1, maddə 35, № 4 (I kitab), maddələr 325, 338, № 6, maddə 549, № 8, maddə 773, № 12 (I kitab), maddə 1153; 2026, № 2, maddə 123) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.0.5-1-ci yarımbənd əlavə edilsin:

"3.0.5-1. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 iyun tarixli 415 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazi müdafiəsi haqqında Əsasnamə"dən irəli gələn vəzifələri həyata keçirmək;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyun 2026-cı il**

# Ağdamda vətəndaş qəbulu

**Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev iyunun 24-də Ağdam şəhərində yerləşən Konfrans Mərkəzində Füzuli, Ağdam və Xocavənd rayonlarının sakinlərinin müraciətlərini dinləyib.**



Vətəndaşların qəbulu zamanı nəqliyyat, telekommunikasiya, o cümlədən internet, teleradio yayımı və poçt xidmətləri ilə bağlı müraciətlərə baxılıb. Onların mövcud qanunvericiliyin tələblərinə uyğun və operativ şəkildə araşdırılması ilə əlaqədar nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verilib. Müraciətlərdə göstərilən problemlərin bir qismi isə dərhal müsbət həllini tapıb.

Nazirliyinin fəaliyyət sahələrinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə qeydiyyata alınıb və müvafiq qurumlara göndərilməsi təmin olunacaq.

***XQ***

# İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının iştirakçılarına

**Hörmətli tədbir iştirakçıları!**

Sizi İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasında səmimi-qəlbdən salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Qardaş ölkələrin qanunverici orqanlarını birləşdirən bu mötəbər platforma parlamentlərarası əməkdaşlığın gücləndirilməsi, siyasi, iqtisadi, sosial və humanitar sahələrdə əlaqələrin inkişaf etdirilməsinə xidmət etməklə yanaşı, İslam həmrəyliyinin möhkəmləndirilməsini təmin edən vacib mexanizmlərdən biri kimi xüsusi əhəmiyyət kəsb edir.

Bu il Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv olmasından 35 il ötür. İƏT Azərbaycanın müstəqilliyinin bərpasından sonra qoşulduğu ilk beynəlxalq təşkilatlardandır. Qürurla qeyd edə bilərik ki, bu illər ərzində ölkəmiz İslam həmrəyliyinin gücləndirilməsinə töhfə vermiş, İƏT-in fəaliyyətində təşəbbüskar və məsuliyyətli rol oynamış, məqsəd və prinsiplərinə sadiq qalmış, beynəlxalq müstəvidə nüfuzunun artırılmasında fəal iştirak etmişdir. Azərbaycan üzv dövlətlərlə ikitərəfli əsasda da möhkəm dostluq və qardaşlıq münasibətlərinə söykənən çoxşaxəli əməkdaşlıq əlaqələri qurmuşdur.

Biz də, öz növbəmizdə, İƏT-in ardıcıl dəstəyini daim hiss etmişik. İƏT Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən təcavüzü zamanı və postmüharibə dövründə qətiyyətli mövqe nümayiş etdirərək, işğalı şiddətlə qınayan, Azərbaycanın haqq işini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən, azad olunmuş ərazilərimizdə bərpa və quruculuq işlərini alqışlayan qətnamələr və bəyanatlar qəbul etmişdir. Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair İƏT çərçivəsində Təmas Qrupunun fəaliyyətini xüsusilə vurğulamaq istərdim. Biz qardaş ölkələrin bu münasibətini yüksək qiymətləndiririk.

Təəssüf ki, işğal dövründə Ermənistan tərəfindən urbisid və kultursidə məruz qalmış şəhər və kəndlərimizdə bəşəri əhəmiyyətə malik məscidlər və çoxəsrlik İslam memarlığı abidələri qəsdən dağıdılmış və talan olunmuşdur. 67 məsciddən 65-i məhv edilmiş, qalan məscidlərə isə ciddi zərər vurulmuşdur. Bu müqəddəs yerlərin tövlə kimi istifadə olunması və orada dinimizdə haram sayılan heyvanların saxlanılması təkcə azərbaycanlıların deyil, bütün dünya müsəlmanlarının hisslərinə təhqirdir. ICESCO və İƏT-in Müstəqil Daimi İnsan Hüquqları Komissiyası bu vandalizm aktlarının işğaldan azad edilmiş ərazilərimizə təşkil etdiyi missiyaları zamanı əyani şahidi olmuşdur.

Bu gün işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dağıdılmış dini ocaqlarımız tarixi görkəmi nəzərə alınmaqla bərpa edilir, yeni məscidlər inşa edilir, minarələrdən uzun illərdən sonra yenidən azan sədaları ucalır.

Torpaqlarımızda İslam mədəni irsinə qarşı törədilmiş bu cinayətlər şübhəsiz ki, islamofobiyanın açıq-aydın təzahürüdür. Bu gün dünyada müsəlmanlara qarşı nifrətin aşılanması, İslam mədəni irsinin hədəfə alınması və İslam dəyərlərinin təhqir olunması geniş vüsət almışdır. Müqəddəs kitabımız "Qurani-Kərim"in yandırılması, Məhəmməd Peyğəmbərin (s.ə.s) karikaturalarının nəşr edilməsi heç bir halda ifadə azadlığı ilə əsaslandırıla bilməz və tamamilə qəbuledilməzdir. İslamofobiya yalnız müsəlmanlara qarşı dözümsüzlük halı deyil, qarşılıqlı anlaşmaya və dinc birgəyaşayışa təhdid yaradan təhlükəli tendensiyadır. Məyusedici haldır ki, Qərbdə bəzi siyasi dairələr, Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi beynəlxalq təsisatlar anti-İslam əhvali-ruhiyyəsini təlqin edərək, İslamı ekstremizm və terrorizm ilə eyniləşdirməyə, dinimizə qarşı qərəzli təsəvvür yaratmağa və onu təhlükə mənbəyi kimi qələmə verməyə cəhdlər göstərir.

İslamofobiya ilə mübarizəyə beynəlxalq diqqətin daha da artırılması məqsədilə ölkəmizdə bu mövzuya həsr olunmuş beynəlxalq konfranslar təşkil edilir. İslamofobiyanın narahatedici şəkildə getdikcə yayıldığı bir dövrdə Azərbaycanın bu konfranslara ev sahibliyi etməsi dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi və dinimizlə bağlı stereotiplərin aradan qaldırılması baxımından böyük əhəmiyyət kəsb edir.

Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan və dünyada milyardlarla insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan İslam dəyərlərinin qorunmasına Azərbaycanda həmişə böyük önəm verilmişdir.

Biz İslamın həmrəylik və qarşılıqlı hörmət prinsiplərinin təbliği istiqamətində müxtəlif təşəbbüslərlə çıxış edir, mütəmadi olaraq İƏT və onun qurumlarının tədbirlərinə ev sahibliyi edirik. İslam sivilizasiyasının zəngin mədəni-mənəvi irsini təcəssüm etdirən Bakı, Naxçıvan və Şuşa şəhərləri müxtəlif illərdə İslam dünyasının mədəniyyət paytaxtı adına layiq görülmüşdür. 2017-ci ildə Azərbaycanda elan olunmuş "İslam Həmrəyliyi İli" çərçivəsində 54 ölkənin iştirakı ilə Bakıda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir.

Bir neçə gün öncə Bakıda müsəlman ölkələrinin dayanıqlı rifahı naminə regional inteqrasiya mövzusuna həsr olunmuş İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantıları uğurla təşkil edilmişdir.

2027-ci ildə Azərbaycanda İslam Zirvə Konfransının 16-cı Sessiyası keçiriləcək və ölkəmiz İƏT-də Sədrliyi öz üzərinə götürəcək. Sədrliyimiz dövründə üzv dövlətlərin ümumi maraqlarının təşviqi, təşkilat çərçivəsində əməkdaşlığın dərinləşməsi, İslam həmrəyliyinin möhkəmləndirilməsi və böyük gücə çevrilməsi məqsədilə birgə səylərin səfərbər olunması üçün əlimizdən gələni əsirgəməyəcəyik.

**Hörmətli tədbir iştirakçıları,**

Hazırkı sessiyanın *"Parlament əməkdaşlığı vasitəsilə İƏT üzvü olan dövlətlərdə dayanıqlı və inklüziv iqtisadi inkişafın təşviqi"* mövzusuna həsr olunması Parlament İttifaqının üzv ölkələrinin tərəqqisi üçün ortaq çağırışlara birgə həll yolları tapmaq əzmini nümayiş etdirir.

Əminəm ki, sessiya çərçivəsində irəli sürülən faydalı təşəbbüslər qardaş xalqlarımızın rifahına töhfə verəcək, ölkələrimiz arasında yeni əməkdaşlıq imkanlarının yaranmasına xidmət edəcək.

Sizə ən xoş arzularımı yetirir, sessiyanın işinə uğurlar diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 iyun 2026-cı il**

# Azərbaycanın Baş naziri Türkiyə Böyük Millət Məclisinin sədri ilə görüşüb



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 24-də ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetindən bildirilib ki, görüş zamanı Bakının İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasına ev sahibliyi etməsi mühüm hadisə kimi qiymətləndirilib.

Azərbaycan ilə Türkiyə arasında qardaşlıq, müttəfiqlik və qarşılıqlı etimada əsaslanan münasibətlərin bütün sahələr üzrə uğurla inkişaf etdiyi məmnunluqla qeyd olunub.

Parlamentlərarası əməkdaşlığın ikitərəfli əlaqələrin mühüm tərkib hissəsi olduğu vurğulanaraq, hər iki ölkənin qanunverici orqanları arasında sıx təmasların və qarşılıqlı səfərlərin əhəmiyyəti qeyd edilib.

Tərəflər Azərbaycan-Türkiyə strateji tərəfdaşlığının bundan sonra da yeni məzmunla zənginləşəcəyinə əminlik ifadə edərək, qarşılıqlı maraq doğuran sahələrdə əməkdaşlığın genişləndirilməsi perspektivlərini müzakirə ediblər.

***XQ***

# Xüsusi karantin rejimi uzadılıb

**Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti uzadılıb.**

Bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2026-cı il 1 oktyabr saat 06:00-dək uzadılıb.

***XQ***

# Milli Məclisdə görüşlər



Milli Məclisin Sədri Sahibə Qafarova İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının Bakıda keçirilən 20-ci Sessiyası çərçivəsində Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş ilə görüşüb.

Görüşdə ölkələrimiz arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün istiqamətlərdə yüksək səviyyədə inkişafından məmnunluq ifadə olunub. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamını rəhbər tutan Azərbaycanın və Türkiyənin bütün məsələlərdə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirdiyi diqqətə çatdırılıb.

Görüşdə ölkələrimiz arasında münasibətlərin daha da genişlənməsində parlamentlərin də vacib rolu qeyd olunaraq, bu istiqamətdə mövcud olan əlaqələrin səviyyəsindən məmnunluq ifadə edilib. Parlament sədrləri arasında qarşılıqlı səfərlərin və görüşlərin, o cümlədən deputatlar arasında sıx təmasların bu əlaqələrə mühüm töhfələri vurğulanıb.

Söhbət zamanı TBMM-nin sədri bu gün Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdüyünü məmnunluqla xatırladaraq, görüş barədə müsbət təəssüratlarını bölüşüb. O, İƏT-in üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkilinə görə minnətdarlğını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*

**Həmin gün Milli Məclisin Sədri Sahibə Qafarova sessiya çərçivəsində çərçivəsində İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqer Qalibaf ilə də görüşüb.**

Söhbət zamanı Azərbaycan və İran arasında münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə olunub. Sahibə Qafarova əlaqələrin bundan sonra da iki dost və qonşu ölkə arasında münasibətlərə uyğun şəkildə inkişaf edəcəyinə inamını bildirib. Qeyd olunub ki, hazırda iki ölkə arasında müxtəlif layihələr həyata keçirilir, yeni əməkdaşlıq perspektivləri nəzərdən keçirilir. Bütün bunlar isə ikitərəfli əməkdaşlığın daha da inkişafına təkan verəcək.



Regionda baş verən son proseslər də görüş zamanı müzakirə olunub. Sahibə Qafarova aparılan danışıqların regionda gərginliyin azalmasına, davamlı sülhün və sabitliyin təmin olunmasına xidmət edəcəyinə ümidvarlığını bildirib. Eyni zamanda, diqqətə çatdırılıb ki, məlum hadisələr zamanı Prezident İlham Əliyevin göstərişi ilə Azərbaycan İrana ilk humanitar yardım göndərən ölkə olub. Milli Məclisin Sədri qeyd edib ki, Prezident İlham Əliyev İran səfirliyinə gələrək matəm kitabını imzalayıb və xarici ölkədəki İran səfirliyinə gedən yeganə dövlət başçısı məhz Azərbaycan Prezidenti olub.

Görüşdə parlamentlərarası əlaqələrin iki ölkə arasındakı münasibətlərdə özünəməxsus rolu qeyd olunaraq, tərəflərin parlamentlərarası əlaqələrin daha da genişləndirilməsində maraqlı olduqları diqqətə çatdırılıb.

Söhbət zamanı Azərbaycan Prezidenti İlham Əliyevin İran Prezidenti Məsud Pezeşkianla telefonla danışıqları, həmçinin müxtəlif səviyyələrdə digər təmaslar qeyd olunub. Məhəmməd Baqer Qalibaf Prezident İlham Əliyevin İranın ölkəmizdəki səfirliyinə gələrək, İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneinin və bir çox mülki şəxsin həlak olması ilə əlaqədar başsağlığı verməsini, İran səfirliyinə gələrək matəm kitabını imzalamasını yüksək qiymətləndirib və buna görə təşəkkürünü ifadə edib. O, müharibə dövründə Azərbaycan dövlətinin və xalqının atdığı addımlara, göstərdiyi humanitar yardımlara görə minnətdarlığını bildirib və bunların İran xalqı üçün çox dəyərli olduğunu vurğulayıb.

İran parlamentinin sədri qeyd edib ki, onun Azərbaycana səfəri və tədbirdə iştirakı da bu təşəkkürün ifadəsidir. O, göstərilən dəstəyə və yardıma görə Azərbaycan Prezidentinə, dövlətinə və xalqına təşəkkür edib.

*

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Oman Sultanlığı Şura Məclisinin sədri Xalid Hilal Nasir Əl-Maavali ilə görüşüb.**

Söhbət zamanı bildirilib ki, parlamentlərin qarşılıqlı əlaqəsi ölkələrimiz arasında ikitərəfli və çoxtərəfli münasibətlərə mühüm töhfə verir. Görüşdə qanunverici orqanlarımızın beynəlxalq parlament təşkilatlarında birgə əməkdaşlığı qeyd olunub. Sahibə Qafarova Omanın Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılmış Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin işində yaxından iştirakından məmnunluğunu bildirib.

Oman Sultanlığı Şura Məclisinin sədri Xalid Hilal Nasir Əl-Maavali göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə minnətdarlığını ifadə edərək, İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci Sessiyasının yüksək səviyyədə təşkilinə görə Azərbaycana təşəkkür edib.

*XQ*

# Bakı Hərbi Prokurorluğu binasının təmirdən sonra açılışı



**İyunun 24-də Bakı Hərbi Prokurorluğunun əsaslı təmir edilərək yenidən qurulan inzibati binasının açılış mərasimi keçirilib.**

Əvvəlcə mərasim iştirakçıları binanın foyesində yerləşən ümummilli lider Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq Ulu öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Məlumat verilib ki, uzun illər prokurorluq orqanlarının fəaliyyət göstərdiyi inzibati bina əsaslı təmir edilərək müasir standartlara uyğun yenidən qurulub. Yenidənqurma işləri çərçivəsində bina prokurorluq əməkdaşlarının fəaliyyətinin daha səmərəli təşkili, iş proseslərinin operativliyinin artırılması və vətəndaşlara göstərilən hüquqi xidmətlərin keyfiyyətinin yüksəldilməsi məqsədilə tam yenilənib. İnzibati binada "Elektron Prokurorluq" informasiya sistemi tam şəkildə tətbiq olunub.

Bina ilə tanışlıqdan sonra akt zalında iclas keçirilib.

Baş prokuror Kamran Əliyev bildirib ki, müasir və çevik prokurorluq sisteminin formalaşdırılması Azərbaycanın hüquqi dövlət quruculuğunun əsas prioritetlərindən biridir. O vurğulayıb ki, bu istiqamətdə həyata keçirilən islahatlar ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik strategiyasına əsaslanır və hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Baş prokuror qeyd edib ki, prokurorluq orqanlarının maddi-texniki təminatının gücləndirilməsi və müasir iş şəraitinin yaradılması hüquq-mühafizə sistemində həyata keçirilən institusional islahatların mühüm tərkib hissəsidir. O bildirib ki, uzun illər prokurorluq orqanlarının fəaliyyət göstərdiyi inzibati binanın əsaslı təmir edilərək müasir standartlara uyğun yenidən qurulması nəticəsində yaradılan yeni şərait əməkdaşların fəaliyyətinin daha səmərəli təşkilinə, rəqəmsal idarəetmə imkanlarının genişləndirilməsinə və vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradacaq. Kamran Əliyev bu münasibətlə dövlətimizin başçısının prokurorluq orqanlarına göstərdiyi davamlı diqqət və dəstəyə görə minnətdarlığını ifadə edib.

Kamran Əliyev əməkdaşları yeni şəraitdən səmərəli istifadə etməyə, peşə hazırlığını daim artırmağa, fəaliyyətlərində qanunçuluq, obyektivlik və dövlətçilik prinsiplərinə sadiq qalmağa çağıraraq onlara gələcək xidmətlərində uğurlar arzulayıb.

*XQ*

# Süni intellekt və aerokosmik məkan





**Milli Aviasiya Akademiyasının təşkilatçılığı ilə "Süni intellekt texnologiyaları və aerokosmik problemlər" mövzusunda IV beynəlxalq elmi-praktik konfrans keçirilib.**

Açılışda çıxış edən MAA-nın birinci prorektoru professor Ədalət Səmədov Milli Aviasiya Akademiyasının rektoru akademik Arif Paşayevin adından iştirakçıları salamlayıb, konfransın işinə uğurlar arzulayıb. Bildirib ki, süni intellektin sürətlə inkişaf etdiyi bir dövrdə bu elmi tədbirin keçirilməsi xüsusi aktuallıq kəsb edir.

Qeyd olunub ki, Azərbaycan Respublikasında süni intellektin inkişafı və tətbiqi istiqamətində həyata keçirilən dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən imzalanmış və 2025–2030-cu illəri əhatə edən "Rəqəmsal İnkişaf və Süni İntellekt Strategiyası" ilə sistemləşdirilib, strateji əsaslar üzərində qurulub. Prezident İlham Əliyevin təşəbbüsü ilə qəbul edilən bu sənəd ölkəmizdə rəqəmsal transformasiyanın aparıcı istiqamətlərini müəyyənləşdirib, süni intellektin iqtisadiyyat, elm, təhlükəsizlik və cəmiyyətin digər əsas sahələrinə inteqrasiyasını nəzərdə tutur.

Ə.Səmədov Milli Aviasiya Akademiyasının gələcək inkişafını müəyyən edən əsas strateji hədəflərdən bəhs edib. Qeyd olunub ki, Akademiyanın prioritet istiqamətləri sırasında aviasiya və aerokosmik sahədə süni intellekt texnologiyalarının tətbiqinin genişləndirilməsi, pilotlu və pilotsuz uçuş aparatlarının idarə olunması, aerokosmik texnologiyaların inkişafı, uçuş aparatlarının layihələndirilməsi və struktur təhlili, aerodinamik modelləşdirmə, qərarların qəbuluna dəstək sistemləri və simulyasiya platformalarının yaradılması yer alır.

Bununla yanaşı, nəqliyyat və logistika sahəsində süni intellektin tətbiqi, hava hərəkətinin optimallaşdırılması, uçuşların planlaşdırılması, hava məkanından səmərəli istifadə, ağıllı nəqliyyat infrastrukturunun layihələndirilməsi və analitik sistemlərin inkişafı da əsas hədəflər sırasındadır. Eyni zamanda, süni intellektin hüquqi statusu, məsuliyyət bölgüsü, alqoritmik ədalət prinsipləri, vətəndaş hüquqları və fərdi məlumatların qorunması mexanizmlərinin tədqiqi, eləcə də innovativ təhsil mühitinin formalaşdırılması, yeni tədris metodlarının hazırlanması, nəzəri və praktiki biliklərin inteqrasiyası, təhsildə süni intellekt texnologiyalarının tətbiqi və elmi startap təşəbbüslərinin dəstəklənməsi Akademiyanın strateji inkişaf prioritetləri kimi müəyyən edilib.

Prorektor bildirib ki, konfransda plenar çıxışlarla yanaşı, 6 bölmədə 90 məruzə dinləniləcək. Tədbirdə Türkiyə, Rusiya, İsveç, Danimarka, Qazaxıstan, Özbəkistan və Almaniyadan olan alim və mütəxəssislər iştirak edəcəklər. Azərbaycanın və xarici dövlətlərin 30-a yaxın ali təhsil müəssisəsindən, elm mərkəzlərindən, dövlət qurumlarından və şirkətlərdən tədqiqatçılar və alimlər tədbirə qatılıblar.

AMEA-nın vitse-prezidenti, Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru akademik Rasim Əliquliyev müasir dövrdə süni intellekt texnologiyalarının qlobal miqyasda baş verən proseslərin əsas hərəkətverici qüvvələrindən biri olduğunu bildirib. Alim supergüc dövlətlər arasında rəqabətin getdikcə texnoloji müstəviyə keçdiyi bir şəraitdə Azərbaycanın xarici siyasətində də süni intellektin strateji prioritet kimi xüsusi yer tutduğunu diqqətə çatdırıb. O vurğulayıb ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Rəqəmsal İnkişaf Şurasının yaradılması, eləcə də Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026–2028-ci illər üçün Fəaliyyət Planının təsdiqlənməsi dövlət tərəfindən bu sahənin inkişafına göstərilən xüsusi diqqəti nümayiş etdirir.

Dövlət Təhlükəsizlik Xidmətinin Milli Kibertəhlükəsizlik Mərkəzinin məsul katibi Elvin Balacanov "Süni intellekt və aerokosmik sistemlərin kibertəhlükəsizliyi: yeni risklər və müdafiə yanaşmaları" mövzusunda çıxış edib.

Almaniyadan HADES eksperimentinin fizika üzrə koordinatoru professor Anar Rüstəmov "Qeyri-səlis intellekt: mürəkkəb sistemlərdə faza keçidlərinin aşkarlanması", Daşkənd Dövlət Nəqliyyat Universitetinin professoru Hamida Xusnutdinova "Süni intellektin təhsil prosesinə inteqrasiyası", ADA Universitetinin İnformasiya-Texnologiyaları və Mühəndislik Məktəbinin dekanı Abzətdin Adamov "Müasir süni intellektdə insan səviyyəli intellektə nail olunmasının mühəndislik problemləri" mövzularında videoməruzələrlə çıxış ediblər.

*X Q*

# XİN Fransanın ermənipərəst iddialarını rədd edir



**Fransa Milli Assambleyası üzvlərinin ünvanladıqları suallara cavab olaraq, "Dağlıq Qarabağdan köçürülmüş" ermənilərə dəstək, "erməni məhbuslarının taleyi və onların azad edilməsi", "erməni dini və mədəni irsi," "Azərbaycan-Ermənistan sülh prosesində insan hüquqları", habelə "Azərbaycanda insan hüquqları" kimi məsələlərə dair Avropa və Xarici İşlər Nazirliyinin iyunun 23-də Parlamentin internet səhifəsində dərc edilmiş əsassız cavablarını qətiyyətlə pisləyir və rədd edirik.**

Bu fikirləri Azərbaycan XİN-in Mətbuat xidməti idarəsinin rəisi Ayxan Hacızadə bildirib. O deyib ki, Fransa tərəfinin cavabları onun Azərbaycan-Ermənistan normallaşma prosesi ilə bağlı uzun müddətdir nümayiş etdirdiyi qərəzli yanaşmanın növbəti nümunəsidir.

Cavablarda Ermənistanın təhlükəsizliyi, "Dağlıq Qarabağdan olan ermənilər", "Azərbaycanda saxlanılan erməniəsilli şəxslər" kimi məsələlərə geniş yer ayrılsa da, Ermənistanın Azərbaycan ərazilərinin təxminən 30 il davam etmiş işğalı, bu müddətdə törədilmiş dağıntılar, bir milyondan artıq azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi, itkin düşmüş şəxslərin taleyi və Ermənistanın mina təhdidi kimi məsələlərə toxunulmaması təəssüf doğurur.

Fransa tərəfinin özünü sülh prosesinin tərəfdarı kimi təqdim etməsinə baxmayaraq, Ermənistanla müdafiə əməkdaşlığını xüsusi vurğulaması və EUMA missiyasının fəaliyyətini təşviq etməsi Fransanın regionda neytrallıqdan tamamilə uzaq olduğunu bir daha göstərir.

"Erməni əsirləri və saxlanılan şəxslər" barədə səsləndirilən iddialar reallıqlara tamamilə ziddir. Bu məsələnin siyasi manipulyasiya predmetinə çevrilməsi və məhkəmənin qərarının sual altına alınması cəhdləri qəbuledilməzdir.

Ermənistanda və keçmiş işğal olunmuş ərazilərdə Azərbaycan mədəni irsinin məhv edilməsi, məscidlərin dağıdılması və vandalizmə məruz qalması faktlarını görməməzliyə vuran Fransa tərəfinin "erməni mədəni və dini irsi" ilə bağlı iddiaları şərh etməsi gülüncdür.

Fransa XİN-in cavabları bir daha göstərir ki, Paris hələ də regionun reallıqlarını qəbul etməkdə çətinlik çəkir və Cənubi Qafqazda sülhün möhkəmlənməsinə töhfə vermək əvəzinə, köhnəlmiş və birtərəfli siyasi yanaşmaları davam etdirir. Bu isə Fransanın həm regiondakı nüfuzuna, həm də etibarlı tərəfdaş imicinə ciddi zərbə vurur.

*XQ*

# Dövlət Proqramı Azərbaycan kəndini yeni inkişaf yoluna çıxarıb

## *Strateji sənədin bölgələrdə müzakirəsi davam edir*

**Dünən Sabirabad rayonunda Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nda pambıqçılıq sahəsində nəzərdə tutulan hədəflərə çatmaq üçün qarşıda duran vəzifələrin müzakirəsi ilə bağlı regional müşavirə keçirildi.**

Prezident İlham Əliyevin sədrliyi ilə 2026-cı il 25 may tarixində kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqələndirilmiş, çevik və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə təşkil edilmiş müşavirədə aidiyyəti dövlət qurumlarının nümayəndələri, pambıqçılıq sahəsi üzrə ixtisaslaşmış Neftçala, Salyan, Biləsuvar, İmişli, Beyləqan, Füzuli, Ağcabədi, Ağdam, Tərtər, Bərdə, Goranboy, Yevlax, Kürdəmir, Sabirabad, Saatlı, Zərdab rayonlarından fermer və sahibkarlar iştirak etdilər.

## *Sabirabadda pambıqçılıq müşavirəsi*









**Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev** bildirdi ki, dövlət başçısının tapşırığına əsasən iyunun 12-dən başlayaraq 13 iqtisadi zona üzrə bu proqramın geniş müzakirələri aparıldı. Müzakirələrə ümumilikdə 4 565 nəfər qatıldı, aqrar sektorda fəaliyyət göstərən fermerlər və sahibkarlar Azərbaycan Respublikası Prezidentinin çağırışını dəstəklədiklərini bildirərək mühüm təşəbbüslərlə çıxış etdilər. Prezident Administrasiyasının rəsmisi qeyd etdi ki, Dövlət Proqramında prioritet istiqamətlərdən biri olan pambıqçılıqda dövlət başçısının tapşırıqlarına uyğun olaraq son illərdə həyata keçirilən sistemli tədbirlər pambıq istehsalının artmasına, məhsuldarlığın yüksəlməsinə və kənd yerlərində məşğulluğun genişlənməsinə şərait yaradıb. Vurğulandı ki, yeni Dövlət Proqramı pambıqçılığın intensiv inkişafını, müasir suvarma və aqrotexniki texnologiyaların tətbiqini, həmçinin emal sənayesinin gücləndirilməsini nəzərdə tutur. Bildirildi ki, proqramın uğurlu icrası pambıqçılığın iqtisadi səmərəliliyini artıracaq, ixrac imkanlarını genişləndirəcək və qeyri-neft sektorunun inkişafına əlavə töhfə verəcək.

Daha sonra **kənd təsərrüfatı naziri Məcnun Məmmədov** pambıqçılıq sahəsində mövcud vəziyyət, inkişaf meyilləri və qarşıda duran əsas vəzifələr barədə məlumat verdi. Nazir bu sahənin potensialından daha səmərəli istifadə olunmasının, məhsuldarlığın yüksəldilməsinin və istehsal prosesində müasir yanaşmaların tətbiqinin vacibliyini qeyd etdi. Həmçinin pambıqçılıqda mövcud çağırışlar, resurs təminatının yaxşılaşdırılması və emal imkanlarının genişləndirilməsi istiqamətində nəzərdə tutulan tədbirlər diqqətə çatdırdı. Məcnun Məmmədov əlavə etdi ki, yeni Dövlət Proqramında pambıqçılığın klaster prinsipi əsasında inkişafı, müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi, texnika təminatının yaxşılaşdırılması və emal sənayesinin gücləndirilməsi əsas prioritetlər kimi müəyyən olunub.





**Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov** pambıqçılığın dayanıqlı inkişafında su təminatının həlledici rol oynadığını vurğuladı. Bildirildi ki, son illərdə ölkədə suvarma infrastrukturunun modernləşdirilməsi, yeni su mənbələrinin yaradılması və magistral kanalların yenidən qurulması istiqamətində mühüm layihələr həyata keçirilir. Qeyd olundu ki, Şirvan və Qarabağ suvarma kanalları da daxil olmaqla icra olunan layihələr pambıqçılıq üzrə ixtisaslaşmış rayonlarda su təminatının yaxşılaşdırılmasına və məhsuldarlığın artırılmasına xidmət edəcək. Zaur Mikayılov, həmçinin su ehtiyatlarından səmərəli istifadənin vacibliyini qeyd edərək müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsinin əsas prioritetlərdən biri olduğunu diqqətə çatdırdı.

**İqtisadiyyat nazirinin müavini Səməd Başirli** dedi ki, pambıqçılıq ölkənin qeyri-neft iqtisadiyyatının inkişafında, ixrac potensialının artırılmasında və regionlarda iqtisadi fəallığın genişlənməsində mühüm rol oynayır. Qeyd olundu ki, Dövlət Proqramında pambıqçılığın yalnız xammal istehsalı istiqamətində deyil, həm də emal sənayesi ilə inteqrasiya olunmuş şəkildə inkişaf etdirilməsi əsas prioritetlərdən biri kimi müəyyənləşdirilib. Səməd Başirli vurğuladı ki, yeni iplik, parça və tekstil istehsalı müəssisələrinin yaradılması əlavə dəyər zəncirinin genişlənməsinə, yeni iş yerlərinin açılmasına və ixrac gəlirlərinin artmasına imkan verəcək. Bildirildi ki, dövlət tərəfindən tətbiq olunacaq dəstək mexanizmləri və investisiya təşviqləri sahənin rəqabət qabiliyyətinin yüksəldilməsinə və özəl sektorun bu istiqamətdə fəallığının daha da artırılmasına xidmət edəcək.

**Sabirabad Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov** rayonda aqrar sahədə əldə olunan nəticələr, pambıqçılığın inkişafı istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə ətraflı məlumat verdi. Bildirildi ki, dövlət dəstəyi, müasir aqrotexniki yanaşmalar və suvarma infrastrukturunun təkmilləşdirilməsi hesabına Sabirabad rayonunda kənd təsərrüfatının, xüsusilə pambıqçılığın inkişafı istiqamətində müəyyən edilmiş hədəflərə nail olunması üçün bütün imkanlar səfərbər ediləcək.



**Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov** rayonun pambıqçılıq sahəsində ölkənin qabaqcıl bölgələrindən biri olduğunu, 2025-ci ildə əldə edilən yüksək məhsuldarlıq göstəricilərinin fermerlərin zəhməti və dövlət dəstəyinin nəticəsi olduğunu qeyd etdi. O söylədi ki, pambıqçılığın inkişafı həm kənd təsərrüfatının, həm də emal sənayesinin inkişafına mühüm töhfə verir və cari ildə də yüksək nəticələrin əldə olunacağı gözlənilir. İcra başçıları qarşıya qoyulan hədəflərə nail olunması və pambıqçılığın daha da inkişaf etdirilməsi istiqamətində bütün mövcud imkanların səfərbər ediləcəyini bildirdilər. Müşavirədə iştirak edən fermerlər və sahibkarlar, pambıq şirkətlərinin nümayəndələri cari ildə pambıq istehsalına hazırlıq, qarşıda duran vəzifələr, pambıqçılığın inkişafı və hədəflərlə bağlı fikirlərini bölüşdülər. Çıxışlarda pambıq istehsalında məhsuldarlığın artırılması, müasir aqrotexniki yanaşmaların tətbiqi, suvarma təminatının yaxşılaşdırılması və dövlət dəstəyi mexanizmlərinin əhəmiyyəti vurğulandı, dövlətin aqrar sahəyə göstərdiyi diqqət və dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür ifadə olundu.



Müşavirənin yekununda Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev qeyd etdi ki, pambıqçılığın inkişafı üzrə müəyyən edilən prioritetlərin icrası kompleks və əlaqələndirilmiş yanaşma tələb edir. O dedi ki, qarşıdakı dövrdə əsas diqqət məhsuldarlığın artırılmasına, müasir suvarma texnologiyalarının tətbiqinin genişləndirilməsinə, texnika təminatının yaxşılaşdırılmasına və emal sənayesinin inkişafına yönəldiləcək. Zeynal Nağdəliyev dövlət başçısının müəyyən etdiyi vəzifələrin vaxtında və keyfiyyətlə icra edilməsinin vacibliyini vurğulayaraq yerli icra hakimiyyəti orqanlarını, fermerləri və sahibkarları bu prosesdə fəal iştirak etməyə çağırdı. Bildirildi ki, müşavirə zamanı səsləndirilən təkliflər ümumiləşdirilərək Dövlət Proqramının icrası çərçivəsində nəzərə alınacaq və aqrar sahənin dayanıqlı inkişafının təmin olunması istiqamətində zəruri tədbirlər davam etdiriləcək.

*

**Müşavirə çərçivəsində kənd təsərrüfatı naziri Məcnun Məmmədov XQ-nin suallarını cavablandırdı:**

***– Müasir istixanaların qurulması istiqamətində hansı yeni yanaşmalar tətbiq olunur?***

– Müasir istixanaların qurulması istiqamətində əsas məqsəd və yanaşma ondan ibarətdir ki, bu təsərrüfatların daha səmərəli və planlı şəkildə yerləşdirilməsi təmin olunsun. Həmin çərçivədə istixanaların aqropark zonalarında, sənaye zonalarında və digər uyğun aqrar ərazilərdə təşkili nəzərdə tutulur. Bu yanaşma həm istehsal imkanlarının artırılmasına, həm də fermer və sahibkarların fəaliyyətinin daha əlverişli şəraitdə qurulmasına imkan yaradacaq. Dövlət tərəfindən zəruri infrastrukturun yaradılması da diqqət mərkəzindədir. Ərazilərdə kommunal xidmətlərin, enerji təminatının, su xətlərinin və digər texniki infrastrukturun qurulması nəzərdə tutulur. Məqsəd müasir texnologiyalara əsaslanan istixana təsərrüfatlarının inkişafı üçün əlverişli mühit formalaşdırmaqdır. Təşviq sertifikatı əldə edən istixana təsərrüfatları üçün mühüm güzəştlər gözlənilir. Belə təsərrüfatlar növbəti 7 il ərzində ölkəyə idxal edəcəkləri avadanlıqlara, texniki qurğulara və istehsal materiallarına görə gömrük rüsumlarından və əlavə dəyər vergisindən azad olunacaqlar. Bununla yanaşı, növbəti yeddi il ərzində müxtəlif vergi güzəştlərinin tətbiqi də planlaşdırılır. Bu imkanlar sahibkarların investisiya imkanlarını artıracaq, istehsal xərclərinin azalmasına və istixana sektorunun daha sürətli inkişafına şərait yaradacaq. Eyni zamanda, istixanaların genişləndirilməsi və fəaliyyətinin daha effektiv idarə olunması məqsədilə uçot sisteminin təkmilləşdirilməsi nəzərdə tutulur. Elektron kənd təsərrüfatı sistemi çərçivəsində bu sahənin tam uçota alınması, təsərrüfatların fəaliyyətinin izlənilməsi və idarəetmənin daha çevik həyata keçirilməsi təmin ediləcək.

Dövlət proqramlarına qoşulan istixana fermerləri müxtəlif əlavə dəstək mexanizmlərindən faydalana biləcəklər. Bu istiqamətlərdən biri kimi enerji təminatının yaxşılaşdırılması xüsusi əhəmiyyət daşıyır. Belə ki, qazdan elektrik enerjisi əldə olunması mexanizmi üzrə müvafiq avadanlıqların dövlət tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulur. Bu mexanizm istixana təsərrüfatlarının enerji xərclərinin optimallaşdırılmasına, istehsal proseslərinin daha dayanıqlı qurulmasına və müasir texnologiyaların tətbiqinə əlavə imkan yaradacaq.

***– Azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafı üzrə hansı layihələr həyata keçiriləcək?***

– Qarabağ və Şərqi Zəngəzurda Dövlət proqramlarına uyğun olaraq kənd təsərrüfatının inkişafı istiqamətində mühüm layihələrin həyata keçirilməsi planlaşdırılır. Əsas hədəflər sırasında müasir suvarma sistemlərinin genişləndirilməsi, intensiv bağçılığın inkişaf etdirilməsi və yeni müasir bağların salınması dayanır. Qeyd edək ki, artıq bu istiqamətdə iki müsabiqə başa çatıb və azad edilmiş ərazilər üzrə 5 min hektardan çox müasir bağların salınması ilə bağlı müraciətlər daxil olub. Bu layihələr üzrə investorlar və sahibkarlarla müqavilələr bağlanıb. İstixana komplekslərinin yaradılması da azad edilmiş ərazilərdə kənd təsərrüfatının inkişafının əsas istiqamətlərindən biri hesab olunur. Azərbaycanda ilk böyük istixana komplekslərindən birinin məhz bu ərazilərdə, Araz Vadisi İqtisadi Zonası ərazisində, 230 hektar sahədə inşa olunması nəzərdə tutulur.

Bu layihə yerli istehsalın artırılması, müasir aqrar texnologiyaların tətbiqi və kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Azad edilmiş ərazilərdə torpaq sahələrinin konsolidasiyasının həyata keçirilməsi nəzərdə tutulur. Bu proses torpaq resurslarından daha səmərəli istifadə etməyə, iri təsərrüfatların yaradılmasına və müasir aqrar layihələrin daha effektiv şəkildə reallaşdırılmasına imkan verəcək. Beləliklə, həyata keçirilən tədbirlər kənd təsərrüfatında yeni istehsal modelinin formalaşdırılmasına, innovativ yanaşmaların tətbiqinə və azad edilmiş ərazilərin iqtisadi potensialının daha geniş şəkildə istifadəsinə xidmət edəcək.

*Nurlan ABDALOV*
*XQ*

**Sabirabad**

# Yevlax aqrar yüksəlişin ön sırasındadır

## *Əməkdaşımız ezamiyyətdən qayıdıb*

**Mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə, eləcə də "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nın qəbulu aqrar sektorda yeni inkişaf mərhələsinin başlanması kimi dəyərləndirilir.**

Hazırda bütün ölkədə olduğu kimi, Aran iqtisadi rayonuna daxil olan Yevlaxda dövlət başçısının məlum müşavirədə qarşıya qoyduğu vəzifələrin, verdiyi tapşırıq və tövsiyələrin icrası istiqamətində mühüm işlərin görülməsinə başlanılıb. Ölkənin iqtisadi inkişafına, ərzaq təhlükəsizliyinin təminatına mühüm töhfələr verən yevlaxlılar Prezident İlham Əliyevin proqram xarakterli nitqindən irəli gələn vəzifələrin icrası üçün bütün imkanları səfərbər ediblər.

### Bitkiçilik

Son illər rayonda taxılçılığın inkişafına diqqət getdikcə artırılır. Bu sahədə yüksək nəticələrin əldə olunması üçün məhsuldar sortlar əkilir. Əkin sahələrinə aqrotexniki qaydada qulluq göstərilir, gübrə və texnikalarla təminat yüksək səviyyədə təşkil olunur. Bütün bunların nəticəsidir ki, ötən il rayon üzrə 35 min 397,3 min ton taxıl tədarük olunub, hektarın orta məhsuldarlığı iə 34,2 sentner təşkil edib.

Cari ilin məhsulu üçün rayonda, ümumilikdə, 10 min 777,2 hektar sahədə taxıl əkilib. Bunun da 4 min 226,6 hektarı buğdanın, 6 min 550,6 hektarı arpanın payına düşüb. Hazırda ölkənin əksər bölgələrində olduğu kimi, Yevlax rayonunda da  taxıl biçini mütəşəkkil şəkildə davam edir. Məhsulun vaxtında və itkisiz yığılmasını təmin etmək üçün qabaqcıl texnikalar səfərbər olunub.

Yevlax Şəhər İcra Hakimiyyətindən bildirdilər ki, indiyədək 3 min 250 hektar buğda sahəsində biçin başa çatdırılıb. Bunun da hesabına zəmilərdən 10 min 642 ton məhsul toplanıb. Buğda sahələri üzrə hektarın orta məhsuldarlığı 38 sentner təşkil edib. Xatırladaq ki, ötən il bu rəqəm 37,8 sentner olub. Hazırda buğda biçini sürətlə davam edir.

Bununla yanaşı, mövsümün əvvəlindən indiyədək 6 min 500 hektar arpa sahəsində biçin həyata keçirilib. Hər hektardan orta hesabla 31,6 sentner məhsul yığılıb. Bu isə ötənilki göstəricidən bir qədər yüksəkdir. Artıq rayonun arpa sahələrində biçin yekunlaşmaq üzrədir. Yeri gəlmişkən, rayonda biçin kampaniyasına iyunun 10-da start verilib. Artıq sahələrin, təxminən, 90 faizində biçin başa çatdırılıb ki, bu da ölkə üzrə ən yaxşı göstərici sayıla bilər.

Qeyd edək ki, rayonda taxıl biçinini optimal müddətdə başa çatdırmaq üçün sahələrə 20 kombayn cəlb edilib. Bunun da 12-si "Aqroservis" ASC Yevlax regional nümayəndəliyinin balansında olan texnikalardır.

Bununla yanaşı, fermerlər tərəfindən bu ilin məhsulu üçün 611 hektar sahədə yazlıq qarğıdalı əkilib. Eyni zamanda, təsərrüfatlarda əlavə olaraq təkrar qarğıdalı əkinlərinin aparılması nəzərdə tutulur. Hədəf isə rayon üzrə qarğıdalı sahələrini 1000 hektara çatdırmaqdır. Mövsümün əvvəlindən rayonunun təsərrüfatlarında 1013 hektar sahədə günəbaxan əkilib. Hazırda fermerlər yüksək məhsuldarlığa nail olmaq üçün əkin sahələrinə lazımi aqrotexniki qulluq göstərirlər.

Yevlaxda kartofçuluğun inkişafı da diqqət mərkəzində saxlanılır. Ötən təsərrüfat ilində rayon üzrə 160 hektar sahədə kartof əkilib, 1768 ton məhsul toplanıb. Hər hektardan orta hesabla 110,5 sentner məhsul əldə edilib. Cari ilin məhsulu üçün isə təsərrüfatlarda 165 hektar sahədə kartof əkilib. Artıq təsərrüfatlarda məhsul yığımına hazırlıq görülür. Bu il rayon üzrə kartof istehsalında da yüksək artım gözlənilir.

Çəltikçilik Yevlax rayonu üçün ənənəvi əkin növü sayılmasa da, son illər bu sahəyə də marağın artması müşahidə olunur. Təkcə



onu qeyd etmək kifayətdir ki, ötən il rayon üzrə 146 hektar sahədə çəltik əkilib, tarlalardan 458,4 ton məhsul yığılıb. Bu sahədə hektarın orta məhsuldarlığı 31,4 sentner təşkil edib. Yevlax fermerləri bu ilin məhsulu üçün isə 148 hektar sahədə çəltik əkiblər. Hazırda sahələrə lazımi aqrotexniki qulluq göstərilir.

Rayonun iqlim və torpaq şəraiti tərəvəzçilik və bostan məhsullarının yetişdirilməsi üçün də olduqca münasibdir. Ötən il rayon üzrə tərəvəz əkini həyata keçirilmiş 599 hektar sahədən 6 min 963,1 ton məhsul yığılıb. Tərəvəzçilikdə hektarın orta məhsuldarlığı isə 116,2 sentner təşkil edib.

Bununla yanaşı, 240 hektar sahədə bostan bitkiləri əkilib. Bunun da hesabına sahələrin hər hektarından orta hesabla 270,3 sentner olmaqla 3 min 168,8 ton məhsul yığılıb. Bu ilin məhsulu üçün isə rayon üzrə müvafiq olaraq 650 hektardan çox tərəvəz və 248,6 hektar bostan bitkiləri əkilib. Rayon üzrə 1155,2 hektar sahədə meyvə bağları salınıb. Bunun da hesabına bağların hər hektarından orta hesabla 137,9 sentner olmaqla 935,9 ton yüksək keyfiyyətli meyvə yığılıb.

### Baramaçılıq

Yevlaxda baramaçılıq da ənənəvi kənd təsərrüfatı sahələrindən sayılır. 2025-ci ildə kümçülərə 100 qutu ipəkqurdu paylanıb. Nəticədə, 3 min 870,5 kiloqram yüksək keyfiyyətli barama istehsal olunaraq tədarük məntəqələrinə təhvil verilib. Baramaçılıqda əldə olunmuş uğurlu nəticə rayonda bu sahəyə marağın artmasına səbəb olub. Elə cari ilin məhsulu üçün kümçülərə daha çox–130 qutu ipəkqurdunun paylanması da bunu təsdiqləyir. Çəkilmiş əziyyətin nəticəsi isə göz qabağındadır: bugünədək tədarük məntəqələrinə 4 min 334 kiloqram barama təhvil verilib. Hazırda rayon üzrə barama tədarükü davam etdiyindən bu, son rəqəm sayıla bilməz.

### Pambıqçılıq



Son illər Yevlax rayonunda pambıq əkini dövlət proqramları və subsidiya dəstəyi ilə genişləndirilir. **Yevlax Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Abbasəli Rüstəmov** XQ-yə müsahibəsində bildirdi ki, əvvəllər



pambıq əkilməyən rayonda son 5-6 ildə bu sahəyə maraq xeyli artıb. Bu da pambıqçılığa göstərilən hərtərəfli dövlət dəstəyinin məntiqi nəticəsidir. Onun sözlərinə görə, ötən il rayon üzrə 3 min 301 hektar sahədə pambıq əkilib. Bunun da hesabına tarlalardan 11 min 826,9 ton "ağ qızıl" toplanıb.

Cari ilin məhsulu üçün isə 2 min 990,08 hektar sahədə pambıq əkini ilə bağlı şirkətlərlə müqavilə bağlanıb. Mövsümün əvvəlində 2 min 953 hektar sahədə çiyid səpini həyata keçirilib. Bunun isə 2 min 106 hektarında yaxşı çıxış alınıb. Pambıq əkini sahəsində "Prime Cotton", "Eden Aqro" "Goran Cotto", "Azərpambıq" məhdud məsuliyyətli cəmiyyətləri və digər şirkətlər xüsusi fəallıq göstəriblər: "Bu şirkətlər fermerlərə hərtərəfli dəstək göstərirlər. Məsələn, pambıq əkini üçün lazım olan texnika və digər vasitələr təmin olunur. Ötən il rayonda orta məhsuldarlıq hər hektardan, təxminən, 40 sentner təşkil edib ki, bu da ölkə üzrə yüksək nəticə hesab olunur. Bu, həm də onu göstərir ki, rayonun torpaq-iqlim şəraiti pambıqçılıq üçün olduqca əlverişlidir. Biz də bu sahənin inkişafı üçün lazımi tədbirlər görmüşük. Cari ildə də pambıq əkinlərinə xüsusi diqqət yetirilib və hazırda sahələrdə becərmə işləri davam etdirilir".

Pambıqçılıqda dövlət dəstəyinin mühüm rol oynadığını vurğulayan mərkəz rəhbəri onu da bildirdi ki, bu sahədə əkin subsidiyası deyil, məhsul subsidiyası tətbiq edilir. Yəni fermerlərə hər hektara görə deyil, təhvil verdikləri məhsulun həcminə görə subsidiya ödənilir. Pambığın hər kiloqramına görə verilən subsidiya isə fermerlərdə daha çox məhsul əldə etməsinə maraq yaradır.

Hazırda şirkətlər pambığın bir kiloqramını bazar qiyməti ilə alır, əlavə olaraq dövlət tərəfindən də hər kiloqrama görə subsidiya ödənilir. Bu isə pambıqçılıqla məşğul olan fermerlər üçün əlavə gəlir mənbəyi yaradır. Məsələn, pambığın bir kiloqramını tədarük məntəqələrinə 80 qəpiyə təhvil verən fermerlər yetişdirdikləri hər kiloqram məhsula görə dövlətdən əlavə olaraq 19,5 qəpik subsidiya alırlar.

Texnika və suvarma suyu ilə təminatda da hər hansı bir problemin olmadığını bildirən A.Rüstəmov qeyd etdi ki,  pambığın əkilməsi, becərilməsi və yığılması üçün lazım olan texnikalar şirkətlər tərəfindən təmin edilir. Hazırda pambığın böyük hissəsi müasir texnikalar vasitəsilə yığılır və əl əməyinə, demək olar ki, ehtiyac qalmayıb.

"Yevlax pambıq əkən fermerlərin sayı kifayət qədər çoxdur. Əkin sahələri də ildən-ilə genişlənir. Fermerlərin gübrə və digər kənd təsərrüfatı vasitələri ilə təminatında problem yaşanmır. Gübrə satan şirkətlər tərəfindən həm fosforlu, həm azotlu, həm də digər növ gübrələr fermerlərə təqdim olunur", – deyə o əlavə etdi.

Eyni zamanda, subsidiya sistemi vasitəsilə fermerlər güzəştlərdən də yararlana bilirlər. Dövlət gübrələrin və digər kənd təsərrüfatı vasitələrinin müəyyən hissəsini subsidiya hesabına kompensasiya edir. Nəticədə, fermerlərin xərcləri azalır və istehsala maraq artır.

### Heyvandarlıq

Kənd təsərrüfatının digər mühüm sahəsi olan heyvandarlığın inkişafı da prioritet istiqamət kimi diqqət mərkəzində saxlanılır. Ötən il rayon üzrə iri və xırda buynuzlu mal-qaranın baş sayı müvafiq olaraq 79 min 566 və 185 min 713, quşların baş sayı isə 458 min 147 olub. İl ərzində heyvandarlıq məhsullarının istehsalı sahələrində uğurlu nəticələrə imza atılıb. Belə ki, rayon üzrə diri çəkidə 9 min 473,4 ton ət, 38 min 442,4 ton süd, 363,6 ton yun və 19 milyon 446 min ədəd yumurta istehsal olunub.

Royonun aqrar sektorunun mövcud vəziyyətini əks etdirən bu rəqəmlər kəndli, fermer əməyinin nəticələrindən xəbər verir. Onların sayı isə olduqca çoxdur. Bu gün Yevlaxda torpağa, zəhmətə qəlbən bağlı təsərrüfat sahiblərindən sayılan **fermer Telman Novruzovu** tanımayan yoxdur. O, ölkədə kənd təsərrüfatının inkişafı sahəsində xid-



mətlərinə görə Prezident İlham Əliyevin 3 noyabr 2022-ci il tarixli sərəncamı ilə 3-cü dərəcəli "Əmək" ordeninə layiq görülüb.

Ömrünün çox hissəsini torpağa həsr edən qabaqcıl təsərrüfat fədaisi 1997-ci ildən aqrar sektorda çalışır. Rayonun Nemətabad kəndində yaşayan fermer T.Novruzovun öhdəsində 53 hektar özəl, 120 hektar əkin və örüş bələdiyyə torpağı, eləcə də fərdi təsərrüfat sahiblərindən icarəyə götürdüyü 23 hektar torpaq sahəsi var. 2025-ci ildə 46 hektar sahədə pambıq becərən fermer 225,4 ton "ağ qızıl" toplayaraq tədarük məntəqələrinə təhvil verib. Təsərrüfatında pambığın orta məhsuldarlığı hər hektar üçün 49 sentner təşkil edib, ki bu da ölkə üzrə yüksək göstərici sayılır.

Bununla yanaşı, fermer öhdəsində olan torpaqlarda 23 hekter buğda və 18 hektar arpa əkib. Hər iki istiqamətdə uğurlu nəticələrə imza il ərzində 119,6 ton buğda və 81 ton arpa tədarük edib. Buğda və arpa sahələrində hektarın orta məhsuldarlığı isə müvafiq olaraq 52 və 45 sentner təşkil edib ki, bu da respublika üzrə yüksək göstərici sayılır.

Qabaqcıl fermer bu ilin məhsulu üçün isə 30 hektar sahədə pambıq, 21 hektarda arpa və 28 hektarda buğda əkib. Sahələrdə bol məhsul yetişdirməyə müvəffəq olmuş T.Novruzov arpa biçinini tam yekunlaşdırıb. Mövsümün əvvəlindən 11,3 ton arpa tədarük edən fermer hər hektardan orta hesabla 53 sentner məhsul toplayıb.

Hazırda təsərrüfatçı buğda biçininə hazırlaşır. Onun bu sahədə də yüksək nəticə əldə edəcəyi heç kəsdə şübhə doğurmur. Fermerin təsərrüat qayğılari isə, necə deyərlər, başdan aşır. Axı o, həm də rayonun nümunəvi, qabaqcıl pambıqçılarından sayılır. İndi biçinlə yanaşı, əkdiyi pambıq sahələrinə də yüksək aqrotexniki qulluq göstərir.

Telman Novruzov əkin-biçinlə yanaşı, ölkənin ət və ət məhsulları ilə təminatına da töhfələr verir. Bu məqsədlə o, təsərrüfatında 140 baş iribuynuzlu və 280 baş xırdabuynuzlu mal-qara bəsləyir. Heyvanların yemə olan tələbatının ödənilməsi üçün isə 18 hektar sahədə yonca əkib.

### Aqropark

Ölkəmizdə aqrar sahənin inkişafı dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılır. Son illər həyata keçirilən islahatlar, fermerlərə göstərilən qayğı və müasir aqrar layihələr kənd təsərrüfatının inkişafına mühüm töhfə verir. Ölkə başçısının bu sahədə verdiyi mühüm tapşırıqlara uyğun olaraq aqrar sahənin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Azərbaycanda kənd təsərrüfatının inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramının qəbul edilməsi də bu diqqətin bariz nümunəsidir.

Aqrar sahədə həyata keçirilən mühüm layihələrdən biri də ötən il istifadəyə verilən və açılışında cənab Prezidentin iştirak etdiyi Yevlax Pilot Aqroparkıdır. Ümumi ərazisi 2 min 807 hektar olan Yevlax Pilot Aqroparkda torpaq sahəsinin 2 min 406 hektarı 34 rezidentə ayrılmışdır. Aqroparkın ərazisinin 1 min 185 hektarını çoxillik əkinlər, 1 min 298 hektarını birillik əkinlər, 141 hektarını isə sənaye zonası təşkil edir.

Hazırda aqroparkda rezidentlərə ayrılmış 20 hektarlıq parsellər üzrə 615 hektar sahədə müasir suvarma sistemlərinin tətbiqi ilə intensiv və superintensiv meyvə bağları salınmış, 6 hektar sahədə müasir tingçilik təsərrüfatı yaradılmış, 1 min 298 hektar sahədə isə birillik əkinçilik fəaliyyəti həyata keçirilir. Həmçinin aqroparkda damazlıq yumurta, meyvə, ting və digər bitkiçilik məhsullarının istehsalı təşkil olunmuşdur.

Bugünədək rezidentlər tərəfindən aqroparka 63 milyon manat investisiya yatırılmış, 185 daimi və 593 mövsümi iş yeri yaradılmışdır. 2025-ci ildə rezidentlər tərəfindən 8,3 milyon manat dəyərində məhsul satışı həyata keçirilmişdir.

Aqroparkda müasir "ağıllı kənd təsərrüfatı" həlləri geniş tətbiq olunur. Meyvə bağlarında quraşdırılmış iqlim stansiyaları, torpaq nəm sensorları və feromon tələləri suvarma prosesinin optimallaşdırılmasına, xəstəlik və zərərvericilərin erkən aşkarlanmasına və ümumilikdə istehsalın daha səmərəli təşkilinə imkan yaradır. Bütün bu göstəricilər aqroparkın aqrar sahədə əlavə dəyərin və ixrac potensialının artırılması, intensiv texnologiyaların tətbiqinin genişləndirilməsi, özəl investisiyaların təşviqi, kənd yerlərində dayanıqlı məşğulluğun və gəlir imkanlarının artırılması baxımından uğurlu model kimi formalaşdığını göstərir.

Aqroparkın üstünlüklərindən biri də rezidentlərin dövlət vəsaiti hesabına yaradılmış müasir mühəndis-kommunikasiya infrastrukturu – su, elektrik enerjisi, qaz və yol təminatı ilə tam şəkildə əhatə olunmasıdır.

**"Aqrotop" MMC-nin direktoru Qalib Nuriyev XQ-yə dedi:**

–Yevlax Pilot Aqroparkının rezidenti və bağçılıq təsərrüfatının sahibi olaraq deyə bilərəm ki, burada yaradılan şərait fəaliyyətimizin inkişafına ciddi dəstək olub. Dövlət tərəfindən yaradılmış müasir infrastruktur – su, elektrik enerjisi, qaz və yol təminatı istehsal prosesinin daha səmərəli təşkilinə imkan yaradır və fermerlərin üzərindəki bir çox yükü aradan qaldırır.

Hazırda təsərrüfatımızda intensiv və superintensiv meyvə bağları üzrə müasir texnologiyalardan istifadə olunur. Meyvə bağlarında quraşdırılmış iqlim stansiyaları və torpaq nəm sensorları suvarma prosesinin daha dəqiq idarə edilməsinə, sudan səmərəli istifadəyə və məhsuldarlığın yüksəlməsinə imkan yaradır.

Ümumilikdə, əldə etdiyimiz nəticələr göstərir ki, müasir aqrotexniki yanaşmalar və dövlət dəstəyi kənd təsərrüfatında yüksək səmərəliliyə nail olmağa şərait yaradır. Biz də aqropark rezidentləri olaraq bu artım dinamikasına öz töhfəmizi veririk. Bir fermer kimi dövlətimizin kənd təsərrüfatına göstərdiyi diqqət və qayğını gündəlik fəaliyyətimizdə hiss edirik. Bu dəstək bizə istehsal həcmini artırmağa, yeni texnologiyalar tətbiq etməyə və gələcək inkişaf planlarımızı daha inamla həyata keçirməyə imkan verir.

Yevlax Pilot Aqroparkı bizim üçün yalnız istehsal məkanı deyil, həm də müasir bilik və texnologiyaların tətbiq olunduğu, təcrübə mübadiləsinin aparıldığı və aqrar sahənin inkişafına xidmət edən uğurlu bir platformadır.

### Subsidiya və sığorta

Hazırda bütün ölkədə olduğu kimi, Yevlaxda da kənd təsərrüfatı istehsalçılarına dəstək məqsədilə dövlət subsidiyaları tətbiq edilir. Rayonda dövlət tərəfindən fermerlərə göstərilən dəstək tədbirləri çərçivəsində subsidiya mexanizmi ildən-ilə təkmilləşdirilir və subsidiya məbləğlərində artımlar müşahidə olunur. Yevlax rayonunda əsas əkin sahələrini taxıl bitkiləri, xüsusilə buğda və arpa təşkil edir. Bu əkinlərə görə fermerlərə dövlət tərəfindən subsidiya ödənilir. Hər hektar üzrə müəyyən edilmiş məbləğdə maliyyə dəstəyi göstərilir.

Yevlax Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirdilər ki, cari ildə rayon üzrə buğda və arpa əkinlərinə görə, ümumilikdə, milyonlarla manat subsidiya vəsaiti ayrılıb. Bununla yanaşı, qarğıdalı, günəbaxan, pambıq və digər strateji məhsullar üzrə də subsidiyalar tətbiq olunur. Rayonda təkrar əkinlər də geniş şəkildə həyata keçirilir. Təkrar əkin proqramına qarğıdalı, günəbaxan, çəltik, soya, sorqo və kartof kimi bitkilər daxildir. Bu bitkilərin hər hektarına görə fermerlərə əlavə olaraq 100 manat məbləğində subsidiya ödənilir.

Ötən il təkrar əkinlərə görə də fermerlərə xeyli məbləğdə subsidiya verilib. Eyni zamanda, pambıqçılıq, taxılçılıq və digər istiqamətlər üzrə də dövlət dəstəyi davam etdirilib. Subsidiyaların ödənilməsi isə Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi vasitəsilə həyata keçirilir. Ötən müddətdə Yevlax rayonu üzrə, təxminən, 11 minə yaxın fermer və fərdi təsərrüfat sahibi bu sistemdə qeydiyyatdan keçib. Torpaq istifadəçilərinin böyük əksəriyyəti elektron sistem üzərindən subsidiyalardan yararlanır. Ümumilikdə, dövlət tərəfindən göstərilən maliyyə dəstəyi fermerlərin istehsal imkanlarının genişlənməsinə, məhsuldarlığın artırılmasına və kənd təsərrüfatının inkişafına mühüm töhfə verir.

Aqrar sığorta mexanizmi isə, sözün həqiqi mənasında, fermerin himayədarı və dostu funksiyasını yerinə yetirir. Hazırda bütün ölkədə olduğu kimi, Yevlaxda da bütün əkin sahələri sığortalanır. Yeri gəlmişkən, aqrar sığorta mexanizminin şərtlərinə əsasən, 10 hektardan yuxarı əkin sahələri mütləq qaydada sığorta olunmalıdır ki, fermer həm dövlətin subsidiya dəstəyindən yararlana bilsin, həm də təbiət hadisələri zamanı dəymiş ziyana görə sığorta vəsaiti ala bilsin.

Aqrar Sığorta Fondu və sığorta şirkətlərinin nümayəndələri mütəmadi olaraq fermerlərlə görüşür, maarifləndirmə işləri aparırlar. Fermerlər sığorta müqavilələrini bağlayaraq əkinlərini müxtəlif risklərdən qoruyurlar. Sığorta prosesi elektron müraciət sistemi vasitəsilə həyata keçirilir. Fermer müraciət etdikdən sonra müvafiq şirkət və ya qurum tərəfindən məlumatlar yoxlanılır və müqavilə rəsmiləşdirilir. Qiymətləndirmə isə qanunvericiliyin tələblərinə uyğun olaraq mütəxəssislər tərəfindən aparılır. Dəymiş zərər təsdiqləndikdən sonra fermerlərə müvafiq sığorta ödənişləri həyata keçirilir.

### Tövsiyələr, təlimlər

Yevlax Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Abbasəli Rüstəmov deyir ki, kənddə yaşayan insanların əsas dolanışığı torpaqdan çıxdığı üçün axtilə dövlət tərəfindən vətəndaşlara torpaq payları verilib. Hazırda hər kəs öz pay torpağından sərbəst istifadə edir, müstəqil şəkildə əkin aparır, məhsul yetişdirir və öz təsərrüfatlarını inkişaf etdirir.

Bu gün Yevlaxda istifadəsiz qalan torpaq sahəsinin olmadığını vurğulayan mərkəz rəhbəri hazırda həm fərdi təsərrüfat torpaqlarından, həm də pay torpaqlarından səmərəli istifadə olunduğunu bildirdi: "Kənd əhalisinin gəlirləri, əsasən, torpaqdan əldə edilən məhsullar hesabına formalaşır. Bəzi ərazilərdə torpaqların münbitliyi daha yüksəkdir, bəzi ərazilərdə isə torpağın xüsusiyyətlərinə uyğun bitkilər seçilir. Məsələn, bəzi bölgələrdə torpaqlar şoranlığa meyilli olduğuna görə burada şoranlığa davamlı bitkilər, xüsusilə arpa becərilir. Digər ərazilərdə isə pambıqçılıq daha geniş yayılıb. Torpağın tərkibi və münbitlik səviyyəsi nəzərə alınaraq uyğun kənd təsərrüfatı bitkiləri seçilir. Beləliklə, torpaq sahələri boş qalmır və onlardan səmərəli istifadə olunur".

Bu baxımdan aqrar sektorda fəaliyyət göstərən fermer və fərdi  təsərrüfat sahibləri ilə maarifləndirmə işinin də yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdıran A.Rüstəmov söhbətinin davamında bildirdi: "Yevlax Dövlət Aqrar İnkişaf Mərkəzinin əməkdaşları fermerlərlə daim əlaqə saxlayır, onların təsərrüfatlarına baş çəkir, qayğı və problemləri ilə maraqlanırlar. Bu sahədə əsas fəaliyyət istiqamətlərindən biri informasiya-məsləhət xidmətlərinin göstərilməsidir. Fermerlərə əkinçilik və becərmə qaydaları, müxtəlif bitkilərin aqrotexniki xüsusiyyətləri, hansı gübrələrin tətbiq olunması, hansı xəstəlik və zərərvericilərə qarşı hansı mübarizə tədbirlərinin görülməsi barədə mütəmadi məlumat verilir.

Bundan əlavə, Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərən Aqrar Təlim Mərkəzi tərəfindən fermerlər üçün mütəmadi təlimlər təşkil olunur. Həmin təlimlər isə mövsümi işlərə uyğun şəkildə keçirilir. Məsələn, Dövlət Aqrar İnkişaf Mərkəzlərində fermerlər üçün müxtəlif mövzularda maarifləndirici tədbirlər təşkil edilir. Fermerlər qruplar halında təlimlərə dəvət olunur və onlara aktual mövzular üzrə məlumatlar təqdim edilir. Məsələn, payızlıq əkinlərin hazırlanması, səpin işlərinin aparılması, yazlıq əkinlərə hazırlıq və digər mövzular ətrafında müzakirələr aparılır. Aqrar Təlim Mərkəzinin mütəxəssisləri fermerlərin maraqlandığı sualları cavablandırır, onları zəruri informasiya ilə təmin edirlər. Bunun sayəsində fermerlər öz fəaliyyətlərində qarşılaşdıqları problemləri daha asan həll edə bilirlər...

*Mirbağır YAQUBZADƏ*
*XQ*

**Yevlax**

# Ağdaş torpağında yeni çağırışların əks-sədası

## *Dövlət dəstəyi rayonda bolluğa təkan verir*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə verilmiş tapşırıqların icrası və "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulan tədbirlərin regionlar üzrə əlaqəli və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədilə bölgələrdə məlumatlandırma sessiyaları təşkil edilir.**



Ölkənin bütün rayonlarında yol xəritəsi səciyyəsi daşıyan müşavirə materialları və sözügedən Dövlət Proqramı ilə bağlı yerlərdə maarifləndirmə tədbirləri keçirilir, qlobal çağırışlar və dəyişən iqtisadi şəraitin tələb etdiyi yeni yanaşmaların gerçəkləşdirilməsi məqsədilə əməli addımlar atılır.

Bir neçə gün əvvəl Ağdaş rayonunda da müvafiq regional müşavirə keçirilib. Toplantıda aidiyyəti dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələr, habelə Ağdaş, Göyçay, Kürdəmir, Ucar, Yevlax, Zərdab rayonlarından olan fermerlər iştirak ediblər. Prezidentin köməkçisi – Prezident Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri Zeynal Nağdəliyev dövlət başçısının kənd təsərrüfatı sahəsinə göstərdiyi diqqətdən və bu məqsədlə keçirilən müşavirədə verilən tapşırıqlardan danışıb, habelə yeni Dövlət Proqramının məqsədi və əhəmiyyəti barədə iclas iştirakçılarına ətraflı məlumat verib.

Qeyd edilib ki, son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahənin inkişafı, torpaq və su resurslarından istifadənin səmərəliliyinin artırılması istiqamətində genişmiqyaslı islahatlar həyata keçirilib, mühüm layihələr icra olunub. Yeni Dövlət Proqramı bu islahatların məntiqi davamı olmaqla aqrar sektorun inkişafında yeni mərhələnin əsasını təşkil edir.



Regional müşavirədə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov çıxışında Mərkəzi Aran iqtisadi rayonunda su təminatı, mövcud meliorasiya və su təsərrüfatı infrastrukturu, həyata keçirilən və perspektivdə nəzərdə tutulan layihələr barədə ətraflı məlumat verib. Kənd təsərrüfatı nazirinin müavini Seymur Səfərli Dövlət Proqramı çərçivəsində Mərkəzi Aran iqtisadi rayonunda kənd təsərrüfatının inkişaf prioritetləri və nəzərdə tutulan dəstək mexanizmləri barədə təqdimatla çıxış edib.

Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Hüseynzadə rayonda kənd təsərrüfatı sahəsində görülən işlər barədə məlumat verib. O, Dövlət Proqramının rayon üçün əhəmiyyətindən danışaraq bildirib ki, 2026–2030-cu illər üçün Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin operativ icrasını təmin etmək məqsədilə rayonda hazırlıq işlərinə artıq başlanılıb.

### Ənənələr dirçəldilir

...Ağdaşda çox olmuşam. Adı dillər əzbəri olan Ərəş mahalının bu gözəl diyarından dəfələrlə yazmışam, qazanılan uğurları həvəslə qələmə almışam. Hələ bu yurdun mehriban, qonaqpərvər insanlarını demirəm. Həmişə xoş ünsiyyətim olub, demişik, gülmüşük, bir sözlə, Ağdaş haqqında deməyə o qədər söz var ki...

Bu dəfə isə Mərkəzi Aranın bu gözəl guşəsinə Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə keçirilən məlum müşavirənin insanlarda xoş əhval-ruhiyyə yaratdığı bir vaxtda gəlmişik. Ağdaş hər zaman özünün zəhmətsevər və qəhrəman övladları ilə seçilib. Hələ ötən illərdə kənd təsərrüfatında böyük uğurlar qazanan neçə-neçə əmək adamını ağdaşlılar yaxşı xatırlayırlar. Kiminlə söhbət etdiksə, bir vaxtlar Ağdaşa şöhrət gətirən məşhur əmək qəhrəmanı Zeynəb Qənbərovanı, pambıqçı Rüxsarə Məmmədovanı, təcrübəli təsərrüfat rəhbəri Firidun Əhmədovu, briqadir İsrayıl İsmayılovu və digərlərini xoş xatirələrlə yada saldılar. Bu gün də Ağdaşda halal zəhməti ilə tanınan adamlar az deyil.

Məhz əməksevər insanların sayəsində əvvəlki dövrlərdə olduğu kimi, ötən il də yüksək göstəricilər qazanılıb. Bitkiçilik – taxıl, çəltik, meyvə, tərəvəz-bostan məhsullarının əkinləri, eləcə də baramaçılıq və heyvandarlıq üzrə fərəhli nəticələr əldə edilib.

**Ağdaş Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Fərhad Əliyev bizimlə söhbətində bildirdi:**

– Prezidenti İlham Əliyevin ölkəmizdə kənd təsərrüfatının inkişafına göstərdiyi davamlı diqqət və qayğı hər bir zəhmət adamını yeni zirvələr fəth etməyə, ərzaq bolluğuna yeni töhfələr verməyə ruhlandırır. Bu gün aqrar sektor ölkə iqtisadiyyatının prioritet sahələrindən birinə çevrilib, kənd təsərrüfatının dayanıqlı inkişafı üçün mühüm baza formalaşdırılıb.

Müvafiq Dövlət proqramları çərçivəsində istehsal potensialı genişlənib, emal sənayesi gücləndirilib, suvarma və infrastruktur sistemləri təkmilləşdirilib, kənd təsərrüfatında dövlət dəstəyi mexanizmləri daha da səmərəli hala gətirilib. Bunun da nəticəsində regionlarda məşğulluğun artırılması və kənd əhalisinin rifahının yüksəldilməsi istiqamətində mühüm nailiyyətlər əldə olunub.

Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə qəbul olunmuş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı" aqrar sahənin inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoyan strateji bir sənəddir. Qeyd etmək lazımdır ki, bu Dövlət Proqramı ölkə rəhbərinin kənd təsərrüfatının uzunmüddətli və dayanıqlı inkişafını təmin etmək məqsədilə irəli sürdüyü növbəti mühüm təşəbbüsdür. Proqram bu sahədəki müəyyən durğunluğun aradan qaldırılmasında mühüm rol oynayacaq, kənd təsərrüfatının inkişafında yeni mərhələnin başlanmasına təkan verəcək.

Rayonumuzun əlverişli torpaq-iqlim şəraiti, zəngin su ehtiyatları və formalaşmış aqrar ənənələri bu sahənin inkişafı üçün geniş imkanlar yaradır. Aqrar sahələr rayon iqtisadiyyatının əsas istiqamətlərini təşkil edir və 10 minlərlə kənd sakininin məşğulluğunun təmin olunmasında mühüm rol oynayır. Dövlət tərəfindən təqdim olunan subsidiyalar, güzəştli kreditlər, aqrotexniki xidmətlər və digər çoxsahəli dəstək mexanizmləri fermerlərin fəaliyyətinin genişlənməsinə önəmli təsir göstərir.

Təkcə bir faktı vurğulayım ki, son 10 ildə rayonumuzda kənd təsərrüfatının ümumi məhsulunun həcmi faktiki qiymətlərlə 217 faiz çoxalıb. Bu dövrdə heyvandarlıq məhsullarının istehsalı 240 faiz, bitkiçilik məhsullarının istehsalı isə 93,1 faiz artıb. Çəltik bitkisinin əkin sahəsində və istehsal olunmuş məhsulda isə iki dəfədən çox artım olub. Ölkə üzrə düyü ilə özünütəminetmə səviyyəsinin 28 faiz olduğunu nəzərə alsaq, bu sahənin inkişaf etdirilməsinin nə qədər mühüm önəm daşıdığı aydın görünər.

Qeyd edim ki, 2026–2030-cu illər üçün Dövlət Proqramının qısa müddəti əhatə etməsini nəzərə alaraq, onun icrasına dərhal başlanılıb. Bu məqsədlə Kənd Təsərrüfatı Nazirliyi ilə birgə Tədbirlər Planının hazırlanmasına başlanılıb və prioritet istiqamətlər üzrə konkret fəaliyyətlər müəyyənləşdirilib. Həmin tədbirlər çərçivəsində kənd təsərrüfatı məhsulları üçün tədarük məntəqəsinin, aqroparkların yaradılması, suvarma sistemlərinin təkmilləşdirilməsi, əkin dövriyyəsinin genişləndirilməsi, müasir aqrotexniki üsulların tətbiqi, bağçılıq, çəltikçilik, toxumçuluq və tingçilik bazasının gücləndirilməsi, fermerlərin maarifləndirilməsi və subsidiyalardan səmərəli istifadənin təmin olunması istiqamətində ardıcıl işlərin həyata keçirilməsi nəzərdə tutulur.

Eyni zamanda, rayonun özəl investisiyalar üçün cəlbediciliyinin artırılması məqsədilə Ağdaş Rayon İcra Hakimiyyətinin sifarişi əsasında Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutu "Ağdaş rayonunun strateji inkişaf planı"nı hazırlayıb.

Dövlət Proqramında nəzərdə tutulmuş hədəflərə çatmaq üçün Prezidentin çağırışına ağdaşlı fermerlər də həvəslə qoşularaq, 1000 hektar müasir suvarma sistemlərinin qurulması nəticəsində ərzaqlıq buğda istehsalını artıraraq məhsuldarlığı 50 sentnerə yüksəltməyi, o cümlədən intensiv bağların əkin sahələrini artırmağı, cins heyvandarlığın inkişaf etdirilərək, sayını 5 min başa çatdırmağı qarşıya məqsəd qoyublar.

Rayonun ənənəvi sahələrindən biri olan çəltikçiliyin inkişaf etdirilməsi məqsədilə yeni toxumçuluq təsərrüfatı yaradılacaq və təsərrüfatda yetişdiriləcək yüksək reproduksiyalı toxumlar hesabına çəltikçilikdə məhsuldarlığın artırılmasına nail olunması nəzərdə tutulub.

Suvarılmayan 15 min 800 hektar torpaq sahəsinin əkin dövriyyəsinə cəlb olunması istiqamətində başlanılmış layihələrin sona çatdırılması Dövlət Proqramında nəzərdə tutulan hədəflərə çatmağa və əkin dövriyyəsinə yeni torpaqların cəlb olunmasına imkan yaradacaq.

Qarşıdakı dövrdə əsas məqsədimiz öhdəliklərin real göstəricilərə çevrilməsi və aqrar sahədə dayanıqlı inkişafın təmin olunmasıdır.

Bu günlərdə fermerlər və mütəxəssislərlə birlikdə məlum müşavirəni konkret vəziyyətin fonunda müzakirə etdik və gələcək inkişaf konturlarını müəyyənləşdirib təkliflərimizi yuxarı orqanlara təqdim elədik. İnanırıq ki, müşavirənin yekunları aqrar sahənin gələcək inkişaf perspektivlərinin müzakirəsi, qarşıda duran vəzifələrin müəyyənləşdirilməsi və Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin səmərəli icrasının təmin edilməsi baxımından faydalı olacaq, regionlar arasında əməkdaşlığın və təcrübə mübadiləsinin daha da genişlənməsinə, həmçinin bizim rayonda aqrar sahənin inkişafına mühüm töhfə verəcək.

### "Türyançay"ın uğurları

**Tanınmış fermer Firdovsi Mahmudov regional müşavirədə çıxış edənlərdən biri idi. Onun dedikləri:**



– Ölkəmizdə kənd təsərrüfatının inkişafı, fermerlərin fəaliyyətinin genişləndirilməsi və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasəti aqrar sahənin inkişafına yeni imkanlar yaradıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə aqrar sahəyə göstərilən diqqət və qayğı, fermerlərə verilən dövlət dəstəyi, subsidiyalar, güzəştli kreditlər, müasir texnika və texnologiyalara çıxış imkanlarının genişləndirilməsi, eləcə də suvarma infrastrukturunun təkmilləşdirilməsi kənd təsərrüfatının davamlı inkişafında mühüm rol oynayır.

Cənab Prezidentin göstərişi ilə kənd təsərrüfatının inkişafı üzrə yeni Dövlət Proqramının hazırlanması, dövlət və özəl sektor investisiyalarının təşviq edilməsi aqrar sahənin gələcək inkişafı üçün geniş perspektivlər açır. Bu yanaşma biz fermerlərdə böyük inam yaradır, yeni təşəbbüslərə başlamağa və daha yüksək nəticələr əldə etməyə ruhlandırır.

Bizim təsərrüfatımız 2007-ci ildən fəaliyyət göstərir. Ümumi torpaq sahəsi 3 min hektara yaxındır. Bunun 2 min hektardan artıq hissəsində taxılçılıq, yemçilik, texniki bitkiçilik və tərəvəzçilik istiqamətləri üzrə istehsal fəaliyyəti həyata keçirilir. Eyni zamanda, 11 pivot qurğusu vasitəsilə 400 hektardan artıq sahədə müasir suvarma sistemləri tətbiq olunur ki, bu da məhsuldarlığın artırılmasında mühüm rol oynayır.

Təsərrüfatımızın fəaliyyətində mühüm yer tutan əsas istiqamətlərdən biri də heyvandarlıqdır. Bu sahədə Holştin-Friz və Simmental cinsli 1700 baş iribuynuzlu heyvan saxlanılır. Təsərrüfatımızda il ərzində 11 min tona yaxın süd və 100 ton ət istehsal edilir. Bununla yanaşı, Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə damazlıq heyvandarlığın inkişafı istiqamətində işlər aparılır. Aidiyyəti elmi-tədqiqat müəssisələri və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə əməkdaşlıq çərçivəsində damazlıq heyvanların yetişdirilməsi həyata keçirilir və yaxın gələcəkdə damazlıq sertifikatlarının tələblərinə cavab verən düyələrin satışının təşkili nəzərdə tutulur.

Dövlət başçısının aqrar sahənin inkişafına dair çağırışlarına biz də qoşularaq, təsərrüfatımızın istehsal imkanlarını daha da genişləndirmək istiqamətində yeni inkişaf hədəfləri müəyyən etmişik.

İlk növbədə, əlavə 1000 hektar ərazidə 25 ədəd müasir pivot suvarma sisteminin quraşdırılması nəzərdə tutulur. Bu layihənin həyata keçirilməsi nəticəsində ərzaqlıq buğda istehsalında məhsuldarlığın hər hektardan 55–60 sentnerə çatdırılması planlaşdırılır. Həmin layihə üzrə 4 milyon manat həcmində investisiya qoyuluşu reallaşdırılacaq.

Eyni zamanda, süd istehsalının artırılması məqsədilə Almaniya Federativ Respublikasından əlavə 1500 baş Holştin-Friz cinsli iribuynuzlu heyvanın gətirilməsi planlaşdırılır. Bunun nəticəsində təsərrüfatımızdakı heyvanların sayının 3200 başa, illik süd istehsalının isə 2 dəfə artırılaraq 22 min tona çatdırılması nəzərdə tutulur. Bu istiqamətdə 6 milyon manat həcmində investisiya qoyuluşu planlaşdırılmışdır.

Beləliklə, qarşıdakı dövrdə təsərrüfatımız tərəfindən ümumilikdə 10 milyon manat investisiyanın yatırılması nəzərdə tutulur. Bu layihələrin həyata keçirilməsi istehsal həcmlərinin artırılmasına, yeni iş yerlərinin yaradılmasına və rayonun aqrar potensialının daha da gücləndirilməsinə xidmət edəcəkdir.

Bununla yanaşı, heyvandarlıq təsərrüfatının yem bazasının ilboyu dayanıqlı təmin olunması məqsədilə yem silolarının, həmçinin meyvə-tərəvəz məhsullarının saxlanılması üçün soyuducu anbarların yaradılması da planlaşdırılır.

Əminik ki, dövlətimizin aqrar sahəyə göstərdiyi davamlı dəstək, həyata keçirilən islahatlar və yeni inkişaf proqramları qarşıya qoyulan məqsədlərə nail olunmasına geniş imkanlar yaradacaqdır. Biz də öz növbəmizdə bu imkanlardan səmərəli istifadə edərək ölkəmizin ərzaq təhlükəsizliyinin təmin edilməsinə və kənd təsərrüfatının inkişafına daha böyük töhfə verməyə çalışacağıq.

Sonda kənd təsərrüfatının və sahibkarlığın inkişafına göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildirir, aqrar sahənin inkişafı istiqamətində həyata keçirilən dövlət siyasətini daim dəstəklədiyimizi ifadə edirəm.

### Bolluğun su təminatı

**Ağdaş Su Meliorasiya Sistemlərinin İstismarı İdarəsinin rəisi Azər Paşayev də söhbətimiz zamanı aqrar sahənin inkişafında suvarmanın rolundan bəhs etdi:**

– 2026-cı il ərzində Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin Regional Su Meliorasiya Xidmətinin strukturuna daxil olan idarəmiz tərəfindən rayon ərazisində əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, meliorativ vəziyyətin sağlamlaşdırılması, kollektor-drenaj şəbəkələrinin istismarı, hidrotexniki qurğuların saz vəziyyətdə saxlanılması və su təsərrüfatı obyektlərinin dayanıqlı fəaliyyətinin təmin edilməsi istiqamətində genişhəcmli işlər həyata keçirilib. İdarə Regional Su Meliorasiya Xidmətinin yerli struktur bölmələrindən biri kimi fəaliyyət göstərir.

Bizim Ağdaş rayonu coğrafi baxımdan respublikanın mərkəzində yerləşir. Bu yerləşmənin üstünlüklərindən ən başlıcası rayonun 3 mənbədən suvarma suyu ilə təmin oluna bilməsidir. Kür, Türyançay çayları ilə yanaşı, Şirvan kanalından qidalanan əkin sahələri, demək olar ki, problem yaşamır. Hər 3 mənbədən cari ildə 50 min 690 min kubmetr su qəbul edilmiş, bunun 36 min 500 kubmetri təsərrüfatlara çatdırılmışdır. Bununla da 15 min 238 hektar ərazi suvarma suyu ilə təmin olunmuşdur. 2026-ci ildə rayon ərazisində 2 min 112 hektar taxıl bitkisinin suvarılmasını həyata keçirmişik. Hazırda 226 hektar çəltik bitkisinin suvarılması ilə məşğuluq.

İl ərzində rayonun müxtəlif kənd və qəsəbələrində yerləşən suvarma kanalları, arxlar və kollektorlar mexaniki üsulla lildən və suyun axınına mane olan müxtəlif maneələrdən təmizlənmişdir. Bunun nəticəsində suyun sərbəst hərəkəti təmin olunmuş, su itkilərinin qarşısı alınmış və kənd təsərrüfatı məhsullarının su təminatı yaxşılaşdırılmışdır. Cari ilin birinci yarısına kimi 152 km suvarma kanalları, 30 km kollektor-drenaj şəbəkələri təmizlənmiş, çay məcralarının təmizlənməsi, sahilyanı hissələrinin dağılmasının qarşısını alınması məqsədilə Türyançay çayının məcrasında 60 kubmetr torpaq işləri görülmüşdür.

Eyni zamanda, kənd təsərrüfatı təyinatlı torpaqların suvarma suyu ilə təminatının yaxşılaşdırılması məqsədilə mənbəyini Türyançay çayından götürən və Kotavan və Xınaxlı kəndlərinin əkin sahələrini suvarma suyu ilə təmin edən kanalın təxminən 14 kilometr hissəsində qazıntı və təmizləmə işləri aparılmışdır. Bu kanal il ərzində 5-6 dəfə lildən təmizlənir. Görülən işlər nəticəsində suyun sərbəst axını bərpa edilir, əkin sahələrinin suvarma suyu ilə təminatı əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışır.

İdarəmiz tərəfindən torpaq istifadəçilərinin müraciətlərinə operativ baxılmış, suvarma suyunun bölgüsünün tənzimlənməsi, su növbəliliyinin təmin edilməsi və su istifadəçilərinin problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görülmüşdür. Həmçinin kollektor-drenaj şəbəkələrinin işlək vəziyyətdə saxlanılması hesabına qrunt sularının səviyyəsinin aşağı salınması və torpaqların şorlaşmasının qarşısının alınması istiqamətində işlər davam etdirilmişdir.

Su təsərrüfatı obyektlərində təhlükəsizlik qaydalarına əməl olunmasına nəzarət gücləndirilmiş, işçilər arasında əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına dair maarifləndirici tədbirlər keçirilmişdir.

Həyata keçirdiyimiz meliorativ və istismar tədbirləri rayonun kənd təsərrüfatının inkişafına, suvarılan torpaqların məhsuldarlığının artırılmasına və torpaq istifadəçilərinin su təminatının yaxşılaşdırılmasına mühüm töhfə vermişdir və yeni çağırışlarla əlaqədar nəzərdə tutduğumuz tədbirlər ölkədə ərzaq bolluğunun artırılmasına əlavə töhfələr verəcək…



Ağdaşda görüşüb söhbət etdiyimiz aqrar sahə mütəxəssisləri bizi bu sahənin daha da inkişafı ilə bağlı konkret təklifləri ilə tanış etdilər. Məsələn, yonca əkininə verilən subsidiya istisna olmaqla, bütün əkin növləri üzrə subsidiyaların məhsul subsidiyası formasında fermerlərə verilməsi, həmçinin, vitro üsulu ilə istehsal olunan və ya satılan calaqaltıların, eləcə də Mərkəzi Aran rayonlarında intensiv üsulla salınan alça, heyva və gilas bağlarına birdəfəlik subsidiyalaşdırılması təklif olunur. Bağçılıq sahəsində avans ödənişlərinin tətbiqi və bunun subsidiyalaşma mexanizmi ilə əlaqələndirilməsi də zəruri sayılır.

Bununla yanaşı, heyvandarlıqla məşğul olan, lakin damazlıq təsərrüfatı olmayan fermerlərə cins tərkibli iribuynuzlu heyvanlardan (süni mayalanma və ya təbii yolla) alınmış cins balalara 500 manat və ya daha yüksək məbləğdə subsidiya verilməsi təklif olunur. Heyvandarlıq sahəsində məhsul subsidiyasına gəlincə isə, bu, kəsim məntəqələrinə ətlik heyvan gətirən fermerlərin, süd qəbulu məntəqələrinə süd təhvil verənlərə südün yağlılıq faizi nəzərə alınmaqla hər kiloqram süd üçün subsidiya verilməsi zərurəti ilə bağlıdır və s.

İnanırıq ki, Dövlət Proqramının icrası Mərkəzi Aran iqtisadi rayonunda taxılçılıq, meyvəçilik, bostançılıq və heyvandarlığın inkişafına, məhsuldarlığın yüksəldilməsinə, fermer təsərrüfatlarının dayanıqlılığının artırılmasına və regionun aqrar potensialından daha səmərəli istifadə olunmasına mühüm töhfə verəcək.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Ağdaş**

*Aqrar proqramın hədəfləri*

# Astara düyüsü yenidən şöhrət qazanır

**Astara əlverişli iqlim şəraiti, məhsuldar torpaqları, bol su mənbələri ilə seçilən barlı-bərəkətli diyardır. Bu yerlərin sakinləri qədimdən çəltikçiliklə məşğul olub. Dadlı, ətirli düyüdən hazırlanmış yüksək kalorili yeməklər, xüsusən növbənöv plov süfrələri bəzəyib.**

Keçən əsrin 60-cı illərinə kimi Astara respublikamızda iri çəltikçilik rayonu kimi tanınırdı. Kənd əməkçilərinin min bir zəhmətlə yetişdirdikləri "ənbərbu", "sədri", "vilgəri", "haşimi" kimi müxtəlif növ düyülər keçmiş ittifaq respublikalarına, hətta xarici ölkələrə də göndərilib. Astara düyüsü dəfələrlə beynəlxalq sərgilərdə yüksək mükafatlara layiq görülüb.

Sonrakı illərdə tərəvəzçiliyin inkişafı çəltikçiliyi sıxışdırsa da, yerli əhali dədə-baba əkinçiliyini unutmayıb. Müstəqillik illərində xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi ilə aqrar sahədə aparılan uğurlu islahatlar nəticəsində çəltikçiliyə qayıdış başlanıb. O illərdə **Astara Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində işləmiş, hüquq elmləri doktoru, professor, Əməkdar müəllim İbrahim Quliyev** deyir:

– Ölkəmizdə aqrar sahənin dinamik inkişafı, əhalinin ərzaq təminatının yaxşılaşdırılması, rifah halının yüksəldilməsi Ulu öndərin titanik səyləri, misilsiz xidmətləri ilə bağlıdır. Astarada həyata keçirilən torpaq və aqrar islahatları nəticəsində kəndlinin torpağa bağlılığı, sahiblik hissi artmış, kənd təsərrüfatı sahəsində yüksək nəticələr əldə olunmuşdur. Xalqımızın əbədiyaşar lideri 1998-ci il oktybr ayının 5-də Astaraya növbəti səfəri zamanı kənd əməkçilərinin fədakarlığını, aqrar sahədə qazanılan uğurları yüksək qiymətləndirmişdir. Yaxşı yadımdadır, Ulu öndər rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə çəltikçilərin də əməyini unutmadı və dedi: **"Astara düyüsü öz keyfiyyətinə görə həmişə şöhrət qazanmışdır və Azərbaycanın ən qiymətli kənd təsərrüfatı məhsullarından biridir".**

Müdrik rəhbərin yüksək qayğısından ruhlanan zəhmətkeş, qədirbilən astaralılar 2000-ci ildə çəltik əkinlərini genişləndirərək 2 min hektara çatdırdılar. Sahələrdən rekord miqdarda – 14 min 909 ton çəltik yığıldı. Hektarın məhsuldarlığı isə 74,5 sentnerə yüksəldi.

Bu il mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə də ölkəmizdə aqrar sahədə həyata keçirilən islahatların ulu öndər Heydər Əliyev tərəfindən başlandığı, dövlətimizin başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə yüksəldiyi vurğulanıb. Kənd təsərrüfatının təkcə iqtisadi fəaliyyət deyil, eyni zamanda, ərzaq təhlükəsizliyi, məşğulluq, regionların inkişafı və ixrac potensialının artırılmasına töhfə verən çoxfunksional sahə olduğu qeyd edilib. Regionlarda yaşayan əhalinin demək olar ki, 50 faizinin məşğulluğu aqrar sahədə təmin olunub.

İxtisasca jurnalist olan, lakin torpaqdan ayrıla bilməyən, əkin-biçindən xüsusi zövq alan **həmkarımız Mehman Quliyevlə** boya-başa çatdığı Artupa kəndində iş başında görüşdük. Təzə əkdiyi çəltik şitilləri suyun içində boy atmış, ətrafı xoş ətir bürümüşdü. 1990-cı illərin əvvəllərindən başlayaraq ailə



üzvləri ilə fermer təsərrüfatı yaratdığını, çəltikçiliyin inkişafına ölkə Prezidenti İlham Əliyevin davamlı qayğı göstərildiyini minnətdarlıqla vurğuladı:

– Sevindirici haldır ki, dövlətimizin başçısı əhalinin yerli istehsal hesabına zəruri ərzaq məhsulları ilə təmin olunmasına, xaricdən ərzaq asılılığının aradan qaldırılmasına böyük önəm verir.

Əhalini yerli istehsal hesabına ekoloji cəhətdən təmiz, orqanik düyü məhsulları ilə təmin etmək, emal müəssisələrinin xammal təchizatını yaxşılaşdırmaq, kənd əhalisinin məşğulluq səviyyəsini və rifah halını yaxşılaşdırmaq məqsədilə cənab İlham Əliyevin 9 fevral 2018-ci il tarixli Sərəncamı ilə "Çəltikçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" qəbul olunub.

Dövlət qayğısı sahibkarları və fermerləri daha yaxşı işləməyə və məhsul istehsalını artırmağa ruhlandırıb. Ailə təsərrüfatımız 0,45 hektar sahədə çəltik əkməyə başlayıb. Əkin sahələrini ilbəil genişləndirmişik. Aprel-may aylarında ənənəvi üsulla, yəni şitil yetişdirməklə 1,5 hektar sahədə "ənbərbu", "haşimi", "sədri", "tarım" kimi yüksəkkeyfiyyətli çəltik sortları yetişdirmişik. Bu üsulun üstünlüyü də çoxdur. Səpmə yolu ilə əkin keçirdikdə hektara 150-200 kiloqram, bəzən daha çox toxum sərf olunduğu halda, şitillə əkin zamanı hektara cəmi 50-60 kiloqram toxum bəs edir. Eyni zamanda, aqrotexniki tədbirlərin görülməsi də rahat başa gəlir. Xüsusilə, alaq otları texniki vasitələrlə təmizləndiyindən pestisidlərdən istifadə olunmur. Bu da ekoloji cəhətdən çox əhəmiyyətlidir. Tətbiq etdiyimiz üsulla məhsul tez yetişir, biçin yağışlı havalara düşmür və itkiyə yol verilmir.

Təcrübəli fermer Mehman Quliyev deyir ki, sağlam, keyfiyyətli toxum həm də bol məhsul deməkdir. Əvvəllər toxumu qonşu ölkələrdən alırdıq: "İndi yığdığımız çəltiyin bir hissəsini toxum üçün saxlayırıq. Bu, həm məhsulun keyfiyyətinə, həm də məhsuldarlığa təsir edir. Bölgəmizdə müasir standartlara cavab verən toxumçuluq təsərrüfatının yaradılmasına, fermerlərin sertifikatlı toxumlarla təmin edilməsinə zəruriyyət yaranıb.

Çəltikçilik gəlirli sahədir. Bu il kəndimizdə 100 hektara yaxın çəltik əkilib. Əkin-biçin, məhsul istehsalı cəmi 3 aya başa gəlir. Ata-babalarımız yaxşı deyiblər: "Bir qırxında yaş, bir qırxında baş, bir qırxında aş". Gördüyünüz kimi, becərmə işləri ilə məşğuluq, bol məhsul gözləyirik. Təxminən 6 tondan çox çəltik yığa bilsək, bütün xərcləri çıxandan sonra 15 min manat xalis gəlirimiz olacaq. Ailə təsərrüfatımızın sutkada 15 tona yaxın emal gücünə malik çəltik dəyirmanı, qurutma sexi də var".

Çətinliklərimiz də az deyil, - deyə fermer söhbətini davam etdirir. Çəltikçiliyə ayrılmış subsidiyalar vaxtında verilsə, femerlər çəltikəkən aqreqatlar, çəltikdöyən kombaynlar, mineral gübrələrlə təchiz edilsə çəltik sahələri, məhsuldarlıq da artacaq. Açıq deyim, lazımi texnika olmadığından biçin zamanı taxıldöyən kombaynlardan istifadə etməli oluruq. Nəticədə məhsul itkiyə də gedir.

Astara rayonu çəltikçilik sahəsində qabaqcıl təcrübəyə və zəngin ənənələrə malikdir. Çəltikçiliyin inkişafı haqqında Dövlət Proqramının icrası sayəsində 2019-cu ildən başlayaraq çəltik əkinləri artırılıb. Keçən il 298 hektar sahədə məhsul becərilib. Şəxsi və fermer təsərrüfatlarında 1225 ton çəltik yığılıb. Hektarın məhsuldarlığı 41 sentner olub.

**Təcrübəli kənd təsərrüfatı işçisi, Astara Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Etibar Abbasov** çəltikçilik sahəsində



görülmüş işlər, mövcud problemlər haqqında fikirlərini bizimlə bölüşdü:

– Astarada çəltikçilik kəndlinin ruzi, qazanc mənbəyi sayılır. Sadə, zəhmətkeş kənd camaatı çəltik becərməklə ailəsini dolandırır. "Muğan düyü" MMC, "İmanna" MMC və digər iri kənd təsərrüfatı müəssisələri ilə yanaşı, Ərçivan qəsəbə, Kakalos, Pensər, Şiyəkəran, Bala Şahağacı, Artupa və digər kəndlərdə ailə təsərrüfatları çəltikçiliklə məşğul olur. Bu ilin aprel ayından başlayaraq 248,5 hektar sahədə çəltik əkilib. Əkinlərin 129 hektarı şitiləkən aqreqatlarla, 119,5 hektarı səpmə üsulu ilə aparılıb. Fermerlər yerli sortlarla yanaşı, Pakistandan gətirilmiş məhsuldar sortlara da üstünlük veriblər. Suvarma gecikməsəydi, bu il əkin sahələrini xeyli artıra bilərdik.

Çəltik suda yetişdiyindən yay aylarında suya tələbat çoxalır. Lovayın su anbarı, Pensərçay, Astaraçay və Lənkəran rayonunudakı Xanbulançay dəryaçasının köməyilə çəltik plantasiyaları əkin suyu ilə təmin olunur.

Məhsulun becərmə mərhələsində gübrələrə böyük ehtiyac yaranır, - deyə Etibar Abbasov söhbətini davam etdirir. Açıq deyim ki təminat qənaətləndirici deyil. Çəltikçilərin həmçinin, DT-75 və K-4 markalı traktorlara, sertifikatlı, yüksək məhsuldarlığa malik toxumlara, çəltikdöyən kombaynlara ehtiyacları var. Yanacağın qiymətləri, digər xərclər artdığından çəltikçiliyə ayrılan subsidiyanın əmsalı da dəyişilməlidir. Fermerlərin müasir texnika və avadanlıqlara əlçatanlığı təmin olunsa, rayonda çəltik əkinlərini 1 min hektara çatdırmaq mümkündür.

Son illər istehsal olunan çəltiyin müasir standartlara uyğun emalı, çeşidlənməsi və qablaşdırılması məqsədilə rayonun ayrı-ayrı ərazilərində istehsal gücü 40 və 14 ton olan zavodlar, 3 düyü dəyirmanı tikilib istifadəyə verilib.

Hazır məhsul əvvəllər Rusiya, Belarus, Ukrayna və digər xarici ölkə bazarlarına yola salınırdı. Son illər ekoloji cəhətdən təmiz, ətirli, keyfiyyətli Astara düyüsü daha çox respublika daxilində satılır. Məhsulun satışı ilə bağlı problemlər hələ qalmaqdadır. Rayonda çəltikçiliklə məşğul olan iri kənd təsərrüfatı müəssisələri Bakı şəhərində ticarət mərkəzləri ilə vaxtında müqavilə bağlayıb məhsullarını sərfəli qiymətlərlə paytaxt alıcılarına çatdıra bilərlər. Məhsulun satışında fermerlərin dövlət dəstəyinə ehtiyacı var.

Qeyd edək ki, çəltikçilik kənd təsərrüfatının digər sahələrinin inkişafına da müsbət təsir göstərir. Biçilmiş çəltik zəmiləri, eyni zamanda, çəltiyin küləşi, kəpəyi, istehsal prosesində alınan düyü xırdası heyvandarlıq, quşçuluq, balıqçılıq və digər sahələr üçün qiymətli yem bazasıdır. Bu isə ət, balıq və digər ərzaq məhsulları istehsalının artırılmasında mühüm rol oynayır.

Astaranın əməkçi insanları, fermerləri və sahibkarları Prezident İlham Əliyevin aqrar sahədə müəyyənləşdirdiyi strateji hədəflərin həyata keçirilməsində fəal iştirak etmək, çəltik istehsalını artırmaq, ölkəmizin ərzaq təhlükəsizliyinə yeni töhfələr vermək əzmindədirlər.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

**Astara**

# Azərbaycanda beynəlxalq sığorta forumu




**Bakıda sayca XI "Azərbaycan Beynəlxalq Sığorta Forumu" dünən öz işinə başlayıb. Sığortaçılar Assosiasiyasından verilən məlumata görə, Mərkəzi Bankın strateji dəstəyi ilə keçirilən forum bu gün də davam edəcək.**

Forumun rəsmi açılış hissəsində Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin birinci müavini Əliyar Məmmədyarov, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, millət vəkili Azər Əmiraslanov, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı, ASA-nın Müşahidə Şurasının sədri Ülviyyə Cabbarova və İcbari Sığorta Bürosunun İcraçı direktorunun müavini Seymur Mirzəyev çıxış ediblər.

Ənənəvi olaraq Azərbaycanda keçirilən forumda bu il 20-dən çox ölkədən (Qafqaz regionu, Orta Asiya, Avropa, Türkiyə, Rusiya və MDB ölkələri) peşəkar sığorta, təkrarsığorta və broker şirkətlərinin top-menecerlərinin, o cümlədən dövlət rəsmiləri, millət vəkilləri, yerli sığortaçılar və aidiyyəti təşkilatlar rəsmiləri iştirak edirlər.

Ümumilikdə, 400-ə yaxın iştirakçısı olan forum çərçivəsində özəl pensiya sistemləri, təbii fəlakətlər fonunda təkrarsığorta, türk dövlətlərinin sığorta bazarının birgə inkişaf imkanları, həyat və sağlamlıq sığortaları, sığorta brokerliyində qlobal trendlər, sığorta sahəsində peşəkar təhsil və s. kimi mövzularda panel müzakirələrinin təşkili nəzərdə tutulub.

Qeyd edək ki, "Azərbaycan Beynəlxalq Sığorta Forumu" artıq 11-ci dəfədir ki, ənənəvi olaraq ölkəmizdə keçirilən və Qafqaz regionunun ən mühüm qlobal sığorta əməkdaşlığı platformasıdır.

Forumda çıxış edən Əliyar Məmmədyarov son illərdə Azərbaycanda sığorta sektorunun inkişafı istiqamətində əldə olunan mühüm nailiyyətlərdən söz açıb. O bildirib ki, bu inkişafda sığorta şirkətlərinin xidmət çeşidlərinin genişlənməsi və xidmət keyfiyyətinin artması, əhalinin sığorta məlumatlığının yüksəlməsi, eləcə də Mərkəzi Bank tərəfindən həyata keçirilən sistemli islahatlar mühüm rol oynayıb.

Sədrin birinci müavini qeyd edib ki, sığorta bazarında aparılan təkmilləşmələr sektorun dayanıqlılığının möhkəmlənməsinə və inkişaf tempinin sürətlənməsinə mühüm töhfə verib: "Bu, son illərdə əsas maliyyə göstəricilərində müşahidə olunan müsbət dinamika ilə də təsdiqlənir. Belə ki, son 2 il ərzində sığorta haqları 23 faiz artaraq 1.5 milyard manata, sığorta ödənişləri isə 57 faiz artaraq 0.9 milyard manata çatmışdır. Eyni zamanda, sektorun aktivləri 18 faiz artaraq 2.1 milyard manat təşkil etmişdir".

O əlavə edib ki, hazırda Mərkəzi Bank tərəfindən növbəti strateji dövrü əhatə edən yeni İnkişaf Strategiyası hazırlanır. Onun sözlərinə görə, növbəti strateji dövr ərzində risk əsaslı prudensial nəzarət modelinin tam şəkildə formalaşdırılması, reaktiv nəzarət modelindən proaktiv nəzarət modelinə keçid, xüsusi tənzimləmə rejiminin tətbiqinin genişləndirilməsi, alternativ sığorta məhsullarının (məsələn, takaful sığortası) tətbiqi, istehlakçı hüquqlarının daha etibarlı müdafiəsi və məmnuniyyətinin yüksəldilməsi, eləcə də rəqəmsal innovasiyaların genişləndirilməsi prioritetlər sırasında olacaqdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin İcraçı direktoru Vüsal Qasımlı bildirib ki, müasir dövrdə qlobal iqtisadiyyatın üzləşdiyi geosiyasi gərginliklər, iqlim dəyişiklikləri, rəqəmsal transformasiya və demoqrafik dəyişikliklər sığorta sektorunun rolunu daha da artırıb. O vurğulayıb ki, Azərbaycan Respublikasında həyata keçirilən ardıcıl iqtisadi islahatlar, xüsusilə də cənab Prezident tərəfindən "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı"nın təsdiqi maliyyə sektorunun modernləşdirilməsi, rəqəmsallaşmanın sürətləndirilməsi və innovativ maliyyə həllərinin tətbiqinə təkan verməklə yanaşı, sığorta bazarının daha dayanıqlı və inklüziv inkişafı üçün yeni perspektivlər açıb.

Onun sözlərinə görə, son illər Azərbaycan sığorta bazarının nümayiş etdirdiyi dinamika sektorun əhəmiyyətli inkişaf potensialına malik olduğunu aydın şəkildə göstərir: "2022–2025-ci illər ərzində ölkədə toplanmış sığorta haqları 971 milyon manatdan 1,5 milyard manata yüksələrək təxminən 55 faiz artıb. Eyni dövrdə sığorta ödənişlərinin həcmi 433 milyon manatdan 921 milyon manata çataraq iki dəfədən çox artıb. Müsbət tendensiya adambaşına düşən sığorta haqlarında da özünü göstərir. Belə ki, bu göstərici 2022-ci ildə 95 manat olduğu halda, 2025-ci ildə 147 manata yüksəlib.

Bununla yanaşı, sığorta sektorunun iqtisadiyyatda rolunu əks etdirən penetrasiya səviyyəsi də artaraq 0,73 faizdən 1,17 faizə çatıb. O cümlədən 2022–2025-ci illər dövründə həyat və qeyri-həyat sığorta şirkətlərində aktivlərin rentabelliyi (ROA) fərqli dinamikalar nümayiş etdirib. Belə ki, həyat sığorta şirkətlərində ROA göstəricisi təxminən 8 faiz səviyyəsində sabit qalıb, qeyri-həyat sığorta şirkətlərində isə 4 faizdən 7 faizə qədər yüksəlib.

Onu da qeyd edək ki, 2025-ci ildə unikal sığorta müqaviləsi sahiblərinin (həyat və qeyri-həyat sığorta növləri üzrə) ümumi sayının yetkin əhali arasında payı 25 faiz təşkil edib. "Azərbaycan Respublikasında maliyyə inklüzivliyinin genişləndirilməsinə dair 2027–2030-cu illər üçün Dövlət Proqramı" çərçivəsində isə bu göstəricinin 32 faizə çatdırılması hədəflənib".

Forumda çıxış edən ASA-nın Müşahidə Şurasının sədri Ülviyyə Cabbarova qeyd edib ki, son illərdə Azərbaycanın sığorta bazarı mühüm inkişaf yolu keçib.

– Bu gün qürurla deyə bilərik ki, son dörd ildə Azərbaycanın sığorta bazarı təxminən iki dəfə böyüyüb. Bu inkişaf dövlət tərəfindən müəyyən edilmiş strateji hədəflərə, Azərbaycan Respublikası Mərkəzi Bankının həyata keçirdiyi islahatlara və bazar iştirakçılarının birgə səylərinə əsaslanır.

Müşahidə Şurasının sədri bildirib ki, qlobal sığorta bazarında da əsas müzakirə mövzuları dəyişən risklər və bu risklərə uyğun yeni həllər ətrafında formalaşır: "Son illərdə təbii fəlakətlərin intensivliyinin artması, kiberrisklərin genişlənməsi və əhalinin yaşlanması sığorta sektorunun qarşısında yeni vəzifələr yaradır. Bu çağırışlar bizdən daha çevik olmağı, innovativ məhsullar yaratmağı və müştərilərin dəyişən ehtiyaclarına daha sürətli uyğunlaşmağı tələb edir.

Bu məqsədlə "2027–2030-cu illər üzrə Maliyyə İnklüzivliyinin Genişləndirilməsi Dövlət Proqramı" çərçivəsində sığorta sektorunun inkişafı üçün sığorta xidmətlərinin əlçatanlığının artırılması, rəqəmsal həllərin genişləndirilməsi, könüllü sığortaların inkişafı və maliyyə xidmətlərindən daha geniş istifadə imkanlarının yaradılması qarşıdakı dövr üçün əsas prioritetlər kimi müəyyən olunub".

***Musa BAĞIRLI***
***XQ***

# Qars stansiyası Orta Dəhlizdə Qafqazı Avropaya qovuşdurur

*(əvvəli 1-ci səhifədə)*

Əslində, bu marşrutun formalaşması birdən-birə baş verməyib. Azərbaycan hələ 2000-ci illərin əvvəllərindən etibarən Şərq-Qərb nəqliyyat əlaqələrinin genişləndirilməsi istiqamətində ardıcıl siyasət həyata keçirib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin istifadəyə verilməsi, avtomobil yollarının və logistika infrastrukturunun müasirləşdirilməsi Orta Dəhlizin gələcək inkişafı üçün möhkəm zəmin yaradıb. Məhz bu səbəbdən Azərbaycan hazırda marşrutun əsas həlqələrindən biri hesab olunur. Qars stansiyası Orta Dəhlizin qlobal nəqliyyat sisteminə inteqrasiyasında mühüm əhəmiyyət daşıyır. Bakı və Tbilisidən gələn yüklər burada Avropanın dəmir yolu şəbəkəsinə birləşir. Məhz bu mərhələdən sonra marşrut Avropaya doğru açılır və yüklər beynəlxalq bazarlara çıxış imkanı qazanır.

Daha sonra yüklər Qərbi Avropa istiqamətində hərəkət edərək Niderland, Belçika və Fransa kimi ölkələrə çatdırılır. Xüsusilə Rotterdam limanı vasitəsilə bu yüklər qlobal dəniz ticarət şəbəkəsinə qoşulur və ya birbaşa son istehlak bazarlarına yönləndirilir. Alternativ marşrut kimi, Orta Dəhliz Türkiyə üzərindən cənub istiqamətində də davam edə bilər. Bu halda yüklər İtaliya və İspaniya kimi ölkələrə yönləndirilərək Aralıq dənizi limanları vasitəsilə beynəlxalq bazarlara inteqrasiya olunur. Beləliklə, Orta Dəhliz Asiya ilə Avropa arasında sürətli, etibarlı və çoxşaxəli nəqliyyat bağlantısı yaradaraq qlobal ticarət sisteminin əsas logistika zəncirlərindən birinə çevrilir.

*

Orta Dəhlizin cəlbediciliyi əsasən onun sürət üstünlüyü ilə izah olunur. Çindən Avropaya Orta Dəhliz vasitəsilə quru yolla daşınan yüklər, təxminən bir ay yarım davam edən dəniz daşımaları ilə müqayisədə, 2–3 həftə ərzində ünvanına çatdırıla bilir. Bu, xüsusilə vaxt həssaslığı olan yüklər üçün Orta Dəhlizi daha rəqabətqabiliyyətli edir. Qeyd edək ki, bu il Astanada Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Beynəlxalq Assosiasiyasının İdarə Heyətinin iclası və ümumi yığıncağı keçirilərkən iştirakçı ölkələr 2026-cı il üçün müfəssəl fəaliyyət planını təsdiqləyiblər. Təsdiqlənmiş plan konteyner daşımalarının həcmlərinin artırılmasını, o cümlədən bu il Çindən Qazaxıstan vasitəsilə 600 konteyner qatarının tranzitini nəzərdə tutur. Eyni zamanda, Xəzər dənizinin limanları və terminalları arasında koordinasiya gücləndiriləcək və marşrutun əsas hissələrində texnoloji proseslər optimallaşdırılacaq.

Azərbaycanın Orta Dəhlizin inkişafında maraqlı olması bir sıra strateji amillərlə bağlıdır. İlk növbədə, bu marşrut ölkənin tranzit potensialını artırır və qeyri-neft sektorunun inkişafına xidmət edir. Nəqliyyat, logistika və xidmət sahələrinin genişlənməsi yeni gəlir mənbələrinin yaranmasına və iqtisadiyyatın şaxələndirilməsinə imkan verir. Eyni zamanda, tranzit daşımalarından əldə olunan gəlirlər dövlət büdcəsinə əlavə vəsait gətirir. Digər tərəfdən, Orta Dəhliz Azərbaycanın geosiyasi mövqeyini gücləndirir. Şərqlə Qərb arasında mühüm bağlantı nöqtəsinə çevrilən Azərbaycan həm regionda, həm də beynəlxalq müstəvidə strateji əhəmiyyətini artırır. Ölkənin etibarlı tərəfdaş imici və sabit siyasi mühiti beynəlxalq şirkətlər və dövlətlər üçün Azərbaycanı cəlbedici tranzit mərkəzinə çevirir.

Son illər ərzində Orta Dəhliz üzrə Azərbaycan ərazisindən həyata keçirilən yük daşımalarının həcmi təxminən 90 faiz yüksəlib. Daşınma müddəti isə nəzərəçarpacaq dərəcədə qısalıb. Mövcud proqnozlara əsasən, 2030-cu ilədək bu dəhlizin yükdaşıma potensialının 2021-ci illə müqayisədə təxminən üç dəfə artacağı, yüklərin tranzit vaxtının isə iki dəfə azalacağı gözlənilir.




Qarsdan yola çıxan yüklər ilkin mərhələdə Türkiyə ərazisi boyunca müxtəlif logistika mərkəzləri vasitəsilə yönləndirilir. Ankara əsas logistika qovşağı kimi çıxış edir, İstanbul isə Avropaya çıxışın başlıca qapısı funksiyasını yerinə yetirir. Mersin limanı isə Aralıq dənizi istiqamətində əlavə çıxış imkanı yaradır. İstanbul üzərindən daşınan yüklər Marmaray tuneli vasitəsilə Asiyadan Avropaya fasiləsiz şəkildə keçərək Orta Dəhlizin Avropa mərhələsinin başlanğıcını formalaşdırır.

Bu mərhələdə yüklər Balkan marşrutu üzrə hərəkət edərək əvvəlcə Bolqarıstan, daha sonra Rumıniya, Macarıstan və Slovakiya ərazilərindən keçməklə Mərkəzi Avropaya daxil olur. Buradan etibarən daşımalar daha geniş paylanma şəbəkəsinə inteqrasiya olunur və Almaniya, Polşa və Çexiya əsas logistika mərkəzləri kimi çıxış edir. Bu ölkələr Orta Dəhliz vasitəsilə Avropaya daxil olan yüklərin bölgü və yönləndirilməsində mühüm rol oynayır.

Bundan başqa, ötən il 8 avqust tarixində Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan arasında imzalanmış birgə bəyannamə, Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz əlaqənin təmin edilməsinə xidmət edəcək "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu"nun (TRIPP) əsasını qoyub. Bu təşəbbüsün Orta Dəhlizin mühüm seqmentlərindən birinə çevriləcəyi və Asiyanı Avropa ilə birləşdirən nəqliyyat əlaqələrini daha da gücləndirəcəyi gözlənilir. TRIPP-in beynəlxalq yükdaşımalarının tranzit imkanlarını genişləndirməsi, region ölkələrinin iqtisadi rifahına töhfə verməsi və onların qlobal təchizat zəncirlərinə inteqrasiyasını sürətləndirməsi perspektivləri yüksək qiymətləndirilir.

***M.BAĞIRLI***
***XQ***

# İƏT Parlament İttifaqında Azərbaycanın sədrliyinin strateji hədəfləri

## *Bakı İslam ölkələrinin maraqlarını ardıcıl və qətiyyətlə müdafiə edir*






**Bakıda İslam Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyasının rəsmi açılış mərasimi reallaşdı. Azərbaycan paytaxtı növbəti dəfə qlobal əhəmiyyətli diplomatik platformaya ev sahibliyi etməklə regional və beynəlxalq arenadakı mühüm statusunu nümayiş etdirir.**

Qeyd olunan forum yalnız İslam dünyasının parlamentarilərini toplamaqla kifayətlənmir, həmçinin beynəlxalq təhlükəsizlik, əməkdaşlıq və suverenliyə hörmət prinsiplərinin yenidən qiymətləndirildiyi mühüm siyasi məkana çevrilir. 400-dən artıq nümayəndənin, o cümlədən çoxsaylı ölkələrin qanunverici orqan rəhbərlərinin iştirakı ilə keçirilən sessiya Şərq ilə Qərb, eləcə də müxtəlif regional güclər arasında siyasi dialoqun inkişafına əlverişli şərait yaradır. Sədrlik statusunun İndoneziyadan Azərbaycana keçməsi isə rəsmi Bakının İslam dünyasındakı diplomatik mövqeyinin daha da möhkəmlənməsinə xidmət göstərir.

Tədbirin açılış mərasimində Milli **Məclisin Sədri Sahibə Qafarova** Azərbaycan Prezidenti İlham Əliyevin sessiya iştirakçılarına müraciətini səsləndirdi. Dövlət başçısının müraciətində vurğulanan əsas məqamlar ölkənin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq hüququn aliliyi prinsiplərinə söykənir. İlham Əliyev müraciətində İƏT-in Azərbaycana göstərdiyi ardıcıl dəstəyi xüsusi qeyd etdi. Ermənistanın Azərbaycana qarşı 30 ilə yaxın davam edən hərbi təcavüzü zamanı və müharibədən sonrakı mərhələdə təşkilatın qətiyyətli mövqe nümayiş etdirdiyi vurğulandı. İşğalı kəskin şəkildə pisləyən, Azərbaycanın haqq işini, suverenliyini və ərazi bütövlüyünü dəstəkləyən, azad edilmiş ərazilərdə həyata keçirilən yenidənqurma işlərini təqdir edən qətnamə və bəyanatların qəbulu qardaş ölkələrin Azərbaycana olan mənəvi-siyasi dəstəyinin bariz göstəricisidir.

*

İƏT çərçivəsində parlamentlərarası əməkdaşlığın möhkəmləndirilməsi Azərbaycan üçün çoxvektorlu diplomatiyanın prioritet istiqamətlərindən sayılır. Azərbaycanın suverenliyinin tam bərpa olunmasından sonra regionda formalaşan yeni siyasi reallıqlar beynəlxalq təşkilatlarla əlaqələrin keyfiyyətcə yeni müstəviyə keçməsini tələb edir. Sırf siyasi və strateji əhəmiyyət kəsb edən hazırkı sessiya İslam dünyası daxilində Azərbaycanın əldə etdiyi nüfuzun möhkəmlənməsinə xidmət göstərir. İƏT nəzdində yaradılan Təmas Qrupunun fəaliyyəti kollektiv təhlükəsizlik və həmrəylik institutlarının effektiv işləyə biləcəyini göstərən nümunədir. Həmin struktur hərbi təcavüz dövründə həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, habelə beynəlxalq hüququn müdafiəsində mühüm rol oynadı. Parlament diplomatiyası rəsmi dövlət kanallarından fərqli olaraq, cəmiyyətlərin nümayəndələri vasitəsilə daha çevik və geniş təsir imkanlarına malikdir. Azərbaycanın suverenliyinin qorunması məsələsində İslam dünyasının nümayiş etdirdiyi qətiyyət, beynəlxalq münasibətlər sistemində ədalət prinsipinin hələ də tamamilə itirilmədiyini sübut edir.

**Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş** konfransda çıxış edərək, qlobal sistemin transformasiyası ilə bağlı siyasi fikirlər irəli sürdü. N.Kurtulmuşun fikrincə, müasir dövrdə dünya böyük təlatümlərdən, siyasi sarsıntılardan keçir və hazırkı vəziyyət İslam aləminin qarşısında mühüm imkanlar açır. Türkiyə parlamentinin rəhbəri köhnə beynəlxalq sistemin tamamilə çökdüyünü və geri dönüşün imkansız olduğunu bəyan etdi. O, təkqütblü dünya modelinin artıq mövcudluğunu qoruya bilmədiyini, heç kəsin və heç bir regionun qlobal idarəçiliyi təkbaşına həyata keçirmək iqtidarında olmadığını vurğuladı.

N.Kurtulmuşun toxunduğu çoxmərkəzlilik konsepsiyası müasir beynəlxalq münasibətlərin ən aktual mövzusudur. İkinci Dünya müharibəsindən sonra yaranan və "soyuq müharibə"nin başa çatması ilə təkqütblü xarakter alan qlobal arxitektura artıq ciddi böhran keçirir. Beynəlxalq hüququn bəzi güclər tərəfindən manipulyasiya edilməsi, suveren dövlətlərin daxili işlərinə müdaxilə cəhdləri və qlobal təhlükəsizlik institutlarının funksionallığını itirməsi yeni güc mərkəzlərinin formalaşmasını labüd edir. İslam dünyası sahib olduğu coğrafi yerləşmə, demoqrafik resurslar və strateji mövqe sayəsində həmin çoxmərkəzli sistemin əsas sütunları qismində çıxış edə bilər. Həmin məqsədlə təşkilat daxilində fikir ayrılıqlarının aradan qaldırılması, ümumi siyasi strategiyanın hazırlanması tələb olunur. Bakı platforması məhz belə strateji hədəflərin müzakirə edildiyi, İslam ölkələrinin parlamentləri səviyyəsində ortaq qərarların qəbul olunduğu mühüm mərkəz statusunu daşıyır.

**İran İslam Şurası Məclisinin sədri Məhəmməd Baqir Qalibafın** Bakıda keçirilən sessiyada iştirakı və səsləndirdiyi fikirlər konfransın siyasi çəkisini artıran əsas amildir. M.B.Qalibaf çıxışında İslam dünyasının həmrəyliyinə, gələcək inkişaf potensialına töhfə verən mühüm tədbirin Bakıda keçirilməsini yüksək qiymətləndirdi və yüksək səviyyəli təşkilatçılığa görə təşəkkürünü bildirdi. İran parlamentinin rəhbəri dövlətlərin suverenliyinə ehtiram, bərabərlik və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan diplomatiyanın uğur qazanacağını diqqətə çatdırdı. O, regionun təhlükəsizliyinin kənar güclərin müdaxiləsi olmadan, yalnız region ölkələri tərəfindən təmin edilməli olduğunu qeyd etdi.

Yaxın Şərqdə və qlobal müstəvidə İran, Amerika Birləşmiş Ştatları və İsrail arasında kəskin geosiyasi münaqişənin hökm sürdüyü hazırkı mərhələdə rəsmi Tehranın Bakıdakı tədbirə yüksək səviyyədə qatılması böyük əhəmiyyət kəsb edir. Hazırkı geosiyasi vəziyyət Azərbaycanın regional və beynəlxalq arenada tutduğu balanslaşdırılmış mövqeyi aşkar şəkildə nümayiş etdirir. Azərbaycan regional gərginliklərə və qlobal güclərin qarşıdurmasına baxmayaraq, qarşılıqlı hörmətə söykənən müstəqil xarici siyasət xəttini uğurla davam etdirir. İran nümayəndə heyətinin Bakı forumunda fəal iştirakı rəsmi Bakının regional sülhün və sabitliyin qorunmasında oynadığı vasitəçi və neytral platforma rolunun göstəricisidir. Azərbaycan regional problemlərin həllində kənar güclərin diktəsini qəbul etmir, regional tərəfdaşlarla qarşılıqlı dialoqa üstünlük verir.

**İƏT Parlament İttifaqının Baş katibi Muhammed Xurayçi Niyass** çıxışında Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən İslam əməkdaşlığına və həmrəyliyinə verilən dəyəri xüsusi vurğuladı. Baş katib Bakının beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkilində etibarlı və fəal tərəfdaş olduğunu bildirdi. Onun fikrincə, hazırkı sessiya olduqca mürəkkəb qlobal dövrdə reallaşır. Beynəlxalq ədalət sistemində böhranın dərinləşdiyi, İslam dünyasının ciddi humanitar və siyasi çağırışlarla qarşı-qarşıya qaldığı zaman kəsiyində dialoqun əhəmiyyəti qat-qat artır. Dağıdıcı müharibələrin xalqları zəiflətdiyi, qlobal təhlükəsizliyə mənfi təsir göstərdiyi şəraitdə güc tətbiqindən imtina edilməsi mütləq zərurətdir. M.X.Niyassın qeyd etdiyi beynəlxalq ədalət sistemindəki uçurum ifadəsi müasir geosiyasi böhranın ən dərin qatlarına işıq tutur. Beynəlxalq hüququn tətbiqində müşahidə olunan selektiv yanaşma, yəni ikili standartlar, əksər regional münaqişələrin uzanmasına və qlobal institutlara inamın sarsılmasına rəvac verdi.

Bakıda keçirilən İslam Əməkdaşlıq Təşkilatının üzvü olan dövlətlərin Parlament İttifaqı Konfransının 20-ci sessiyası yalnız növbəti diplomatik görüş xarakteri daşımır, qlobal geosiyasi keçid dövründə İslam dünyasının yeni siyasi və strateji hədəflərini müəyyən edən mühüm tarixi mərhələdir. Azərbaycanın ev sahibliyi etdiyi mötəbər forum ölkənin qlobal arenada artan nüfuzunu, balanslaşdırılmış xarici siyasət xəttini və regional sülhün təmin edilməsində artan rolunu yenidən təsdiqlədi.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Orta Dəhliz: iqtisadi səmərə və regional sabitlik

## *Avropa İttifaqının yeni qlobal bağlantı modelinin incəlikləri*

**Dünya ticarət marşrutlarında baş verən dəyişikliklər Avrasiyada yeni logistika xəritəsinin formalaşmasına səbəb olub. Əvvəllər əsas yük axını Rusiya üzərindən keçən Şimal Dəhlizi və Süveyş kanalı vasitəsilə həyata keçirilirdi. Lakin Ukrayna müharibəsi, sanksiyalar və logistika məhdudiyyətləri Şimal Dəhlizinin, Qırmızı dənizdəki təhlükəsizlik riskləri isə Süveyş marşrutunun etibarlılığını azaldıb.**

Bu vəziyyət qlobal təchizat zəncirində ciddi qeyri-müəyyənlik yaradaraq dövlətləri və şirkətləri alternativ yollar axtarmağa məcbur edib. Məsələ artıq təkcə yeni marşrutların tapılması deyil, həm də ticarət axınlarının davamlılığı və iqtisadi təhlükəsizlik məsələsinə çevrilib. Bununla da logistika strategiyaları dövlətlərin milli təhlükəsizlik konsepsiyalarına qədər yüksəlib. Ticarət marşrutları sırf iqtisadi deyil, həm də geosiyasi alət olub.

Belə bir şəraitdə Orta Dəhliz ön plana çıxaraq Avrasiyanın perspektivli alternativ xəttinə çevrilib. Bu marşrut tədricən qlobal ticarətin "riskdən sığortalanmış" alternativlərindən biri kimi qəbul olunur. Əsas üstünlüyü isə yalnız coğrafi mövqe deyil, həm də siyasi diversifikasiya imkanıdır.



Bu dəyişimin siyasi çərçivəsini **Avropa Komissiyasının genişlənmə məsələləri üzrə komissarı Marta Kosun** açıqlamaları aydın şəkildə ortaya qoyur. Onun fikrincə, Avropa ilə Asiya arasında mövcud olan ənənəvi ticarət marşrutları artıq əvvəlki etibarlılığını itirib. Şimal marşrutu faktiki olaraq pozulub, cənub marşrutları isə ciddi təhlükəsizlik riskləri ilə üzləşib. Kosun vurğuladığı kimi, reallıq Avropanı yeni strateji yanaşmaya sövq edib və məhz bu məqsədlə "Bağlantılar Gündəliyi Platforması" işə salınıb. Bu platforma təkcə nəqliyyat layihəsi deyil, həm də Avropanın iqtisadi təhlükəsizlik strategiyasının bir hissəsidir. M.Kosun yanaşmasına görə, Orta Dəhliz Avropa üçün alternativ deyil, artıq zəruri infrastruktur seçimidir. Çünki müasir iqtisadiyyat yalnız ticarət müqavilələri ilə deyil, etibarlı fiziki bağlantılarla idarə olunur. Çünki avtomobil və dəmir yolları, limanlar və rəqəmsal məlumat axını bir-birini tamamlayan sistemlər kimi işləməlidir.

Komissarın açıqladığı rəqəmlər bu tendensiyanın real təsirini göstərir. Orta Dəhliz üzrə ticarət dövriyyəsi 2022-ci ildən sonra 4 dəfə artıb. Bu artım marşrutun nəzəri layihə deyil, real alternativ logistika xətti olduğunu təsdiqləyir. Lakin burada paradoksal vəziyyət yaranıb: yük axını artır, amma infrastruktur eyni sürətlə inkişaf etmir. Çatdırılma müddəti hələ də 45 günə qədər uzanır. Aİ-nin strateji hədəfi isə bu müddəti 15 günə endirməkdir.

Bu məqsədə çatmaq üçün Avropa İttifaqı genişmiqyaslı modernizasiya planı həyata keçirməyi nəzərdə tutur. Buraya avtomobil və dəmir yollarının yenilənməsi, liman infrastrukturunun genişləndirilməsi, sərhəd keçidlərinin optimallaşdırılması və rəqəmsal logistik sistemlərin inteqrasiyası daxildir. Kosun qeyd etdiyi kimi, bu dəyişikliklər yalnız logistikanı sürətləndirməyəcək, həm də Avropa iqtisadiyyatının rəqabət qabiliyyətini artıracaq və istehlak bazarında qiymətlərin azalmasına səbəb olacaq. Onun sözlərinə görə, Aİ-nin iştirakı ilə təşəbbüs çərçivəsində imzalanan layihələr 80 milyon avrodan çox vəsaitin ayrılmasını nəzərdə tutur. Nəqliyyat, enerji və rəqəmsal infrastruktura 2 milyard avrodan çox investisiya cəlb etmək potensialı da var.

Bu yanaşma nəqliyyat xərclərinin azalmasına gətirib çıxarır ki, bu da Avropa şirkətlərinin istehsal və idxal xərclərini aşağı salır. Lakin Orta Dəhlizin təsiri təkcə iqtisadi göstəricilərlə məhdudlaşmır. Bu təşəbbüs region ölkələri arasında siyasi və iqtisadi yaxınlaşmanı da gücləndirir. Kos bu amili önə çıxarır. Uzun illər münaqişələr, siyasi gərginliklər və qeyri-sabitliklə üzləşmiş ölkələr üçün ortaq nəqliyyat və ticarət maraqları əməkdaşlıq üçün yeni platforma yaradır. Beləliklə, iqtisadi qarşılıqlı asılılıq tədricən etimadın möhkəmlənməsinə və regionda sabitliyin güclənməsinə xidmət edir. Bu baxımdan Orta Dəhliz yalnız tranzit marşrutu deyil, həm də siyasi inteqrasiya vasitəsi kimi çıxış edir. O, şərq qonşuların iqtisadiyyatlarını stimullaşdırmaqla yanaşı, onları qlobal ticarət sisteminə daha sıx inteqrasiya edir. Limanların inkişafı, logistika mərkəzlərinin genişlənməsi və yeni investisiya axınları region ölkələrində iqtisadi strukturun modernləşməsinə təkan verir.




Tarixi paralel bu çərçivədə maraqlıdır. İkinci Dünya müharibəsindən sonra Avropada kömür və polad sənayesinin inteqrasiyası, iqtisadi əməkdaşlıq uzunmüddətli sülhün və sabitliyin əsasını qoydu. Bu gün Orta Dəhliz də Avrasiya məkanında oxşar funksiyanı yerinə yetirmək potensialına malikdir. Yəni iqtisadi maraqların uzlaşması tədricən siyasi yaxınlaşmanı və regional sabitliyi gücləndirəcək.

Avropa Komissiyasının yanaşmasına görə, Aİ üçün əsas hədəf yalnız yeni marşrutların formalaşdırılması deyil, həm də mövcud əlaqələrin daha etibarlı, şəffaf və dayanıqlı sistemə çevrilməsidir. Azərbaycan bu prosesdə xüsusi mövqeyə malikdir. Ölkəmiz Xəzər hövzəsi ilə Qafqazı birləşdirən əsas körpü rolunu oynayır. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Bakı–Tbilisi–Qars dəmir yolu və Ələt Azad İqtisadi Zonası Azərbaycanın regional logistika mərkəzinə çevrilməsində əsas sütunlardır. Bu infrastruktur yalnız tranziti təmin etmir, həm də ölkəni Avrasiya ticarət sisteminin aktiv iştirakçısına çevirir.

Bununla belə, Orta Dəhlizin inkişafı ciddi struktur çağırışlarla üz-üzədir. İlk problem infrastrukturun qeyri-bərabər inkişafıdır. Xüsusilə Xəzər dənizində limanların (Aktau, Kurık) yüklərin artan həcminə uyğun genişləndirilməsi vacibdir. Bu gün bərə və yükdaşıma imkanları da artan tələbatı tam qarşılamaq gücündə deyil. İkinci əsas problem tarif sistemlərinin parçalanmasıdır. Marşrut bir neçə ölkənin fərqli iqtisadi və hüquqi rejimlərindən keçdiyi üçün vahid qiymət sistemi formalaşmayıb. Bu isə logistika xərclərinin qeyri-sabitliyinə və biznes üçün risklərin artmasına səbəb olur. Məhz bu səbəbdən Azərbaycan, Qazaxıstan və Gürcüstan vahid tarif modelinin yaradılması üzərində işləyir. Bu model reallaşarsa, Orta Dəhliz daha rəqabətli və proqnozlaşdırıla bilən marşruta çevriləcək.

Üçüncü mühüm istiqamət rəqəmsallaşmadır. Hazırda elektron sənəd dövriyyəsi tətbiq olunsa da, vahid rəqəmsal platforma tam formalaşmayıb. Bu boşluq sərhəd keçidlərində təkrar yoxlamalara və vaxt itkilərinə səbəb olur. Aİ bu sahədə inteqrasiya olunmuş rəqəmsal sistemlərin yaradılmasını prioritet hesab edir.

**BMTM-in aparıcı məsləhətçisi Vüsal Quliyevin** fikrincə, Orta Dəhliz yalnız tranzit xətti deyil, logistika mərkəzləri, dəmir yolu şəbəkələri, multimodal sistemlər, rəqəmsal ticarət platformaları və sənaye investisiya zonalarını birləşdirən geniş şəbəkədir: "Azərbaycan, Qazaxıstan, Gürcüstan və digər ölkələr logistikanın rəqəmsallaşdırılması, elektron sənəd dövriyyəsi və daşımaların səmərəliliyinin artırılması üzrə əməkdaşlığı genişləndirirlər. Eyni zamanda, elektron icazə sistemləri və Aİ ilə inteqrasiya təşəbbüsləri marşrutun daha sürətli və şəffaf işləməsini təmin edir". Onun sözlərinə görə, artan siyasi koordinasiya və çoxtərəfli razılaşmalar Orta Dəhlizin Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və Çin arasında daha geniş geosiyasi və iqtisadi sistemin tərkib hissəsinə çevrildiyini göstərir.

Beləliklə, Orta Dəhliz artıq, sadəcə, alternativ nəqliyyat xətti deyil, Avrasiyanın yeni geosiyasi və geoiqtisadi arxitekturasının formalaşdığı mərkəzdir. Onun uğuru təkcə infrastruktur investisiyalarından deyil, həm də siyasi koordinasiya, tariflərin uyğunlaşdırılması və rəqəmsal inteqrasiyadan asılı olacaq. Bu istiqamətlərdə irəliləyiş əldə olunacağı təqdirdə, Orta Dəhliz yaxın onillikdə qlobal ticarətin əsas sütunlarından birinə çevrilə və Avrasiya məkanında iqtisadi güc balansını köklü şəkildə dəyişdirə bilər.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Azərbaycan və İslam dünyası

## *Strateji əməkdaşlıq, liderlik amili və yeni geosiyasi düzən*

**XXI əsrdə beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər fonunda İslam dünyasının qarşısında duran əsas çağırışlardan biri parçalanmış maraqları ortaq siyasi gündəmə çevirmək, münaqişələri əməkdaşlıq imkanlarına transformasiya etmək və qlobal idarəetmə sistemində daha təsirli mövqe tutmaqdır. Bu prosesdə Azərbaycan son illərdə təşəbbüskar, vasitəçi və inteqrasiyaedici aktor kimi ön plana çıxmışdır. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində fəaliyyəti ölkənin xarici siyasət fəlsəfəsinin, milli maraqlarının və Prezident İlham Əliyevin formalaşdırdığı çoxşaxəli diplomatiya modelinin mühüm tərkib hissəsidir.**



### İslam dünyasında Azərbaycanın nüfuzu

Şərqlə Qərbin kəsişməsində yerləşən Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin, sivilizasiyaların və siyasi təsir mərkəzlərinin qovuşduğu məkan olub. Bu amil ölkəyə həm Avropa institutları, həm də İslam dünyası ilə paralel və balanslaşdırılmış əməkdaşlıq modeli qurmaq imkanı verib. Lakin Azərbaycanın İslam dünyasında artan nüfuzunu yalnız coğrafi mövqeyi ilə izah etmək doğru olmazdı. Son iyirmi il ərzində Bakı müsəlman ölkələri ilə münasibətlərini sistemli şəkildə inkişaf etdirərək qarşılıqlı etimada əsaslanan tərəfdaşlıq şəbəkəsi formalaşdırıb. Mövcud siyasətin əsas xüsusiyyəti ondan ibarətdir ki, Azərbaycan üçün bu, eyni zamanda, siyasi dialoq, iqtisadi əməkdaşlıq, təhlükəsizlik məsələləri və humanitar tərəfdaşlıq üçün mühüm platformadır.

Bir çox hallarda müsəlman ölkələri arasında fikir ayrılıqlarının və geosiyasi rəqabətin mövcud olduğu şəraitdə Azərbaycan ortaq maraqları önə çıxaran, qarşıdurmadan daha çox əməkdaşlığa üstünlük verən mövqe nümayiş etdirib. Bu gün Azərbaycanın ev sahibliyi etdiyi beynəlxalq tədbirlər, humanitar forumlar, dini və mədəni əməkdaşlıq layihələri ölkənin müsəlman dünyasındakı nüfuzunu daha da möhkəmləndirir.

### Qarabağa İslam həmrəyliyi dəstəyi

Azərbaycanın İslam dünyası ilə münasibətlərində Qarabağ məsələsi xüsusi yer tutur. Uzun illər ərzində Ermənistanın işğal siyasəti ilə üzləşən ölkəmiz beynəlxalq hüquqa əsaslanan mövqeyinin müdafiəsində İƏT-in ardıcıl siyasi dəstəyini hiss edib.

İƏT müxtəlif dövrlərdə qəbul etdiyi qətnamələr və siyasi sənədlərlə Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyib, Ermənistanın işğalçı siyasətini pisləyib. Təşkilatın sənədlərində Qarabağ və ətraf rayonların işğal altında olması beynəlxalq hüququn pozulması kimi qiymətləndirilib və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə olunub. İslam dünyasının siyasi dəstəyi Azərbaycanın beynəlxalq arenadakı mövqeyini gücləndirən mühüm diplomatik resursa çevrilmişdi.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı və sonrakı dövrdə bir çox müsəlman ölkələrinin Azərbaycana nümayiş etdirdiyi siyasi dəstək həmin əməkdaşlığın praktik nəticəsi kimi qiymətləndirilə bilər. Bu gün Qarabağ mövzusu Azərbaycan ilə İslam dünyası arasındakı münasibətlərdə qarşılıqlı etimadın, siyasi dəstəyin və ortaq maraqlar əsasında qurulan əməkdaşlığın mühüm nümunəsinə çevrilib. İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq prosesinə müsəlman ölkələrinin artan marağı da göstərir ki, Qarabağ artıq İslam dünyası ilə əməkdaşlığın yeni mərhələsinin mühüm elementlərindən biridir.

Azərbaycanın İslam dünyasında qazandığı nüfuzun əsas səbəblərindən biri də ölkənin həmrəylik ideyasını siyasi ritorikadan praktiki fəaliyyət müstəvisinə keçirməsidir. Prezident İlham Əliyev müxtəlif beynəlxalq platformalarda dəfələrlə vurğulayıb ki, müasir dövrdə İslam dünyasının qarşısında duran əsas vəzifələrdən biri birlik və qarşılıqlı etimadın gücləndirilməsidir. Onun fikrincə, qlobal çağırışların artdığı, geosiyasi qarşıdurmaların dərinləşdiyi bir şəraitdə müsəlman ölkələrinin parçalanması deyil, əməkdaşlığı daha böyük əhəmiyyət kəsb edir. Bu baxımdan 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması və həmin il IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi xüsusi siyasi məna daşıyırdı.

### Ölkəmizin İslam dünyasına töhfələri

Azərbaycan İslam dünyasındakı rolunu humanitar diplomatiya, inkişaf yardımları və mədəni irsin qorunması istiqamətində həyata keçirdiyi fəaliyyətlərlə də artırıb. Azərbaycan müxtəlif müsəlman ölkələrində sosial və humanitar layihələrin həyata keçirilməsində fəal iştirak edib. Təhsil müəssisələrinin, səhiyyə obyektlərinin və sosial infrastrukturun dəstəklənməsi, eləcə də dini-mədəni irs nümunələrinin bərpası bu fəaliyyətin əsas istiqamətlərindən olub. Xüsusilə məscidlərin, tarixi abidələrin və dini-mədəni irs obyektlərinin qorunması istiqamətində görülən işlər Azərbaycanın İslam sivilizasiyasının ümumi irsinə verdiyi töhfənin göstəricisidir.

Azərbaycanın İslam dünyasına töhfələrindən biri də islamofobiya ilə mübarizə sahəsindəki fəaliyyətdir. Son illər Qərbin bəzi ölkələrində müsəlmanlara qarşı ayrı-seçkilik hallarının artması, dini nifrət kampaniyaları və müqəddəs dini dəyərlərin təhqir olunması beynəlxalq müzakirələrin mühüm mövzularından birinə çevrilib. Azərbaycan bu məsələdə ardıcıl və prinsipial mövqe nümayiş etdirərək islamofobiyanın bütövlükdə beynəlxalq təhlükəsizliyin və multikultural dəyərlərin qarşısında duran təhdid olduğunu vurğulayıb.

BMT, İƏT və digər beynəlxalq platformalarda Azərbaycanın təşəbbüsləri islamofobiya ilə mübarizə mövzusunun qlobal gündəmdə daha geniş yer tutmasına kömək edib. Xüsusilə "Qurani-Kərim"in təhqir olunması və dini nifrətin təşviq edilməsi hallarına qarşı Azərbaycanın sərgilədiyi prinsipial mövqe İslam dünyasında yüksək qiymətləndirilib və ölkənin mənəvi-siyasi nüfuzunu daha da gücləndirib.

### Qarabağdan verilən mesaj

2020-ci ildə əldə olunan tarixi Qələbədən sonra Qarabağda başlanan genişmiqyaslı bərpa və yenidənqurma prosesi Azərbaycanın İslam dünyası ilə münasibətlərinə yeni məzmun qazandırıb. Əgər uzun illər ərzində Qarabağ mövzusu əsasən işğal, beynəlxalq hüququn pozulması və məcburi köçkün problemi kontekstində müzakirə olunurdusa, bu gün həmin ərazilər postmünaqişə quruculuğu, mədəni dirçəliş və regional əməkdaşlıq modeli kimi diqqət çəkir.

İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa işlərinin mühüm istiqamətlərindən biri dini və mədəni irsin yenidən dirçəldilməsidir. Şuşa, Ağdam, Füzuli, Zəngilan və digər bölgələrdə məscidlərin bərpası İslam mədəniyyətinə məxsus irsin qorunması, dini dəyərlərə hörmət və tarixi ədalətin bərpası kimi qiymətləndirilir. Uzun illər ərzində dağıdılmış və təhqirə məruz qalmış dini abidələrin yenidən bərpası Azərbaycanın öz mədəni və mənəvi köklərinə bağlılığının nümayişi olmaqla yanaşı, İslam dünyasına verilən mühüm siyasi və mənəvi mesajdır.

Azərbaycanın İslam dünyasında artan nüfuzu və nümunəvi tərəfdaş kimi qəbul olunmasında Prezident İlham Əliyevin şəxsi diplomatik fəaliyyəti mühüm yer tutur. Onun rəhbərliyi dövründə Azərbaycan İƏT daxilində mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib, müsəlman ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda əlaqələrini genişləndirib. Azərbaycanın Körfəz ölkələri, Mərkəzi Asiya dövlətləri, Pakistan, Türkiyə, ərəb və Afrika ölkələri ilə münasibətlərində müşahidə olunan dinamika bu siyasətin nəticəsi kimi qiymətləndirilə bilər.



Son olaraq qeyd edək ki, Qarabağ məsələsində əldə olunan siyasi dəstək, İslam həmrəyliyinin təşviqi, islamofobiya ilə mübarizə, humanitar layihələr və müsəlman ölkələri arasında dialoqun inkişafı istiqamətində həyata keçirilən fəaliyyətlər ölkənin artan nüfuzunun göstəricisidir.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# ABŞ Konqresində anti-Azərbaycan isteriyası

## *Yaxud Laura Frimen və ermənipərəstlik naminə "Janna Darklıq"*

**İyunun əvvəlindən ABŞ Konqresində Azərbaycan–Ermənistan sülhünə, ümumən, Cənubi Qafqazda barış mühitinin formalaşmasına əngəl törətmək istəyən kəsimin xeyli aktivləşdiyini görürük. Dünənki sayımızda bu barədə söz açmışdıq və bu yazımız mövzunun davamı sayıla bilər. Amma bir qədər fərqli formada.**

Deməli, Birləşmiş Ştatlar Konqresində ölkədəki Amerika Erməni Milli Komitəsinin (ANCA) təşəbbüsü ilə "Azərbaycandakı erməni əsirlərin" məhbus həyatının 1000-ci gününə həsr olunmuş mətbuat konfransı keçirilib. Tədbirdə anti-Azərbaycan tezislər bir-birini əvəzləyib. Daha doğrusu, ANCA-nın pulu ilə hərəkətə gələn konqresmenlər Azərbaycan əleyhinə hədyanlar yağdırmaq üçün növbəyə düzülüblər. Onlardan yalnız birinin fikirlərinə diqqət yetirəcək, mətbuat konfransının ümumi mahiyyəti üzərində dayanacağıq. Hələlik isə bəzi məqamları vurğulayaq.

*



Məlumat üçün bildirək ki, sözügedən mətbuat konfransı ABŞ Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsinin ermənipərəst qanunvericilik təşəbbüsünü müzakirəyə hazırladığı bir vaxtda keçirilib. Yəni məqsəd həmin müzakirəyə dəstək verməkdir. Söhbət, konkret olaraq, Birləşmiş Ştatların "Diplomatik Xidmət haqqında" Qanununa düzəlişdən gedir. O düzəliş ki, ona əsasən qanuna "Azərbaycanı bütün erməni hərbi əsirlərini və siyasi məhbusları dərhal və qeyd-şərtsiz azad etməyə çağıran" müddəanın əlavə edilməsi təklif olunur. Təşəbbüsün müəllifi ermənipərəst konqresmen Bred Şermandır. Əlbəttə, onun Tom Makklintok, Judi Çu və fikirlərini diqqətə çatdıracağımız Laura Frimen kimi dostları, daha doğrusu, "iş ortaqları" var. Bu qruplaşma "Diplomatik Xidmət haqqında" Qanunla yanaşı, ABŞ-ın 2027-ci maliyyə ili üçün "Milli Müdafiə Səlahiyyətləri Aktı"na və "Milli Təhlükəsizlik və Xarici Əməliyyatların Maliyyələşdirilməsi Aktı"na da ermənipərəst mahiyyət daşıyan əlavələrin edilməsini irəli sürür. Bu əlavələrdə isə Azərbaycan üzərində siyasi təzyiq və Ermənistanın təhlükəsizliyinə Vaşinqtonun dəstəyini artırmaq nəzərdə tutulur.

Mövcud xüsusda söhbət erməni məhbusların azad edilmələri ilə yanaşı, ölkəmizə hərbi yardımın məhdudlaşdırılması, rəsmi Bakının davranışına dair Pentaqon üzərinə hesabatlar təqdim etmək öhdəliyinin qoyulması, Ermənistana əlavə təhlükəsizlik yardımının göstərilməsi, İrəvanın hərbi məqsədlər naminə maliyyələşdirilməsi kimi tələblərdən gedir. Bundan başqa, Birləşmiş Ştatlar qanunvericiliyinə düzəlişlərdə Qarabağdan köçmüş ermənilərin geri qayıtmaq hüququnun tanınması, "erməni dini və mədəni abidələrinin qorunması" ilə bağlı hesabat və monitorinq mexanizmlərinin yaradılması da təkliflər sırasındadır.

Göründüyü kimi, ABŞ Konqresindəki anti-Azərbaycan fəaliyyət kifayət qədər geniş diapazona malikdir. Yəni Bakı-İrəvan sülhünü pozmağa yönəlmiş kəsim bütün mümkün "vasitələrdən" yararlanmağa çalışır. Axı normal məntiq mənfur niyyəti əsaslandıra bilməz.

*

Əlqərəz, L.Frimenin gəldiyi qənaət budur ki, hazırkı şərtlərlə Azərbaycan və Ermənistan arasında sülh ola bilməz. Yəni konqresmen və onun ermənipərəst dostları Ağ Ev administrasiyasını, mahiyyətcə, məhz barış mühitinə qarşı çıxmağa çağırırlar.

Görünür, ANCA-nın "qonararı" başını gicəlləndirdiyindən, konqresmen erməni maraqlarının qorunmasında "Janna Darklıq" iddiasına düşüb: "Bu gün ermənistanlı hərbi əsirlərin və mülki şəxslərin Azərbaycanda qanunsuz həbsdə saxlanılmalarının, ifadə olunması mümkün olmayan terrora, zorakılığa və edam təhdidlərinə məruz qalmalarının düz 1000-ci günü tamam olur. Mən dünyanın bu məhbusları unutmasına imkan vermirəm. Öz tarixi vətənləri olan "Artsax"dan zorla qovulmuş yerli ermənilərin də unudulmasına yol vermirəm". Qarabağa separatçı rejimin mövcud olduğu dövrdəki qanunsuz səfərini xatırlayan konqresmen bölgədəki faciəni gözləri ilə gördüyünü bildirib. Görəsən, söhbət hansı faciədən gedir? Sən demə, o, Qarabağda "son dərəcə inkişaf etmiş qədim erməni icmasını və unikal tarixi abidələri" görübmüş. Burada faciənin nədən ibarət olduğunu anlamaq çətin olsa da, xanım Frimenin utopik və sentimental manipulyasiyaya, ən əsası, görünməmiş təhrifə üstünlük verdiyi aydındır.

Deməli, L.Frimen Qarabağ ərazisində IV əsrdə inşa edildiyini bildirdiyi kilsələri görməsindən danışıb. Ən böyük yalan elə budur. O anlamda ki, hətta ən yaramaz hay tarixçi və tədqiqatçıları belə bölgədə ermənilərə aid olduğunu dedikləri tikililəri IV əsrə "daşımırlar". Yəni ikincilərin həyasızlıq baxımından Laura xanımdan öyrənəcəkləri çox şey var. Elə yalançı sentimentallıq imitasiyası baxımından da onu "örnək" saymaq mümkündür. Amma gərək konqresmen xanım çox dərinə getməsin. Çünki dünya onun babalarının Amerikada yerli hindu qəbilələrinə qarşı olmazın zorakılığına dözüb və xanım Frimenin sadəlövh olduğunu söyləmək istəmirik. Çünki o, hansı cəfəngiyyatı nə üçün, hansı məqsəd və məram naminə ortaya atdığının fərqindədir. Məqsəd və məramı isə bildirdik: ABŞ, ümumən, dünya ictimaiyyəti Azərbaycana təzyiq göstərsin. Buna görə də Frimen digər konqresmen dostları, yəni "hər iki partiyadan olan həmkarları ilə birlikdə ABŞ dövlət katibi Marko Rubioya rəsmi müraciət ünvanlayaraq, zorla köçürülmüş ermənilərin "Artsax"dakı vətənlərinə təhlükəsiz qayıdışının təmin edilməsini" istəyib.

Əlbəttə, bu sayaq mənasız tələbləri az görməmişik və inanmırıq ki, frimenlərin sərsəmləmələrinə ABŞ Dövlət Departamentində qulaq verən kimsə tapılsın. Ancaq belələri ortaya heç də elə-belədən atılmırlar və onların hansısa formada gündəmdə olmaları onu göstərir ki, dünyadakı, o cümlədən Birləşmiş Ştatlardakı anti-Türkiyə və anti-Azərbaycan ritorikası baxımından "köhnənin havalarına" alternativ yoxdur. "Köhnənin havaları"ndan söz düşmüşkən, ölkəmizə sanksiyaların tətbiqini təklif edən və ağzını köpükləndirib bu "amal" uğrunda mübarizə aparacağını bildirən L.Frimen mətbuat konfransındakı çıxışında özünün, "Erməni soyqırımı təhsili aktı"nın həmmüəlliflərindən olduğunu xatırladıb: "Erməni xalqı soyqırımı və deportasiyalar yaşayıb. Lakin ayaqda qalıb və həm Amerikada, həm də bütün dünyada inkişafını davam etdirir. Həqiqi sülh məsuliyyət olmadan mümkün deyil. Bu, Ermənistanın suverenliyinə, eləcə də "Artsax"ın yerli əhalisinin hüquqlarına və öz müqəddəratını təyinetmə hüququna tam hörmət tələb edir. Sonuncu girov azad olunana qədər mübarizəmizi dayandırmayacağıq".

*

Sonda ümumiləşdirmə apararaq onu da bildirək ki, ABŞ Konqresində keçirilmiş mətbuat konfransında nəinki anti-Azərbaycan və dolayısıyla anti-Türkiyə fikirləri səsləndirilib, həmçinin ölkəmizin ərazi bütövlüyü və suverenliyi şübhələndirilib. Üstəlik, belə bir mənfur niyyət baxımından hay immunitetinin formalaşdırılmasına çalışılıb. Sülhə ən böyük zərər də elə bu kimi qızışdırıcı motivli fəaliyyətdir. Hesab edirik ki, Ağ Ev administrasiyası məsələyə həssas yanaşmalı, yağışdan sonra çıxmış göbələkləri xatırladan konqresmenlərin Cənubi Qafqazda yaranmaqda olan və hələlik kövrək barış mühitini pozmağa yönəlmiş hərəkət və davranışlarına, eləcə də Amerikanın bu "göbələkləri" maliyyələşdirən erməni icmasına "dur" deməlidir. Əks halda, düşünmək olar ki, konqresdəki anti-Azərbaycan isteriyası idarə edilən prosesdir. Axı indiyədək belə halları az görməmişik.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Yuri Uşakovun inteqrasiya məntiqi

## ...Ermənistan niyə “düz” etmirmiş?

**Rusiya ictimai rəyinin təmsilçiləri ilə yanaşı, ölkə rəsmilərinin Ermənistanla bağlı mənfi ritorikaları davam edir. Əslində, bu, bir növ, adət halını almış durumdur. Ona görə Rusiya Prezidentinin köməkçisi Yuri Uşakovun dediklərinə diqqət yetirməmək də olardı. Ancaq Kreml rəsmisinin nələri söylədiyinə nəzər salmaq lazımdır və bunun səbəbini sonda bildirəcəyik.**

Beləliklə, cənab Uşakovun sözlərindən gəlinən qənaət budur ki, Moskva Ermənistan ətrafındakı vəziyyəti Rusiyanın iştirak etdiyi inteqrasiya birliklərinə zərbə vurmaq cəhdi kimi qiymətləndirir: “Yeri gəlmişkən, Ermənistanın siyasi və xarici iqtisadi tərəddüdləri nümunəsində biz qaydalara əsaslanan nizamın tərəfdarlarının ölkəmizin birbaşa iştirak etdiyi inteqrasiya birliklərinə zərbə vurmaq üçün israrlı cəhdlərini görürük”. Yəni Y.Uşakov bildirir ki, Ermənistanın timsalında Cənubi Qafqaz Kremlin təsir zonasıdır, Qərb bu zonanı əldə etməyə çalışır və proses Rusiyanı regiondan kənar tutmaq məqsədi daşıyır. Əlbəttə, onun söylədiklərində reallıq payı var. Həqiqətən, Qərb məhz Uşakovun vurğuladığı kateqorik məqsədə köklənib. Bu məqsəddə isə kompromislərə yer yoxdur. Məsələn, Avropa İttifaqı istəməz ki, Ermənistan Qərblə Rusiya arasında balanslı siyasət yürütsün. Amma...



“Əmma”lar çoxdur. Ondan başlayaq ki, Ermənistanda rus qoşunları var və bu, Kremlin regionda hərbi mövcudluğudur. Hərbi mövcudluq isə normal məntiqə sığmayan durumdur. Axı bir ölkənin ərazisində başqa ölkənin hərbçiləri niyə qalmalıdır? Digər tərəfdən, niyə bir ölkənin hərbçilərinin digər ölkədəki varlıqları illərlə davam etməlidir? Əgər söhbət hansısa təhlükənin qarşısını almaqdan, bunun üçün dəstək göstərməkdən gedirsə, suallar yaranır: təhlükə bilmədimi? Nə vaxt bitəcək? Nəhayət, rus qoşunları Ermənistanda sonsuzadəkmi qalmalıdır?

Əlbəttə, rus hərbçilərinin Ermənistanda qalma müddəti konkret sənəddə əksini tapıb. Amma hər kəsə yaxşı məlumdur ki, həmin sənəd, mahiyyətcə, heç nədir. İrəvan istənilən an onu ləğv edə, bu məqsədlə hüquqi prosedurlara başlaya bilər. Eləcə də indi hansısa müqaviləyə söykənib Ermənistandakı rus qoşunlarının mövcudluğuna don geydirmək cəhdləri səmərəsizdir.

Sözümüz ondadır ki, Rusiya Uşakovun təbirincə desək, inteqrasiyadan söz açanda, böyük ölçüdə, Cənubi Qafqazda təsir zonası, hərbi mövcudluq amilinə köklənir. Bu köklənişdə Ermənistanın müstəqil dövlət kimi qəbullanması yox kimidir və əslində, hazırkı erməni ictimai rəyini düşündürən məhz budur. Elə isə növbəti sual yaranır: Rusiya Ermənistanın müstəqil dövlət olaraq mövcudiyyətinə imkan tanımayacaq? Sualı elə-belədən vermirik. Çünki Rusiyanın Ermənistanda iyunun 7-də keçirilmiş parlament seçkiləri əsnasında hansı qüvvələri hakimiyyətə gətirmək istiqamətində cəhdlər göstərdiyi məlumdur. O qüvvələr ki, onlar üçün prioritet təkcə bir ölkənin kursunun Rusiyayönümlü saxlanılması deyildi.

Bəli, Ermənistanda Baş nazir Nikol Paşinyan iqtidarını seçki yolu ilə devirmək istəyən qüvvələrin təmsilçilərinin fikirlərinə diqqət yetirəndə aydın görünürdü ki, bu kəsim Cənubi Qafqazda düşmənçilik səhifəsini bağlamamaqda israrlıdır. Yəni mahiyyət Uşakovun barəsində söz açdığı inteqrasiyadan kənar motivlərə əsaslanıb və Rusiya da məhz belə bir qəddar düşərgəni dəstəkləyib. Məgər Moskvanın Ermənistan seçkilərində üzərinə siyasi sərmayə yatırdığı normal siyasi partiya və ya blok olmayıb? Elə isə Rusiyanın səmimiyyətinə necə inanaq? Sual ritorikdir. Ona görə də hazırda erməni iqtidarı ölkədəki rus təsir instrumentlərini sıradan çıxarmağa girişib. Necə deyərlər, ölkədə tuthatutdur. Çünki seçki bu siyasi alətlərin hansı oyunbazlıqlar törətdiklərini ortaya qoydu. Elektoratın pulla alınmasından tutmuş, bir çox eybəcərliklərədək yaşandı. Ümumən, Ermənistandakı parlamentarizmdən sui-istifadə anlamı daşıyan hadisələr gerçəkləşdi. Bunlar baş verməyə bilməzdimi? Görünür, bilməzmiş.

Həm də ona görə bilməzmiş ki, Uşakov Ermənistanla Ukrayna arasında paralel aparır, vurğulayır ki, əsrlər boyu qonşuluqda yaşamış, daim bir-birinə yardım etmiş xalqların tarixini və coğrafiyasını yenidən yazmağın mümkün olduğu barədə illüziya yaradılır: “Ukrayna ətrafındakı vəziyyətə baxdıqda, bütün bunların hansı faciəyə gətirib çıxara biləcəyi aydın görünür”. Ukraynadakı vəziyyət məlumdur. Görəsən, orada hansı tarix yazılır? Reallıq budur ki, Rusiya müstəqil ölkəyə hücum çəkib onun beynəlxalq hüquqla təsbit olunmuş ərazilərini ələ keçirib. Müharibənin başqa səbəbi yoxdur. Ümumən, Rusiya-Ukrayna ziddiyyətlərini doğuran daha böyük səbəblərə gəlincə, meydana yenə suallar çıxır: Necə olur ki, iki qardaş xalq bir-birinə düşmən kəsilir? Bunun günahkarı təkcə Qərbdirmi, yaxud məsələ yalnız Qərbin təhriki iləmi bağlıdır?

Yaxşı, deyək ki, bu gün Ermənistan Qərbin yağlı vədlərinə inanır. Ukrayna nə üçün inanmışdı? Moldova niyə inanıb? Uşakovun təbirincə desək, əsrlər boyu qonşuluqda yaşamış, daim bir-birinə yardım etmiş xalqlar hazırda hansı səbəbdən bir-birilərindən üz döndərirlər? Söhbət, konkret olaraq, Rusiyadan üz döndərmək tendensiyasından gedir.

Sualların çox sadə cavabı var: rus siyasi düşüncə sistemi yarıtmazdır və Uşakovun, yaxud hansısa digər Rusiya rəsmisinin Ukrayna ilə Ermənistanı eyniləşdirməsi Kremlin xalqların ondan uzaqlaşmalarının qarşısını almaq üçün normal rıçaqlarının istisnalığından qaynaqlanır. Nə vaxtadək hərbə-zorba, hədə-qorxu olar? Məgər bununla nə isə əldə etmək mümkündürmü? Axı indi nə XX əsrin əvvəlləri, nə də çar Rusiyası zamanıdır. Bəli, dövr və zaman dəyişsə də, Rusiya dəyişmək, xalqlar üçün normal məkana çevrilmək istəmir ki, istəmir. Halbuki, bunun üçün imkan var. İmkan ona görə var ki, Avropa məkanının cəlbedici təqdimatlarının da mahiyyətində saxtakarlıq dayanır. Rusiya köhnəlmiş, imperialist xislətə əsaslanmış tərzini kənara qoysa, durumdan yararlana bilər. Bunun üçün isə ölkənin özünün islahatlara getməsi, Qərbdən daha düzənli sistem yaratması lazımdır.

Məgər Rusiyada Avropanın hazırkı sosial cəmiyyətlərinin vaxtilə kommunizmin xalqlara ədalət egidasından çəkinərək formalaşdırıldığını bilmirlər? Axı “köhnə qitə”nin düşüncə sistemi indiki rifah düzənini məhz kommunizmin sözdə ədalət çağırışlarının yayılmasından ehtiyatlandığı üçün qurmuşdu. İndi də Rusiya vəziyyətdən yararlansın. ...Amma Rusiyada dediklərimiz barədə düşünən yoxdur. Düşüncə cəzalandırmaq məntiqinə söykənir. Müvafiq olaraq, Ermənistan da Rusiyanın orbitindən çıxırsa, cəzalanmalıdır. Görəsən, Ukrayna “cəzalandırıldı” nə oldu? Nəinki Uşakovun, eləcə də bütün Rusiya rəsmilərinin siyasi varisləri Rusiya-Ukrayna münasibətlərinin timsalında daha xalqların tarixən birgə yaşayışından danışa bilməyəcəklər. Çünki iki qardaş xalq arasında dəhşətli uçurum yaranıb, sağalmaz yaralar var. Aydındır ki, insanların yaşamaq uğrunda aciz mübarizə apardıqları ölkə yalnız məcburiyyət məkanıdır və bu gün müstəqil Ermənistan o məkanı dəyişir. Ölkəyə nankor damğası vuran rus ictimai rəyi isə faktiki olaraq bu fikirdədir: bizimlə birgə çürüməlisiniz! Axı niyə və nə üçün? Hələ Ermənistanın Rusiyaya, belə demək mümkünsə, avantüra borcunun olduğunu ağlına gətirənlər də var. Haylar üçün Qarabağ identikliyi uyduranlar məhz onlardır. Təxminən belə: Qarabağ, yəni başqasının torpağı uğrunda vuruşun və ölün. Ona görə ki, Rusiya Cənubi Qafqazda “inteqrasiya mühiti” qursun?! Gördük o inteqrasiyanı!

Ermənistan işğalçı siyasəti ilə otuz ilə yaxın regionun dünyaya inteqrasiyası yolunda əsl əngələ çevrildi, özünü inkişafdan və rifahdan geri qoydu. O səbəbdən geri qoydu ki, ölkədə Rusiyanın dəstəklədiyi təcavüzkar, cinayətkar xunta rejimi hökm sürdü. O rejim ki, həm də erməni xalqının qanını içdi. Rusiya durumdan nəticə çıxarmaq əvəzinə, 7 iyun seçkilərində yenidən belələrini qalib etməyə çalışdı. Üstəlik, çalışdı ki, 2020-ci ilin 44 günlük müharibəsindən sonra yaranmış reallıqlar sıradan çıxsın, Ermənistan dünyadan təcrid durumunda qalsın, ermənilər onlar üçün uydurulmuş mif və əsatirlərdəki döyüşçü obrazında, əslində isə daim qonşularının üzərinə salına biləcək sadiq köpək ampluasında olsunlar. Sonda əvvəldə vurğuladığımız məqama qayıdaq. Yəni Uşakovun fikirlərinin üzərində dayanmağın vacibliyinə. Bəli, Azərbaycan Rusiyanın Cənubi Qafqaza tarixi bağlılıq tellərini kənara qoymur. Amma ölkəmiz bu düzəndə elə Rusiyanın da iştirakı ilə normal, bərabərtərəfli münasibətlərin qurulmasının, yaşadığımız coğrafiyanın davamlı və sistemli əməkdaşlıq məkanına çevrilməsinin tərəfdarıdır. Buna görə regionda sülhün və sabitliyin olması mütləqdir. Bu gün Rusiyada kimsə Ermənistanla Ukrayna arasında paralel aparırsa, bu düşüncə dinclik, əmin-amanlıq və barış üçün yad təmayüldür.

Ən sonda onu da deyək ki, Azərbaycan Cənubi Qafqazın hazırda qərarlaşmağa doğru gedən sabitlik və inkişaf mühitini pozmağa yönəlmiş bütün hərəkət və davranışlara qarşı çıxacaq. Fərqi yoxdur, bu hərəkət və davranışlar Qərbdən, yaxud Rusiyadan idarə olunur. Prezident İlham Əliyevin vurğuladığı kimi, əsrlərdir gərginliklər, müharibələr görmüş region, nəhayət, rahat nəfəs almalıdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Orta güc” Azərbaycanın beynəlxalq nüfuzunun göstəricisidir

## *Bu statusun təməlində ölkəmizin siyasi, iqtisadi və diplomatik uğurları dayanır*

**Danılmaz həqiqətdir ki, Azərbaycan son illər həyata keçirdiyi çoxşaxəli xarici siyasət sayəsində Avrasiya məkanında nüfuzlu “orta güc” dövlətlərindən birinə çevilib. Hazırda ölkəmiz enerji təhlükəsizliyi, nəqliyyat bağlantıları, çoxvektorlu diplomatiya və beynəlxalq əməkdaşlıq təşəbbüsləri vasitəsilə təkcə Cənubi Qafqazda deyil, qlobal miqyasda sabitliyin və əməkdaşlığın təşviqinə mühüm töhfələr verir. Bu bir reallıqdır ki, “orta güc”ə çevrilmiş dövlətlər regional və qlobal proseslərə təsirləri, müxtəlif beynəlxalq platformalarda fəal iştirakları və diplomatik təşəbbüsləri ilə seçilirlər. Məhz sadaladığımız amillər, son illər yürütdüyü balanslaşdırılmış xarici siyasəti Azərbaycanın beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə artırıb.**




Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə keçirilən “Azərbaycan orta güc kimi: xarici siyasət, regional təsir və qlobal iştirak” mövzusunda konfransda səslənən fikirlər yuxarıda qeyd etdiyimiz prioritetlər idi. Tədbirdə çıxış edən BMTM İdarə Heyətinin sədri Fərid Şəfiyevin sözlərinə görə, Prezident İlham Əliyev mayın 25-də keçirilən müşavirədə Azərbaycanın artıq orta güc statusuna malik olduğunu bildirib. F.Şəfiyev konfransın məhz həmin məsələnin elmi və praktiki aspektlərinin müzakirəsinə həsr olunduğunu iştirakçıların diqqətinə çatdırıb.

BMTM sədri çıxışında başçılıq etdiyi mərkəzin orta güc konsepsiyası ilə bağlı araşdırmalara 2020-ci ildən başladığını, bu istiqamətdə bir sıra elmi əsərlər nəşr olunduğunu bildirdi: “Orta güc anlayışı beynəlxalq münasibətlər nəzəriyyəsində qəbul olunmuş konsepsiyalardan biridir və bu məsələ ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Bununla belə, hər hansı dövlətin süni şəkildə özünü orta güc elan etməsi mümkün deyil. Bu status digər dövlətlər və beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilməli və təsdiqlənməlidir. Azərbaycanın orta güc kimi tanınması təbii prosesin nəticəsidir. Son 30 ildə ölkəmizin siyasi, iqtisadi və hərbi sahələrdə əldə etdiyi uğurlar, xüsusilə ərazi bütövlüyünün və suverenliyinin tam bərpa olunması bu nəticəni şərtləndirən əsas amillərdir”.

Bəli, orta güc statusu Azərbaycanın yalnız Cənubi Qafqazda deyil, regiondan kənarda da müəyyən siyasi və iqtisadi proseslərə təsir göstərmək imkanına malik olduğunu nümayiş etdirir. F.Şəfiyevin qeyd etdiyi kimi, bu, enerji və nəqliyyat layihələrində yaxından iştirak, yeni təşəbbüslərin irəli sürülməsi, eləcə də qlobal çağırışlara cavab vermək kimi məsələlərdə vasitəçilik səyləri ilə özünü göstərir. Mərkəz sədrinin sözlərinə görə, konfransın əsas məqsədinin yerli və xarici ekspertlərin iştirakı ilə Azərbaycanın orta güc statusunun nəzəri və praktiki aspektlərini müzakirə etmək, bu istiqamətdə elmi yanaşmaları və araşdırmaları genişləndirməkdir.

*




Konfransda çıxış edən tanınmış **politoloq Fərhad Məmmədovun** “Azərbaycan orta güc statusunu praktiki fəaliyyəti ilə təsdiqləyib” fikri maraqla qarşılandı. Məsələyə bu aspektdən yanaşan politoloq buna misal olaraq, Azərbaycan və Qazaxıstanın Mərkəzi Asiya–Cənubi Qafqaz məkanında orta güc statusuna malik dövlətlər kimi çıxış etdiklərini göstərdi. Orta güc statusunun yalnız nəzəri yanaşmalar və ya müəyyən meyarların formal tətbiqi ilə müəyyən edilmədiyini nəzərə çatdıran F.Məmmədov bu statusun, ilk növbədə, dövlətin əməli fəaliyyəti, regional və beynəlxalq proseslərə təsir imkanları, eləcə də qlobal təşəbbüslərdə yaxından iştirakı ilə formalaşdığını dedi: “Azərbaycan son illərdə irəli sürdüyü beynəlxalq təşəbbüslər, vasitəçilik fəaliyyəti, regional problemlərin həllində oynadığı rol və müxtəlif güc mərkəzləri ilə balanslaşdırılmış münasibətlər qurmaq bacarığı sayəsində orta güc statusunu praktik müstəvidə təsdiqləyib. Bu gün Azərbaycanın müxtəlif siyasi və iqtisadi platformalarda fəal iştirakı, qlobal çağırışlara münasibətdə məsuliyyətli mövqeyi və beynəlxalq tərəfdaşlarla əməkdaşlıq imkanları ölkənin artan nüfuzunu nümayiş etdirir”.

*

Azərbaycanın “orta güc” diplomatiyası regional sülhün və əməkdaşlığın mühüm amilinə çevrilir. Bakı həm Avropa İttifaqı, həm ABŞ, həm Türkiyə, həm Çin, həm də digər regional və qlobal aktorlarla qarşılıqlı faydalı münasibətlər qurmağa nail olub. Bu siyasət ölkəyə mürəkkəb beynəlxalq şəraitdə milli maraqlarını qorumaq və yeni əməkdaşlıq imkanları yaratmaq imkanı verir. Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi, Türk Dövlətləri Təşkilatında artan rolu, eləcə də qlobal iqlim gündəliyinin əsas tədbir-



lərindən biri olan COP29-a ev sahibliyi etməsi beynəlxalq nüfuzunun göstəricisi kimi dəyərləndirilir.

Əslində, Cənub Qaz Dəhlizi Avropanın enerji təhlükəsizliyinin möhkəmləndirilməsində mühüm rol oynaması, Avropa ölkələrinin enerji mənbələrinin şaxələndirilməsi siyasəti fonunda Azərbaycan etibarlı enerji tərəfdaşı kimi mövqeyini daha da gücləndirib. Bakı-Tbilisi-Qars dəmir yolu, Orta Dəhliz və Şimal-Cənub Beynəlxalq Nəqliyyat Marşrutu kimi layihələr Azərbaycanın Avropa ilə Asiya arasında mühüm tranzit mərkəzinə çevrilməsinə şərait yaradıb. Geostrateji mövqeyi və son illərdə yaradılmış müasir infrastruktur ölkəmizin Avrasiyanın əsas nəqliyyat qovşaqlarından birinə çevrilməsinə imkan verir.

Bəli, bu gün Azərbaycan yalnız malik olduğu zəngin enerji resursları ilə deyil, kreativliyi ilə seçilən diplomatik fəallığı, hamı tərəfindən bəyənilən beynəlxalq təşəbbüsləri, transmilli logistik layihələri və çoxşaxəli əməkdaşlıq siyasəti ilə Avrasiya məkanının diqqət mərkəzində olan orta güc dövlətlərindən biridir. Bu zaman rəsmi Bakının həyata keçirdiyi xarici siyasət birmənalı olaraq milli maraqların qorunmasına, regional sabitlik və əməkdaşlığın möhkəmlənməsinə xidmət edir. Ölkəmizin orta güc statusunun təməlində dayanan önəmli amillərdən biri Azərbaycan Prezidenti İlham Əliyevin siyasi, iqtisadi və diplomatik sahələrdə əldə etdiyi uğurların dayandığı faktının dünyanın “böyük güclər”i tərəfindən etiraf və qəbul edilməsidir.

***İ.HƏSƏNQALA***
***XQ***

# Avropa Orta Dəhlizə yeni nəfəs vermək istəyir, geoiqtisadi gerçəklik isə dəyişmir

**Avropa İttifaqının son aylarda Cənubi Qafqaza münasibətdə nümayiş etdirdiyi fəallıq diqqətdən yayınmır. Brüssel bir tərəfdən Ermənistanın iqtisadi imkanlarının genişləndirilməsinə dəstək verir, digər tərəfdən isə Orta Dəhliz adlanan Transxəzər nəqliyyat marşrutunun inkişafında daha fəal rol almağa çalışır. Bu tendensiya göstərir ki, Avropa artıq regiona yalnız siyasi deyil, həm də strateji iqtisadi məkan kimi baxır.**




İyun ayında Avropa İttifaqı Ermənistanın kənd təsərrüfatı sektoruna dəstək məqsədilə 50 milyon avroluq maliyyə paketi ayırdı. Eyni zamanda, Ermənistan məhsullarının Avropa bazarına çıxarılması ilə bağlı təşəbbüslər Brüsselin İrəvanın iqtisadi əlaqələrinin şaxələndirilməsinə xüsusi önəm verdiyini nümayiş etdirdi. Avropa Komissiyasının sədri Ursula fon der Lyayenin Ermənistanı Avropa, Cənubi Qafqaz və Mərkəzi Asiyanı birləşdirən strateji hab kimi təqdim etməsi də bu siyasətin tərkib hissəsidir.

Bu gün Cənubi Qafqazın nəqliyyat xəritəsinə nəzər saldıqda aydın görünür ki, Avropa ilə Asiya arasında alternativ marşrut kimi formalaşan Orta Dəhlizin əsas infrastrukturu son iyirmi ildə Azərbaycan tərəfindən yaradılıb. Bakı–Tbilisi–Qars dəmir yolu, Ələt Beynəlxalq Dəniz Ticarət Limanı, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları, Xəzər dənizi üzərindən qurulmuş multimodal logistika sistemi bu marşrutun əsas dayaqlarını təşkil edir.

Son illərdə dünya iqtisadiyyatında və beynəlxalq nəqliyyat sistemində baş verən dəyişikliklər Orta Dəhlizin əhəmiyyətini daha da artırıb. Xüsusilə Ukrayna müharibəsindən sonra Avropanın Rusiya üzərindən keçən marşrutlara alternativ axtarması Trans-Xəzər dəhlizini qlobal logistikanın ən mühüm istiqamətlərindən birinə çevirib.

Məhz bu fonda Avropa İttifaqı iyunun 23-də yeni "Connectivity Agenda Platform" təşəbbüsünü təqdim etdi. Rəsmi açıqlamalara görə, platforma nəqliyyat, enerji və rəqəmsal layihələrin əlaqələndirilməsinə, maliyyə resurslarının səfərbər olunmasına və regional əməkdaşlığın gücləndirilməsinə xidmət etməlidir.

Bu təşəbbüs ilk baxışdan regionun inkişafına yönəlmiş müsbət addım təsiri bağışlayır. Lakin burada mühüm bir sual ortaya çıxır: Avropa İttifaqı artıq mövcud olan Orta Dəhlizin inkişafına töhfə vermək istəyir, yoxsa marşrutun gələcək fəaliyyət qaydalarını formalaşdırmağa çalışır?

Çünki Orta Dəhliz nəzəri konsepsiya deyil. Bu marşrut uzun illər ərzində həyata keçirilmiş iri infrastruktur layihələrinin nəticəsidir. Bakı–Tbilisi–Qars dəmir yolu, Azərbaycanın və tərəfdaş ölkələrin liman infrastrukturu, dəmir yolu şəbəkələri və logistika mərkəzləri artıq fəaliyyət göstərən sistem yaradıb.

Dünya Bankının "Middle Trade and Transport Corridor" hesabatında Azərbaycan, Gürcüstan və Qazaxıstan marşrutun əsas iştirakçıları kimi göstərilir. Hesabatda qeyd olunur ki, dəhliz üzrə yükdaşımaların həcmi 2030-cu ilədək üç dəfə artaraq 11 milyon tona çata bilər. Eyni zamanda, Azərbaycanın logistika və nəqliyyat imkanları marşrutun səmərəliliyini müəyyən edən əsas amillərdən biri kimi qiymətləndirilir.

Avropa Yenidənqurma və İnkişaf Bankı da Orta Dəhlizi Avropa ilə Asiya arasında Rusiyadan yan keçən ən perspektivli marşrutlardan biri hesab edir. Bankın məlumatlarına görə, 2024-cü ildə dəhliz üzrə yük daşımalarının həcmi 62 faiz artaraq 4,5 milyon tona çatıb. Yaxın illərdə bu göstəricinin daha da yüksələcəyi proqnozlaşdırılır.

Statistika göstərir ki, Orta Dəhliz artıq beynəlxalq ticarətin mühüm hissəsinə çevrilib. Daşınma müddətlərinin 38–53 gündən 18–23 günə enməsi, konteyner daşımalarının sürətlə artması və yük axınının genişlənməsi marşrutun praktik səmərəliliyini təsdiqləyir.

Bu baxımdan regionda yaranmış yeni vəziyyət ətrafında əsas müzakirə investisiyalardan daha çox gələcək idarəetmə mexanizmləri və qaydalar üzərində cəmləşir. Çin üçün prioritet ticarətin fasiləsiz işləməsidir. Türkiyə regional bağlantıların genişlənməsinə üstünlük verir. Azərbaycan və Mərkəzi Asiya ölkələri tranzit imkanlarını iqtisadi inkişaf alətinə çevirməyə çalışırlar. Avropa İttifaqı isə bunlarla yanaşı, öz maliyyə mexanizmlərini, texniki standartlarını, rəqəmsal və ekoloji tələblərini regiona inteqrasiya etmək niyyətindədir.

Əslində, Orta Dəhliz ətrafında gedən proseslər yalnız nəqliyyat və logistika məsələsi deyil. Burada söhbət gələcək geoiqtisadi düzənin formalaşdırılmasından gedir. Məhz buna görə də marşrut ətrafında rəqabət yalnız yükdaşımalar və investisiyalar uğrunda deyil, həm də gələcək qaydalar uğrunda mübarizə xarakteri daşıyır.

Şübhəsiz, Ermənistanın iqtisadi inkişafı, ixrac imkanlarının genişlənməsi və regional layihələrə qoşulması bütövlükdə Cənubi Qafqaz üçün müsbət tendensiya sayıla bilər. Lakin bu proses regionun nəqliyyat-logistika arxitekturasında Azərbaycanın oynadığı açar rolu dəyişmir.

Bu gün Orta Dəhlizin funksionallığı Bakı limanına, Azərbaycan dəmir yollarına, Xəzər üzərində formalaşdırılmış logistika imkanlarına və ölkənin uzun illər ərzində tranzit infrastrukturuna yatırdığı milyardlarla dollarlıq investisiyalara söykənir. Regionun gələcəyi ilə bağlı istənilən strateji layihənin uğuru da, ilk növbədə, bu reallıqların nəzərə alınmasından asılıdır.

Geosiyasətdə simvollar və siyasi bəyanatlar mühüm rol oynayır. Ancaq uzunmüddətli nəticələri müəyyən edən əsas amillər dəyişmir: coğrafiya, infrastruktur və iqtisadi potensial. Cənubi Qafqazda isə bu üç amilin kəsişdiyi əsas məkan olaraq Azərbaycan öz mövqeyini qorumaqda davam edir.

***Oğuz ARİF,***
***siyasi icmalçı***

# Azərbaycançılığın prinsipləri: fəlsəfi təhlil



## II MƏQALƏ

### Azərbaycançılığa elmi yanaşma

Heç şübhəsiz, Azərbaycanda azərbaycançılığın elmi tədqiqi ilə bağlı çox dəyərli əsərlər vardır. Fərqli yanaşmalar və məsələnin mühüm aspektləri dərindən araşdırılmışdır və bu, davam edir. Bu mövzuda çox zəhmət çəkmiş alimlərimiz qarşısında baş əyirik. Eyni zamanda, bizi bu elmi problemin AMEA-nın yeniləşmə kursu kontekstində fəlsəfi aspekti maraqlandırdığından bir qədər başqa prizmadan azərbaycançılığa və onun akademik İsa Həbibbəyli mənasında prinsiplərinin nəzəri-konseptual xüsusiyyətlərinə baxmağa çalışacağıq.

Burada əsas məqsəd mövzu ilə bağlı hər hansı "mütləq həqiqəti" müəyyən etməkdən ibarət deyildir, əksinə müasir Azərbaycan dövlətçiliyi, ideoloji identikliyi və humanitar elmi təfəkkürü üçün çox aktual hesab etdiyimiz bir mövzunu fəlsəfi düşüncə fonunda daha da aktuallaşdırmaqdan ibarətdir. Çünki əminik ki, azərbaycançılığın adekvat fəlsəfi dərki olmadan (bu isə fərqli yanaşmaların, ciddi müzakirələrin, fikir dartışmalarının aktuallaşmasını nəzərdə tutur) bütövlükdə onun məzmun və funksional xüsusiyyətlərini elmi dərk etmək mümkün olmayacaq.

Digər tərəfdən, ölkə, dövlət və cəmiyyətin zəkavi və ideya-mənəvi "aləmi" üçün olduqca əhəmiyyətli və aktual olan azərbaycançılığın fəlsəfi refleksiyası (dərki, anlamı) çox mürəkkəb məsələdir. Bu, həm azərbaycanılığın bir ideya, konsept, konsepsiya və ideologiya kimi mürəkkəb substantiv-funksional xüsusiyyətlərə malik olması ilə bağlıdırsa, digər tərəfdən bizim üçün hələ də həssas olan ölkə-dövlət-cəmiyyət-mədəniyyət "zəncirinin" müxtəlif aspektlərinin tarixi, siyasi və müasir dövr kontekstlərində "konstruktiv dərki"nin meydana gətirdiyi həllini gözləyən məqamlarla əlaqəlidir. Biz burada "konstruktiv dərk" dedikdə konkret idrakı özəlliyi nəzərdə tuturuq.

Yəni azərbaycançılığın dərki o zaman konstruktiv sayıla bilər ki, ölkənin, cəmiyyətin bütövlüyünü və davamlı inkişafının ideya, mənəvi, əxlaqi, sosial aspektlərinin harmoniyasını təmin etməyə xidmət etsin. Dövlətçiliyin isə tərəqqisini tam müstəqillik çərçivəsində, milli ilə bəşəri dəyərlərin vəhdətində, dövlət identikliyinin sülhyaradıcı, faydalı əməkdaşlıq müstəvisində, milli təhlükəsizliyi, suverenliyi, ərazi bütövlüyünü tam təmin edən istiqamətə yönəltməkdə prinsipial rol oynasın.

Məhz vurğulanan yanaşma kontekstində akademik İsa Həbibbəylinin azərbaycançılıq və onun prinsipləri ilə bağlı irəli sürdüyü ideyaları daha uyğun hesab edirik. Burada söhbət müəllifdən deyil, ideya, konsept, konsepsiya və ideologiya kimi azərbaycançılığın dövlətçiliyə, cəmiyyətin bütövlüyünə, müstəqilliyin və suverenliyin davamlı təmininə sistemli yanaşma kontekstində fəlsəfi təhlilindən gedir. Burada iki xüsusiyyətə diqqəti yönəltmək istərdik.

Birincisi, azərbaycançılığın, ümumiyyətlə, Azərbaycan humanitar elmi təfəkkürünün tarixi dinamikası və bütöv mənzərəsi fonunda yeri və rolunun müəyyən edilməsi. Bu, daha konkret səviyyədə azərbaycançılığın humanitar elmi təfəkkürün elementi kimi adekvat dərki məsələsini aktuallaşdırmaq deməkdir. Eyni zamanda, buradan başqa bir mühüm metodoloji özəllik meydana çıxır.

"Azərbaycan humanitar elmi təfəkkürünün tarixi dinamikası" ifadəsinin nəzəri-konseptual proyeksiyası bütövlükdə elmi təfəkkürün (və bu bağlılıqda fəlsəfi təfəkkürün) dövrləşdirilməsi məsələsini fəal surətdə gündəmə gətirir. Yəni həmin "tarixi dinamikanın" adekvat dərki üçün fəlsəfi, bədii, tarixi, kulturoloji, sosioloji və digər təfəkkür sferalarının dövrləşdirilməsi prinsipləri müəyyən olunmalıdır.

İkincisi, müxtəlif elmi təfəkkür formalarının dövrləşdirilməsi xüsusiyyətlərinin bütövlükdə Azərbaycan humanitar elmi təfəkkürü müstəvisində və tam azərbaycançılıq kontekstində fəlsəfi və sinergetik vəhdətinin ümumnəzəri və metodoloji özəlliklərini tapmaq lazımdır.

Bunlara görə, azərbaycançılığın prinsiplərinin fəlsəfi təhlilində iki fundamental tezisi əsas götürməliyik.

Birincisi, elmi təfəkkür formalarının dövrləşdirilməsinin əsas prinsiplərinin müəyyən edilməsi.

İkincisi, müəyyən edilən həmin ümumi prinsiplər prizmasında azərbaycançılığın tam fəlsəfi-elmi obrazının yaradılması.

### Dövrləşdirmə prinsipləri

Azərbaycan ədəbiyyatı tarixinin yenidən dövrləşdirilməsi üçün konseptual baxımdan faydalı ola biləcək aşağıdakı prinsiplər irəli sürülmüşdür:

"1. Azərbaycançılıq məfkurəsi.
2. Sivilizasiya faktoru.
3. Ədəbi-tarixi prosesin reallıqları.
4. Azərbaycanda ədəbi cərəyanlar" (İ.Həbibbəyli, Azərbaycan ədəbiyyatı: dövrləşmə konsepsiyası və inkişaf mərhələləri. Bakı, "Elm", 2019, s. 96).

Bu yanaşmanın aşağıdakı xüsusiyyətləri diqqətimizi çəkir.

**a) Məfkurə**

Birincisi, bədii təfəkkürün dövrlər üzrə müəyyən edilməsinin ana ideya-konseptual xətti kimi azərbaycançılıq məfkurəsi götürülür. Bu seçimin müstəqil dövlət quruculuğu, suverenlik, ərazi bütövlüyü (Azərbaycan ərazisinin fəlsəfi, coğrafi, bədii, kulturoloji obrazının elmi kriteriyalar üzrə yaradılması - bu da başqa aktual elmi mövzudur), milli-ideoloji birlik, dayanıqlı inkişafda cəmiyyətin bütövlüyünün saxlanması, dövlətin qüdrəti ilə insanların yüksək rifahının təmin edilməsi arasında ziddiyyətsiz uyğunluğun formalaşması, çox güclü müasir dünya nümunələrinin milli nümunələri arxa plana atmaması baxımından əhəmiyyəti olduqca böyükdür. Bu bağlılıqda bir mühüm elmi məqama aydınlıq gətirməliyik.

Sual belədir: Azərbaycançılıq hansı anlamda tarixin bütün dönəmləri üçün elmi təfəkkürün (bu halda bədii təfəkkürün) aparıcı və müəyyənedici prinsipi ola bilər? Yəni elmi təfəkkürün dövrləşdirilməsi konsepsiyasının mərkəzində azərbaycançılıq dayana bilər? Bu cəsarətli tezisin elmi əsaslandırılması necə mümkündür?

Bundan başqa, dövrləşdirmə konsepsiyasında azərbaycançılıq həm məfkurə (ideologiya), həm də prinsip kimi təqdim edilir. Burada ziddiyyət varmı?

Sonuncu suala cavab, maraqlıdır ki, əvvəlki sualın semantikasında ifadə edilmiş iki məqama görə aydınlaşa bilər. Azərbaycançılığın məfkurəviliyi (ideolojiliyi) və prinsipliyi kimi funksionallığının vəhdəti əsasında o, yəni, azərbaycançılıq, dəyişən tarixi dönəmlərdə fəlsəfi, tarixi, elmi təfəkkürün transformasiyalarının aparıcı faktoru ola bilər.

Bu dualizm (ikililik) azərbaycançılığın substantiv (predmet kimi məzmun olaraq) aspektinə deyil, funksionallığına (sosial mühitdə praktiki anlamı və tətbiqinə) aiddir. Yəni azərbaycançılıq məfkurə (ideologiya) kimi məzmun olaraq ikiləşmir – fərqli məzmun çalarlarına malik olmur. Sosial-mədəni mühitə tətbiq aspektində o, funksional çalara malik olur.

Bu tezisi izah etmək üçün "ideologiya" və "prinsip" anlayışlarının fəlsəfi müqayisəsinə baxaq.

Standart elmi izahda ideologiya baxışlar, ideyalar və dəyərlərin sistemi kimi verilir. Bu faktorlar kompleks halında cəmiyyətin necə mövcud olmasını və fəaliyyətini müəyyən edirlər. Prinsip isə ideologiyanın əsaslandığı fundamental qayda və ya norma kimi dərk edilir. Bu anlamda prinsiplər ideoloji məqsədlərə çatmanın reallaşma alətləridirlər. Nümunə kimi deyək ki, liberalizm ideologiyası insan haqlarının üstünlüyünə, azad bazara və dövlətin məhdud müdaxiləsinə əsaslanır.

Onun başlıca prinsipləri söz və inanc azadlığı, şəxsi mülkiyyətin toxunulmazlığı və qanunun aliliyidir. Liberalizmin ideologiya kimi insan haqları məsələsində əsas prinsip olaraq söz və inanc azadlığına, azad bazar sferasında şəxsi mülkiyyətin toxunulmazlığına, dövlətin müdaxiləsində məhdudluqda qanunun aliliyinə əsaslanır. Fəlsəfi mövqedən baxanda bu üç prinsipin semantik sintezi liberalizmin funksional aspektdə semantik özəlliyini təşkil edirlər və həmin prizmada liberalizm ideologiyaçılıqla yanaşı, prinsipliliyi də ehtiva edir.

Bu məntiqi izah mexanizmini azərbaycançılığa proyeksiya etdikdə daha dərin və əhatəli mənzərə alınır. Belə ki, azərbaycançılıq ideologiya kimi 7 prinsipin (onlar irəlidə təqdim ediləcəkdir) semantik sahələrinin qarşılıqlı əlaqəsində əmələ gələn ortaq mənalar sahəsində ideologiya kimi həmin prinsiplərin funksional özəlliklərini ehtiva etməklə formalaşır. Bu da bünövrədən azərbaycançılığın funksionallığında məfkurəçiliklə prinsipliliyin vəhdətdə olduğunu göstərir. Azərbaycançılıq tarixin bütün dönəmlərində həmin 7 prinsipin qarşılıqlı münasibətlərinin nisbəti fonunda ideologiya kimi formalaşır və onu sosial mühitdəki funksionallığında əyaniləşdirir (reaktuallaşdırır).

Deməli, azərbaycançılığın məfkurəviliyi ilə prinsipliliyi nəinki hansısa ziddiyyət yaratmır, hətta bir-birini tamamlamaqla tarixin dinamikasında ideolojiliyi və funksionallığın münasibətlərini konkret istiqamət üzrə yönləndirə bilir.

Azərbaycançılığın məfkurə kimi mövcudluğunda hər bir istiqamətdə azərbaycançılığı şərtləndirən prinsiplərin funksionallığı zərurətdir. Həmin anlamda azərbaycançılıq həm məfkurə, həm də prinsip kimi funksionallığını təmin edir. Buradan dövrləşdirmənin ikinci prinsipinin aktuallığı önə çıxır.

**b) Sivilizasiya**

İndiki mərhələdə azərbaycançılığın məfkurə və prinsip kimi funksionallığında korrektəedici funksiya rolunu oynaya biləcək qlobal mahiyyətli faktora ciddi ehtiyac vardır. Dövrləşdirmə konsepsiyasında bu rolu "sivilizasiya" anlayışı oynayır. Azərbaycan humanitar təfəkkürünün bütövlükdə sivilizasiya faktoru ilə əlaqəli məzmunlaşması və funksionallaşması nəzəri-konseptual aspektlə yanaşı, praktiki cəhətdən də çox önəmlidir. Çünki XXI əsrdə elm, təhsil və mədəniyyət identikliyi bütövlükdə cəmiyyətin identikliyinin nüvəsini təşkil edir.

Hazırda dünya dövlətləri və cəmiyyətlər arasında o dərəcədə qarşılıqlı əlaqələr (deməli, qarşılıqlı asılılıq, qarşılıqlı təsirlər) vardır ki, ən yüksək inkişaf etmiş toplum belə təcrid olunmuş halda mövcud ola bilməz.

Buna görə də humanitar təfəkkür üçün ətraf dünya ilə dinamik qarşılıqlı əlaqələri təmin edən motivəedici və aparıcı "kanal" ("zona", "dəhliz") olmalıdır. Elmi təfəkkürü dövrləşdirən zaman bu anlamda "sivilizasiya" anlayışını həm də prinsip səviyyəsində nəzərə almaq çox faydalar verir. "Sivilizasiya" anlayışı bəşəriyyətə məxsusluqda hansı prinsipial rolu oynamağa imkan yaradırsa, azərbaycançılıq məfkurə kimi bu millətə məxsusluğu həmin dərəcədə təmin etməkdə mühüm prinsip rolunu oynayır. Deməli, azərbaycançılığın məfkurəvilikdən pinsipliliyə keçidində sivilasiyaya mənsubluq anlayış və prinsip kimi istiqamətverici funksiya yerinə yetirə bilir.

Belə qənaətə gələ bilərik ki, sivilizasiyalılıq humanitar elmi təfəkkürün dövrləşdirilməsində azərbaycançılığın məfkurəviliyi ilə prinsipliliyi arasında birləşdirici (ən azından uzlaşdırıcı) rol oynayır.

Vurğulanan məqamlardan 3-cü və 4-cü prinsiplərə semantik çıxış vardır.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# İtaliya Avropa – ABŞ yolayrıcında

*Baş nazir Meloni növbəti seçkiyə hansı uğurla gedir?*

**İtaliya 2027-ci il parlament seçkilərinə ölkənin son onilliklərdə yaşadığı maraqlı siyasi fonlardan biri ilə yaxınlaşır. 2022-ci ildə hakimiyyətə gələn Baş nazir Corcia Meloni rəhbərlik etdiyi sağ mərkəz koalisiyasını növbəti seçkilərə qədər qorumağa çalışır. Hətta son aylar hökumətin daha erkən seçki variantını da nəzərdən keçirdiyi barədə məlumatlar yayılıb.**



Xatırladaq ki, C.Meloni əvvəllər Avropa siyasi elitası tərəfindən ehtiyatla qarşılanırdı. Bir çox müşahidəçilər onun rəhbərlik etdiyi sağ-mühafizəkar hökumətin Avropa İttifaqı ilə kəskin qarşıdurmaya girəcəyini gözləyirdi. Lakin son dörd ildə fərqli mənzərə formalaşdı. Meloni həm milli suverenlik və sərhəd təhlükəsizliyi mövzularında sərt ritorikasını qorudu, həm də Avropa institutları və NATO ilə əməkdaşlığı davam etdirdi. Hazırda isə o İtaliyanın siyasi sistemini uzunmüddətli şəkildə dəyişdirə biləcək islahatlar həyata keçirməyə çalışır. Belə bir zamanda ABŞ Prezidenti Donald Trampla münasibətlərdə yaranmış böhran onun siyasi strategiyasına yeni element əlavə edib.

Meloninin siyasi layihəsinin mərkəzində dövlət institutlarının yenidən qurulması dayanır. Baş nazir uzun zamandır İtaliyanın idarəetmə sisteminin qeyri-sabit olduğunu iddia edir. İkinci Dünya müharibəsindən sonra ölkədə onlarla hökumətin dəyişməsi onun arqumentinin əsas dayağıdır. Meloninin fikrincə, İtaliya daha sabit icra hakimiyyətinə ehtiyac duyur. Bu səbəbdən hökumət son illər baş nazir institutunun gücləndirilməsi istiqamətində konstitusion dəyişiklikləri gündəmdə saxlayıb. Məqsəd hökumətlərin ömrünü uzatmaq və seçkilərdə qalib gələn siyasi qüvvəyə daha güclü mandat verməkdir. Müxalifət isə bunun hakimiyyət balansını poza biləcəyini və parlamentin rolunu zəiflədə biləcəyini iddia edir.

**ARAYIŞ:** *Məhkəmə sistemi sahəsində islahatlar Meloninin iddialı təşəbbüslərindən biri idi. Hökumət mart ayında hakimlər və prokurorlar üçün ayrıca karyera sisteminin yaradılmasını, intizam nəzarətinin yenidən qurulmasını və məhkəmə özünüidarəsinin dəyişdirilməsini təklif etmişdi. Tərəfdarlar bunun İtaliyanın uzun illər tənqid olunan ləng məhkəmə sistemini daha səmərəli edəcəyini bildirir, əleyhdarlar isə prokurorluğun müstəqilliyinin zəifləyə biləcəyindən narahat idilər. Nəticədə referendumda seçicilər islahatı rədd etdilər və bu, Meloni üçün ilk böyük siyasi məğlubiyyət oldu. Amma referendumun nəticəsi hökumətin ümumi mövqeyini sarsıtmadı. Meloni məğlubiyyəti qəbul etsə də, siyasi legitimliyini itirmədi. Əksinə, kampaniyanı liderliyi ətrafında qurmağa çalışaraq seçicilərə hökumətin fəaliyyətini davam etdirəcəyini göstərdi.*

Hazırda iqtisadi sahədə Meloninin qarşısında daha mürəkkəb vəzifələr dayanır. İtaliya Avrozonanın ən böyük dövlət borclarından birinə malikdir. Eyni zamanda, ölkə Aİ-in bərpa fondlarından milyardlarla avro vəsait alır. Həmin vəsaitlərin səmərəli istifadəsi Meloninin siyasi gələcəyinə birbaşa təsir göstərəcək. İqtisadi siyasətdə hökumət vergi yükünün müəyyən sahələrdə azaldılmasını, kiçik və orta biznesin dəstəklənməsini, sənaye istehsalının gücləndirilməsini və enerji təhlükəsizliyinin artırılmasını prioritet kimi təqdim edir. Lakin iqtisadi artımın zəif qalması və dövlət borcunun yüksək səviyyədə olması hökumətin manevr imkanlarını məhdudlaşdırır.

Miqrasiya məsələsi Meloninin güclü siyasi kartlarından biri olaraq qalır. Hakimiyyətə gələndən bəri o, Aralıq dənizi marşrutları ilə qeyri-qanuni miqrasiyanın qarşısının alınmasını prioritet elan edib. Onun mövqeyi elektoratın mühüm hissəsi tərəfindən dəstəklənir. Lakin Avropa hüququ və humanitar öhdəliklər səbəbindən hökumət bəzən seçicinin gözləntisini tam qarşılamır.

Əvvəldə də qeyd etdik ki, seçkilər yaxınlaşdıqca xarici siyasət daxili siyasi mübarizənin bir hissəsinə çevrilir. Burada diqqətçəkən məqam Donald Trampla münasibətlərdir. Meloni uzun müddət Avropada Trampa ən yaxın liderlərdən biri hesab olunurdu. Hər iki siyasətçi milli suverenlik, qeyri-qanuni miqrasiya və mədəni mühafizəkarlıq kimi mövzularda oxşar mövqelər nümayiş etdirirdilər. Lakin son vaxtlar bu münasibətlər ciddi sınaqla üzləşdi. Trampın Meloni haqqında aşağılayıcı hesab edilən açıqlamaları və Meloninin buna açıq cavab verməsi əvvəlki yaxınlığın artıq siyasi üstünlük yaratmadığını göstərdi.

Bu halda bir çoxları üçün bir sual maraq doğurur: "soyuq küləklər" Meloninin nüfuzuna necə təsir göstərəcək? Mövcud qarşıdurma ilk baxışda Meloni üçün mənfi hadisə kimi görünə bilər. Ancaq İtaliya daxili siyasətində vəziyyət daha mürəkkəbdir. Son illər Trampın Avropada populyarlığı xeyli zəifləyib. Sözsüz, Meloni də bunu yaxşı anlayır. Ona görə də baş nazir Trampa sərt reaksiya verməklə göstərməyə çalışır ki, o, ABŞ-la əməkdaşlığı dəstəkləsə də, İtaliyanın milli maraqlarını müdafiə etmək üçün Vaşinqtona qarşı çıxmaqdan çəkinmir. Seçkilər fonunda Meloninin bu strategiyası müəyyən üstünlüklər qazandıra bilər. Daha dəqiq desək, tərəddüdlü seçicilər Meloni daha müstəqil lider kimi qəbul edə bilərlər. Amma prosesdə risklər də mövcuddur. Əgər Vaşinqtonla münasibətlər uzunmüddətli böhrana çevrilərsə, onun xarici siyasətdəki əsas üstünlüklərindən biri zəifləyə bilər. Ona görə də Meloni tam qarşıdurma yolunu seçmək niyyətində deyil.

Sonda bu qənaətə gəlmək olar ki, 2027-ci il seçkilərinə qədər Meloninin taleyi üç əsas amildən asılı ola bilər. Birincisi, iqtisadi vəziyyət və həyat səviyyəsinin necə dəyişməsi. İkincisi, miqrasiya və təhlükəsizlik sahəsində seçicilərin gözləntilərinin nə dərəcədə qarşılanması. Üçüncüsü isə onun beynəlxalq arenada həm Avropa, həm də ABŞ ilə münasibətlər arasında balansı qoruyub-qoruya bilməməsi. Avropa sağının hansı istiqamətə gedəcəyi, Vaşinqtonla münasibətlərin hansı formatda qurulacağı və Meloninin özünü Avropanın aparıcı liderlərindən biri kimi təsdiqləyib-təsdiqləyə bilməyəcəyini isə zaman göstərəcək.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Xüsusi rəy*

**Boloniya Universitetinin siyasi analitiki Piero İqnatsi** İtaliyanın "Internazionale" nəşrinə açıqlamasında qeyd edib ki, Meloni Trampın hər xoşagəlməz açıqlamasına uyğun olaraq mövqeyini dəyişə bilməz: "O, ya daha az güzəştli, ya da Kanada kimi daha sərt xətt tutmağa qərar verməlidir. Meloni özünü iki fərqli auditoriyaya eyni vaxtda qəbul etdirməyə çalışırdı. Bir tərəfdən İtaliya sağının milli suveren elektoratına müraciət edir, digər tərəfdən isə Avropa İttifaqı, NATO və beynəlxalq maliyyə bazarlarına "mən radikal deyiləm, etibarlı tərəfdaşam" mesajı verirdi. Trampın ikinci dəfə Ağ Evə qayıdışından sonra bu strategiyaya üçüncü element əlavə olundu və Meloni özünü Vaşinqton ilə Brüssel arasında potensial vasitəçi kimi təqdim etməyə başladı".

İqnatsinun fikrincə, problem məhz burada yaranır. Çünki Trampın siyasi üslubu klassik müttəfiqlik münasibətlərinə söykənmir: "O, tərəfdaş dövlətlərdən çox, şəxsi sədaqət nümayiş etdirən liderlərlə işləməyə üstünlük verir. Belə şəraitdə Meloni həm Trampın ideoloji müttəfiqi, həm Avropanın məsuliyyətli lideri, həm də ABŞ-la Avropa arasında vasitəçi rolunda qala bilməz. Müəyyən mərhələdə bu rollar bir-biri ilə toqquşmağa başlayır. Həmin mərhələ artıq gəlib çatıb".

# Qərbi azərbaycanlıların haqq səsi ABŞ konfransında

## *Vaşinqton müzakirəsində soydaşlarımızın qayıdış hüququ dəstəklənib*



**Dünən Vaşinqton şəhərində, Konqres binasında Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Qayıdış hüququ və öz müqəddəratını təyinetmə: ikili standartlar və selektiv yanaşmalar" mövzusunda beynəlxalq konfrans keçirilib.**

BTQ-dən verilən xəbərə görə, bu, azərbaycanlıların Ermənistan tərəfindən etnik təmizləməyə məruz qalmasına dair ABŞ Konqresində keçirilən ilk belə toplantıdır. Konfransa qaçqınların və milli azlıqların hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşmış ekspertlər, insan hüquqları müdafiəçiləri, beynəlxalq hüquq üzrə mütəxəssislər, etnik mənsubiyyətinə görə zorakılıq, ayrı-seçkilik və təqiblərə məruz qalmış diaspor təşkilatlarının nümayəndələri, vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri və zərərçəkmiş icmaların nümayəndələri qatılıblar. İştirakçılar etnik təmizləmə siyasəti nəticəsində indiki Ermənistan ərazisindəki tarixi torpaqlarından zorla qovulmuş yüz minlərlə azərbaycanlının nümunəsində fundamental hüquqlarının – öz tarixi torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdış hüququnun tanınmasının beynəlxalq təşkilatların diqqət mərkəzində daim saxlanılması məsələsini müzakirə ediblər.

Ermənistanda qalan Azərbaycan xalqına məxsus mədəni, dini və tarixi irsin, o cümlədən toponimlərin, məscidlərin, qəbiristanlıqların, ziyarətgahların və digər abidələrin sistemli şəkildə dağıdılması, təhqir olunması və mənimsənilməsi faktlarına beynəlxalq hüquq müstəvisində hüquqi qiymət verilməsi, qeyd olunan pozuntuların BMT və onun aidiyyəti strukturları çərçivəsində beynəlxalq hesabatlılıq və monitorinq mexanizmlərinə çıxarılması, yerində araşdırılması və sənədləşdirilməsi, bu məqsədlə faktaraşdırıcı missiyaların cəlb olunması, eləcə də xüsusi məruzəçilər və digər beynəlxalq mandat sahibləri səviyyəsində araşdırma və hesabatlılıq mexanizmlərinin işlənib hazırlanması imkanları ətrafında fikir mübadiləsi aparılıb. Toplantıda həmçinin, müstəmləkəçilikdən əziyyət çəkən xalqların öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsi, xüsusilə, koloniyaların BMT-nin Dekolonizasiya edilməli olan Özünüidarəetməyən Ərazilər siyahısına əlavə edilməsinin BMT-nin gündəliyinə salınması məsələləri ətrafında müzakirələr aparılıb.

*

1951-ci ildə qəbul olunan Qaçqınların Statusu haqqında Cenevrə Konvensiyası qayıdış hüququnu, etnik təmizləmə nəticəsində didərgin salınmış şəxslərin hüquqlarının bərpasını beynəlxalq hüququn mühüm tələblərindən biri kimi təsdiqləyir. Bu baxımdan, indiki Ermənistan ərazisindən zorla çıxarılmış Qərbi azərbaycanlıların təhlükəsiz, könüllü və ləyaqətli şəkildə öz tarixi yurdlarına qayıdışının təmin edilməsi, onların mənzil, torpaq, əmlak, mədəni və dini irs üzərində hüquqlarının bərpası Ermənistanın beynəlxalq hüquqi məsuliyyəti kontekstində qiymətləndirilməlidir. Qərbi azərbaycanlıların öz doğma yurdlarına qayıdışı məsələsi son illərdə Azərbaycan diplomatiyasının ən mühüm beynəlxalq gündəliklərindən birinə çevrilib. Bir neçə il əvvələ qədər əsasən regional müstəvidə müzakirə olunan bu məsələ artıq beynəlxalq təşkilatların, xarici ekspert dairələrinin və siyasi institutların diqqət mərkəzində yer alır. Burada söhbət yalnız tarixi ədalətin bərpasından deyil, beynəlxalq hüququn tanıdığı fundamental insan hüquqlarının təmin edilməsindən gedir. Son illər bu istiqamətdə mühüm irəliləyiş əldə olunub. Mövzunun hüquqi və siyasi aspektləri müxtəlif beynəlxalq platformalarda müzakirə olunur, BMT Təhlükəsizlik Şurası və BMT Baş Assambleyasının sənədlərində əksini tapır. Eyni zamanda, parlament diplomatiyası mexanizmləri, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda qəbul edilən qərar və sənədlər bu məsələnin beynəlxalq legitimliyini daha da gücləndirib.

Məhz belə bir şəraitdə ABŞ-ın paytaxtında, dünyanın siyasi qərarvermə mərkəzlərindən biri sayılan Kapitoli Hilldə Qərbi azərbaycanlıların hüquqlarına həsr olunmuş beynəlxalq konfransın keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Bu tədbir göstərir ki, məsələ artıq yalnız Ermənistan–Azərbaycan münasibətlərinin tərkib hissəsi kimi deyil, insan hüquqları, məcburi köçkünlərin hüquqları, etnik təmizləmə və tarixi irsin qorunması kontekstində qiymətləndirilir. ABŞ Konqresində bu mövzunun müzakirəyə çıxarılması beynəlxalq auditoriyanın diqqətinin daha geniş şəkildə cəlb olunmasına xidmət edir.

Əslində, Qərbi azərbaycanlıların qayıdış hüququnun mahiyyəti olduqca sadədir. Söhbət bir xalqın öz tarixi yaşayış məntəqələrinə təhlükəsiz və ləyaqətli şəkildə dönmək hüququndan gedir. Bu hüquq beynəlxalq sənədlərdə təsbit olunub və dünyanın müxtəlif regionlarında analoji hallarda tətbiq edilib. Buna görə də məsələnin siyasi emosiyalar çərçivəsində deyil, beynəlxalq hüququn prinsipləri əsasında müzakirə olunması getdikcə daha çox qəbul edilən yanaşmaya çevrilir.

Vaşinqtonda keçirilən toplantının başqa bir mühüm tərəfi qayıdış hüququ ilə bağlı müzakirələrin daha geniş auditoriyaya çatdırılmasıdır. ABŞ Konqresi qlobal siyasi proseslərə təsir imkanları olan əsas platformalardan biridir. Burada keçirilən hər hansı toplantı təkcə Birləşmiş Ştatlar ictimaiyyətinə deyil, beynəlxalq siyasi dairələrə də ünvanlanmış mesaj kimi qəbul edilir. Bu baxımdan Kapitoli Hilldə Qərbi azərbaycanlıların hüquqlarının müzakirəyə çıxarılması məsələnin beynəlxalq səviyyədə tanınması istiqamətində növbəti mühüm addım hesab oluna bilər. Hazırkı mərhələdə diqqətçəkən əsas məqam ondan ibarətdir ki, qayıdış mövzusu artıq nəzəri müzakirə çərçivəsindən çıxaraq konkret hüquqi və siyasi mexanizmlərin müzakirə olunduğu mərhələyə qədəm qoyub. Beynəlxalq platformalarda aparılan müzakirələr, qəbul olunan sənədlər və təşkil olunan tədbirlər göstərir ki, Qərbi azərbaycanlıların hüquqlarının tanınması istiqamətində formalaşan beynəlxalq anlayış getdikcə güclənir. Vaşinqtonda keçirilən konfrans da bu prosesin yeni mərhələyə daxil olduğunu və məsələnin beynəlxalq gündəmdə mövqeyini daha da möhkəmləndirdiyini nümayiş etdirir.



**Milli Məclisin deputatı Rizvan Nəbiyev** mediaya açıqlamasında Qərbi azərbaycanlıların qayıdış məsələsinin artıq hüquqi müstəvidə irəlilədiyini bildirib. Onun sözlərinə görə, Qərbi azərbaycanlıların öz tarixi torpaqlarına qayıdış məsələsi uzun müddət əsasən humanitar aspektdə müzakirə olunub: "Artıq qayıdışın hüquqi baxımdan həlli istiqamətində beynəlxalq təşkilatlarda çoxsaylı sənədlər yayılıb, həmçinin parlament diplomatiyası çərçivəsində müvafiq sənədlər qəbul olunub. Qərbi azərbaycanlıların deportasiyasından sonra və Ermənistan müstəqillik əldə etdikdən sonra onlara vətəndaşlıq hüququ verilib".

R.Nəbiyev bildirib ki, 1998-ci ildə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanun qəbul edilərkən Prezident Heydər Əliyev tərəfindən irəli sürülən təşəbbüsə əsasən, Azərbaycan vətəndaşlığını alan və 1988-1992-ci illərdə ölkəyə qaçqın kimi gələn şəxslərin öz tarixi torpaqlarına qayıtmaq hüququ qorunub saxlanılıb. Deputat qeyd edib ki, məsələnin mürəkkəb tərəflərindən biri Ermənistan cəmiyyətində qayıdacaq azərbaycanlıların təhlükəsiz yaşayışının təmin edilməsidir. Çünki uzun illər ərzində azərbaycanlılara qarşı düşmən obrazı formalaşdırılıb və aparılan araşdırmalar bunun əsas səbəblərindən birinin Ermənistanın təhsil sistemində istifadə olunan dərsliklər olduğunu göstərir. Həmin dərsliklərdə uzun müddət kollektiv düşmən obrazının yaradılması bu gün də öz təsirini göstərməkdədir.

*Səxavət HƏMİD*
*XQ*

---

# Zəngəzur dəhlizi hara, KTMT hara?

## *Cənab Vasilyevi başa düşmək istəsək də...*

**Qərb ölkələrinin Ermənistan ətrafında atdığı qeyri-dost hərbi-siyasi addımlar regionda vəziyyətin daha da gərginləşməsinə səbəb ola bilər. Bu fikri Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Daimi Şurasının fəaliyyətdə olan sədri, Rusiyanın KTMT yanındakı nümayəndəsi Viktor Vasilyev Sankt-Peterburq Beynəlxalq Hüquq Forumundakı çıxışında bildirib.**






**ARAYIŞ:** *1963-cü il təvəllüdlü V.Vasilyev 1993–1997 və 2000–2004-cü illərdə Rusiyanın BMT yanında daimi nümayəndəliyində, 2004–2007-ci illərdə Rusiya XİN-in Beynəlxalq Təşkilatlar Departamentində direktor müavini, 2007–2013-cü illərdə isə ölkəsinin BMT Cenevrə bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsinin müavini vəzifələrində çalışıb. 2024-cü ildən Rusiyanın KTMT yanında daimi nümayəndəsi olan V.Vasilyev 2013–2018-ci illərdə də eyni postu tutub.*

Göründüyü kimi, V.Vasilyev kifayət qədər təcrübəli diplomatdır. Amma söylədikləri başqa nəticəyə gəlməyə əsas verir: "Cənubi Qafqazdakı vəziyyət üzərində ayrıca dayanmaq lazımdır. O cümlədən Ermənistanda keçirilən seçkiləri nəzərə alaraq. ABŞ-ın, guya, Zəngəzur dəhlizinin təhlükəsizliyini təmin etmək planları, Avropa İttifaqı ölkələrinin Ermənistanı öz hərbi strukturlarına cəlb etmək niyyətləri, eləcə də regionda atılan digər qeyri-dost addımlar perspektivdə vəziyyətin daha da gərginləşməsinə gətirib çıxaracaq. Biz vəziyyəti nəzarətdə saxlayırıq".

Maraqlıdır, Vasilyevin dilə gətirdikləri Rusiyanın mövqeyidir, yoxsa KTMT-nin? Hər halda, tutduğu vəzifə onu deməyə əsas verir ki, diplomat təmsil olunduğu qurumun mövqeyini ifadə edir. O zaman sual yarınır: Ermənistan KTMT-dən kömək istəyir? Kömək istəmirsə, təşkilatın ölkə xüsusunda heç bir səlahiyyəti yoxdur. Bu yerdə Vasilyevin "Aİ ölkələrinin Ermənistanı öz hərbi strukturlarına cəlb etmək niyyətləri, eləcə də bu regionda atılan digər qeyri-dost addımlar" məntiqini bir kənara qoyaq. Onun Zəngəzur dəhlizi və təhlükəsizlik məsələsindən danışmasına toxunaq və bildirək ki, bu danışığa, yumşaq desək, heç bir lüzum yoxdur.

Görəsən, Zəngəzur dəhlizində təhlükəsizliyi təmin etmək istəyən, yaxud belə bir iddiada olan hansı xarici qüvvədir? Axı bu məsələ barədə söz açan yoxdur. Ortada yalnız bir sənəd var. Söhbət ötən il avqustun 8-də Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidentinin şahidliyi ilə Vaşinqtonda imzaladıqları Birgə Bəyannamədən gedir. O bəyannamə ki, orada Zəngəzur dəhlizi məntiqinə köklənmiş iki müddəa var. Bunlardan birincisində, yəni 3-cü bənddə bildirilir ki, "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir". Sənədin 4-cü bəndində isə bunlar əksini tapır: "Ermənistan Respublikası Ermənistan Respublikasının ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi üçün çərçivənin müəyyən edilməsi məqsədilə Amerika Birləşmiş Ştatları və qarşılıqlı müəyyən edilmiş üçüncü tərəflər ilə əməkdaşlıq edəcəkdir. Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik".

Göründüyü kimi, heç bir bənddə təhlükəsizlik məsələsindən söz açılmır. Açılmamalıdır da, çünki Naxçıvana gedən yol Ermənistan ərazisindən keçirsə, həmin yolda təhlükəsizliyi məhz Ermənistan dövləti, yəni onun müvafiq strukturları təmin etməlidir. Ermənistan KTMT-yə üzv dövlət kimi qurumdan bununla əlaqədar hansısa kömək istəyibmi? Xeyr. O zaman cənab Vasilyev niyə öz səlahiyyətlərinə uyğun gəlməyən tərzdə dillənir? Ona görə ki, o, KTMT-də Rusiyanı təmsil edir? Bəs qurumun digər üzvləri? Hələ KTMT-nin Nizamnaməsini bir kənara qoyaq, təşkilata üzv dövlətlər üçün Zəngəzur dəhlizinin nə kimi əhəmiyyəti var? Əlbəttə, var, o anlamda ki, onlar Azərbaycanla yaxşı münasibətlərdədirlər və ölkəmizin Naxçıvana yolunun olmasını regional kommunikasiyaların açılmasının göstəricisi, yekun nəticədə regionda sülhə, sabitliyə və inkişafa aparan məqam kimi təsəvvürə gətirirlər və mövqelərini dəfələrlə bildiriblər. Onlar həm də ona görə mövqelərini bildiriblər ki, Azərbaycanın balanslı siyasət kursuna inanırlar. İnanırlar ki, ölkəmiz regionda hansısa hərbi qüvvənin mövcudluğuna imkan verməyəcək.

Regionda kənar hərbi qüvvənin mövcudluğundan söz düşmüşkən, hazırda bu mövcudluq yalnız Rusiyaya məxsusdur. Yəni Ermənistanda rus hərbi birləşmələri var. Parlament seçkilərindən dərhal sonra belə bir məlumat yayıldı ki, həmin birləşmələr Zəngəzur dəhlizinin keçəcəyi yolu nəzarətə götürüblər. Əlbəttə, nəzarət dedikdə söhbətin konkret nədən getdiyi tam şəkildə bildirilməsə də, hadisəyə dair xəbərin Ermənistandakı ruspərəst müxalifətin seçki uğursuzluğunun ardınca dövriyyəyə girməsi təsadüf sayılmamalıdır. Bu durum, istər-istəməz, düşünməyə vadar edir və meydana sual çıxarır: Zəngəzur dəhlizinin, Naxçıvana yolun, böyük anlamda götürsək, TRIPP-in reallaşmasına imkan verməyən, qlobal inkişaf təşəbbüsünü əngəlləməyə çalışan hansı xarici qüvvədir?

Bəli, Avropanın və ya ABŞ-ın regionda hərbi mövcudluğuna dair heç bir cəhd yoxdur. Əlbəttə, sözümüz onda deyil ki, ümumən, kollektiv Qərbin Cənubi Qafqazda hərbi yöndə planlarının olduğunu istisna edirik. Belə bir xoşagəlməz saydığımız durum meydana çıxa bilər. Üstəlik, Qərbin bir vaxtlar Rusiyanın etdiyi kimi, Ermənistanı silahlandırdığı da diqqətimizdən yayınmır. Ancaq Azərbaycan nəticəyə baxır. Nəticəyə doğru isə ləng də olsa, addımlar atılmaqdadır. Söhbət barəsində söz açdığımız Birgə Bəyannamənin TRIPP məntiqinin reallaşmasına doğru atılan addımlardan gedir.

Sözümüz ondadır ki, KTMT indiki şərtlər altında mövcud trayektoriyada heç bir söz sahibi ola bilməz. Əgər cənab Vasilyev təmsil etdiyi qurumun yox, təşkilatda təmsilçisi olduğu dövlətin mənafeyindən çıxış edirsə və narahatlığını bildirirsə, buna görə "tələsməməlidir". Ona görə "tələsməməlidir" ki, Azərbaycan kimi, Ermənistanda da müstəqil dövlətdir və Birgə Bəyannamə ilə üzərinə öhdəlik götürüb. Başqa sözlə desək, rəsmi İrəvanın üzərinə götürdüyü öhdəliyin heç bir kənar qüvvəyə, o cümlədən KTMT-yə hansısa aiddiyyatı ola bilməz.

Sonda onu da bildirək ki, cənab Vasilyev KTMT-də yüksək vəzifə tutanadək, yəni 2018–2023-cü illərdə Rusiyanın BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı yanında daimi nümayəndəsi olub. Görünür, əvvəlki vəzifəsi onun diplomat bacarıqlarını, belə demək mümkünsə, korşaldıb. Başqa nə deyək, nə düşünək?

*Ə.RÜSTƏMOV*
*XQ*

*Allahverdi Məmmədli – 70*

# “Molla Nəsrəddin” məktəbi irsinin çağdaş tədqiqatçısı

**Jurnalist, ədəbiyyatşünas və pedaqoq kimi ömrünün yetkinlik çağını yaşayan media professoru Allahverdi Məmmədli müxtəlif vəzifələrdə çalışıb. Ötən illərdə onunla sıx əlaqələrimiz, müntəzəm ünsiyyətimiz olub. Yüksək kürsülər onu davranışca zərrə qədər dəyişdirə bilməyib, əksinə, nəcabətinin daha qabarıq üzə çıxmasına imkan yaradıb.**

Allahverdi Məmmədli Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirəndən sonra Naxçıvan MR Televiziya və Radio Verilişləri Komitəsində redaktor , “Şərq qapısı” vilayət qəzetində baş redaktorun birinci müavini, “Xalq qəzeti”nin xüsusi müxbiri, “Azad Azərbaycan” qəzetinin baş redaktoru, “Azad Azərbaycan” radiosunun məsul redaktoru, AzTV-də baş redaktor, Ali Məhkəmədə mətbuat xidməti rəhbəri, məzunu olduğu ali məktəbdə kafedra müdiri vəzifələrində uğurla çalışıb. Məsul və gərgin jurnalist fəaliyyətinə baxmayaraq, milli mətbuat tariximizdən namizədlik və doktorluq disertasiyaları müdafiə edib, professor elmi adı alıb.



Çoxillik publisistik, elmi və pedaqoji fəaliyyətində Allahverdi Məmmədlinin bir insan kimi öz xarakterindən gələn cövhər Vətən və millət sevdasından ibarət olub. Təsadüfi deyil ki, o, publisistik yazılarının çoxunu millətin fədakar övladlarına, fəlsəfə doktorluğu, elmlər doktorluğu dissertasiyalarını isə azərbaycançılıq məfkurəsinə həsr edib.

Babək rayonunun Nehrəm kəndində doğulub boya-başa çatan Allahverdi Məmmədli azərbaycançılığın səciyyəvi nümunəsini Danabaş kəndinin tragikomik əhvalatlarını ürəkağrısı ilə qələmə alan Mirzə Cəlil yaradıcılığında, bu böyük sənətkarın adı ilə bağlı Molla Nəsrəddin məktəbində görüb.

Mirzə Cəlilin, Molla Nəsrəddin ədəbi məktəbinin adını çəkən kimi, istər-istəməz, Allahverdi Məmmədli ilə, onun qardaşı, rəhmətlik Kamillə səmimi görüşlərimiz, Nehrəm lətifələri üstündə qurulan şirin söhbətlərimiz yada düşür.

“Pis və çirkin adətləri insanın təbiətindən tənqid, istehza və məsxərədən başqa heç bir şey qoparıb çıxartmaz”. Mirzə Fətəlinin bu tövsiyəsinə özündən sonra əməl edənlərdən biri məhz Mirzə Cəlil olub, “Molla Nəsrəddin” ədəbi məktəbinin yaranmasında Mirzə Fətəlinin komediyaları əvəzsiz rol oynayıb.

Tənqid hədəflərinin düşmən kimi ittiham olunması “Molla Nəsrəddin”in sənət yoluna məhz ona görə uyğun gəlmir ki, bu ittiham tərəflər arasına çin səddi çəkir, tənqid edənlə tənqid olunanın hansısa bir nöqtədə ortaq məxrəcə gəlməsinin qarşısını alır, yaxşısı və pisi ilə birlikdə millətin vahid orqanizm şəklində qələmə alınmasına maneəçilik törədir.

“Molla Nəsrəddin” ədəbi-məfkurəvi məktəbinin çağdaş tədqiqatçısı, Bakı Dövlət Universiteti jurnalistika fakültəsinin professoru Allahverdi Məmmədli azərbaycançılıq ideologiyasının tarixi qaynaqlarına məhz bu prizmadan yanaşır. Araşdırmaçı göstərir ki, ayrı-ayrı şəxslərin marağından çıxış edib millət mənafeyini yaddan çıxarmaq, Mirzə Cəlilinin nəzərində, yazı-pozu adamı üçün yolverilməz haldır: “O yerdə ki, lüğət kitablarında gərək yazılaydı “millət”, orada “millət” əvəzinə yazılıb “şəxs”, o yerdə ki, söz düşəndə gərək millət sözü danışıla, orada “əşxas” ləfzi istemal olunur... Firəngistan millətpərəstliyi sayəsində yer üzündə çox-çox millətlər tərbiyə olundu, millətçilik və azadxahlıq bayrağı cəmi məmləkətlərə sirayət elədi, onların sayəsində biz də bir yüngülvari hərəkətə gəldik”.

Mirzə Cəlilin bu sözlərini xatırladan Allahverdi Məmmədli böyük bir məktəb yaratmış sənətkarın “millət” deyərkən kimləri nəzərdə tutduğuna aydınlıq gətirmək üçün “Molla Nəsrəddin” jurnalının proqram səciyyəli “Sizi deyib gəlmişəm” məqaləsinə diqqət yönəldir.

Alim vurğulayır ki, Cəlil Məmmədquluzadə millət anlayışını beş-üç oxumuş adamla məhdudlaşdırmır və üzünü cəmiyyətdə əksəriyyət təşkil edən “qara”camaata tutur, öz sözünü hamıdan qabaq avam adamlara – it boğuşduranlara, dərviş nağılına qulaq asanlara, hamamda mürgü döyənlərə və başqa bu kimi “vacib” əməl sahiblərinə deyir. Milli varlığın mühüm göstəricilərindən biri olan ana dilinə münasibətdə də Mirzə Cəlil toplumda sayca çox olan sıravi adamların ədəbi dili nə dərəcədə başa düşüb-düşməməsini əsas meyar kimi götürür.

“Türkün açıq ana dilində” yazan Mirzə Cəlil yazı dilinin bir qrup oxumuş adam üçün nəzərdə tutulmasını qətiyyən düzgün yol saymadığını yeni şəraitdə gündəmə gətirən tədqiqatçı və bu mövqeni, təbii ki, digər mollanəsrəddinçilər də müdafiə edirlər: “Aldığımız sözləri özümüzə mal edib onları öz türk sərfimizə tabe etməliyik... Yazıçılarımız bəziləri kimi “əvam” üçün ayrı, “xas” üçün ayrı dil yaratmaq fikrinə düşməməlidirlər... Bir millətə hakim “xas”ın fikri deyil, “ümum”in fikridir. Buna görə də hamıdan ziyada “ümum”in fikrinin açılmasına çalışmalıyıq. Bunun üçün də bir dərəcəyə qədər hamının, heç olmazsa çoxunun anlayacağı bir dil ilə yazmalıyıq... Açıq türkcə yazılmış yazılara “əvam” dili deyib gülməməli. Daha vaxtdır ki, “xas” dilini “əvam” dilinə yaxınlaşdıraq”.

Mollanəsrəddinçilərdən gətirdiyi belə misallarla Allahverdi Məmmədli azərbaycançılığın bir məfkurə məsələsi olaraq ziyalı və xalq həmrəyliyinə əsaslanması fikri üzərində dayanır. Bu fikri irəli sürərkən onun istinad etdiyi ədəbiyyatşünaslardan biri Yaşar Qarayev olur. Çünki Yaşar Qarayev hay-küyçü ədəbiyyatşünaslardan fərqli olaraq, azərbaycançılığı “Vətən!”, “Millət!” şüarlarında yox, zehniyyətə hopub gerçəyə çevrilmiş vətənsevərlik, millətsevərlik əməllərində axtarırdı.

Allahverdi Məmmədli də çox yaxşı bilir ki, Vətənin şanlı keçmişindən, zəfərlərlə dolu bu günündən və parlaq gələcəyindən söhbət açıb baş altına yastıq qoymaq mollanəsrəddinçilər üçün səciyyəvi üslub deyil. Bu sənət fədailərinin seçdiyi üslub oxucunu (daha çox isə sıravi oxucunu!) güldürüb, onun qırışığını açıb düşündürmək üslubudur.

Mollanəsrəddinçilər ən çox nəyə gülürdülər? Köləliyə! Köləliyin səbəbi və acınacaqlı nəticəsi kimi ortaya çıxan cəhalətə və nadanlığa! Allahverdi Məmmədli bu ideya istiqamətini “Molla Nəsrəddin” jurnalının həm Tiflis, həm Təbriz, həm də Bakı mərhələləri üzrə izləyir.

Bolşevik işğalından sonra Cəlil Məmmədquluzadənin köçüb Təbrizə getməsinə Allahverdi Məmmədli belə aydınlıq gətirir: “Mirzə Cəlil də inqilabı qəbul etmədiyindən, qisasçılar arasında olan bədxahları tərəfindən hər an... müxtəlif hücumlara tuş gələ bilərdi. Üstəlik, Həmidə xanımın Qarabağ xanları nəslinə mənsubluğu və mal-mülk sahibi olması onu “sinfi düşmən”ə çevirmişdi”.

Allahverdi Məmmədlinin “Azərbaycançılıq mollanəsrəddinçilərin milli ideya kontekstində” adlı monoqrafiyasının məziyyətlərindən biri “Molla Nəsrəddin” jurnalının Bakı mərhələsinə güzgü tutmasında, bu mərhələnin az öyrənilmiş bir çox məsələlərini diqqət mərkəzinə çəkməsindədir. Belə məsələlərdən biri milli varlığın müstəmləkə təsirinə məruz qalması məsələsidir.

Professor Allahverdi Məmmədli bu məsələnin “Molla Nəsrəddin” jurnalında necə təqdim olunmasının incəliklərinə və əsl mahiyyətinə vara bilir. Aydın olur ki, “Molla Nəsrəddin”dən ötrü əsarət əsarətdir, millət öz varlığını rus əsarətindən də, ingilis əsarətindən də qorumağı bacarmalıdır.

Allahverdi Məmmədlidən, onun “Molla Nəsrəddin” ədəbi məktəbi ilə bağlı monoqrafiyasından danışdıqca söhbət hərlənib-fırlanıb təzədən “Danabaş kəndinin əhvalatları” povestinə gəlib çıxır. Niyə? Görünür, ona görə ki, Allahverdi Məmmədlinin (eləcə də bizim çoxumuzun) Mirzə Cəlillə əsaslı tanışlığı məhz bu əsərdən başlayıb. Mirzə Cəlildəki və digər mollanəsrəddinçilərdəki doğruculluq bir insan və qələm sahibi kimi Allahverdi Məmmədlidən ötri mənəvi dəyərə çevrilib.

Bügünlərdə yaşı 70-i haqlayan həmkarımıza azərbaycançılıq irsinin, demokratik media tariximizin araşdırılmasında yeni uğurlar və möhkəm cansağlığı arzulayırıq.

***Muxtar KAZIMOĞLU,***
***akademik***

# Qərbi Azərbaycana qayıdış tarixi ədalətin tələbidir

**Dünən Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə Ümumdünya Qaçqınlar Gününə həsr olunmuş tədbir keçirildi. Toplantıda doğma torpaqlarından didərgin salınmış soydaşlarımızın pozulmuş hüquqlarının bərpası, qayıdış prosesinin siyasi, diplomatik və hüquqi tərəfləri ətraflı şəkildə təhlil edildi.**



**Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı Əziz Ələkbərli** bildirdi ki, Ermənistanla Azərbaycan arasındakı sülh danışıqlarının şərti kimi Qərbi Azərbaycan qaçqınlarının da öz ata-baba yurdlarına qayıtması məsələsinə aydınlıq gətirilməlidir. Bizim istər beynəlxalq təşkilatlara, istər Ermənistan rəhbərliyinə etdiyimiz müraciətlər hələ də cavabsız qalır.

Əziz Ələkbərli bu yaxınlarda Ermənistandakı 201 azərbaycanlı qəbiristanlığı üzərində apardıqları monitorinqin nəticələrinə də toxundu. Bildirdi ki, həmin qəbiristanlıqların 12-si üzərindən asfalt yollar çəkilib, 16-nın yerində yaşayış evləri tikilib, 56-sı əkin sahəsinə çevrilib, 6-sı erməni qəbiristanlığı kimi istifadə olunub, 67-si vandalizmə məruz qalıb, digərlərinin ərazilərində isə müxtəlif tikinti və təsərrüfat işləri aparılıb.



**Qərbi Azərbaycan İcması İdarə Heyətinin üzvü, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa** “Qaçqınlığın tarixi aspektləri (1828–1991-ci illər)” mövzusunda çıxış edərək Qərbi azərbaycanlıların deportasiyasından və bu prosesin nəticələrindən bəhs etdi. Bildirdi ki, Ermənistanın məktəb dərsliklərində azərbaycanlılara qarşı etnik nifrət və aşağılayıcı ifadələr aşılanır ki, bu da beynəlxalq konvensiyaların kobud şəkildə pozulması deməkdir.



**Hüquq elmləri doktoru, professor Zahid Cəfərov** “Qayıdışın hüquqi aspektləri” mövzusunda məruzə edərək beynəlxalq hüququn qayıdış hüququnu tanıyan norma və prinsiplərini tədbir iştirakçılarının diqqətinə çatdırdı. Professorun sözlərinə görə, 1966-cı il Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın 12-ci maddəsi bu hüququn əsas dayaqlarından hesab olunur. Bu norma dövlətlərin vətəndaşlıq, yaşayış və geri dönüş hüququ ilə bağlı öhdəliklərini hüquqi müstəvidə müəyyənləşdirir.

Zahid Cəfərov çıxışında irqi ayrı-seçkiliyin bütün formalarının ləğvi ilə bağlı 1965-ci il Beynəlxalq Konvensiyaya istinad etdi. Bildirdi ki, həmin sənəd yalnız ayrı-seçkiliyin qadağan edilməsini deyil, eyni zamanda vətəndaşlıq hüquqlarının qorunmasını və insanların hüquqi statusunun bərpasını da ehtiva edir. Bu yanaşma qayıdış hüququnun təkcə siyasi deyil, həm də hüquqi və institusional çərçivədə qiymətləndirilməsinin vacibliyini göstərir.



**Qərbi Azərbaycan İcması Ziyalılar Şurasının üzvü, sosiologiya elmləri üzrə fəlsəfə doktoru Əfqan Vəliyev** qayıdış məsələsinin ictimai rəydə yeri və bu istiqamətdə aparılan maarifləndirmə işlərindən danışdı. Əlavə etdi ki, insanların doğma yurdlarına qayıtmaq arzusu onların kimlik, yaddaş və mənəvi bağlılıq hissləri ilə sıx bağlıdır. Buna görə də bu istiqamətdə aparılan işlər kompleks yanaşma tələb edir və uzunmüddətli proses kimi dəyərləndirilməlidir.



**Qərbi Azərbaycan İcması Ziyalılar Şurasının üzvü, Milli Məclisin deputatı, siyasi elmlər üzrə fəlsəfə doktoru Rizvan Nəbiyev** isə vurğuladı ki, artıq qayıdışın hüquqi baxımdan həlli istiqamətində BMT Təhlükəsizlik Şurası və BMT Baş Assambleyasında çoxsaylı sənədlər yayılıb, parlament diplomatiyası, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində müvafiq sənədlər qəbul olunub.

Qərbi azərbaycanlıların deportasiyasından sonra və Ermənistan müstəqillik əldə etdikdən sonra onlara vətəndaşlıq hüququ verilib. 1998-ci ildə "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" qanun qəbul edilərkən ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə, Azərbaycan vətəndaşlığını alan və 1988–1992-ci illərdə ölkəyə qaçqın kimi gələn şəxslərin öz tarixi torpaqlarına qayıtmaq hüququ qorunub saxlanılıb.

Məsələnin mürəkkəb tərəflərindən biri Ermənistan cəmiyyətində qayıdacaq azərbaycanlıların təhlükəsiz yaşayışının təmin edilməsidir. Çünki uzun illər azərbaycanlılara qarşı düşmən obrazı formalaşdırılıb və aparılan araşdırmalar bunun əsas səbəblərindən birinin Ermənistanın təhsil sistemində istifadə olunan dərsliklər olduğunu göstərir. Həmin dərsliklərdə uzun müddət kollektiv düşmən obrazının yaradılması bu gün də öz təsirini göstərməkdədir

***Fidan ƏLİYEVA***
***XQ***

# Dübəndidə təmizlik aksiyası



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Dübəndi yaşayış sahəsində təmizlik aksiyası təşkil edilib.**

IDEA İctimai Birliyinin təşkilatçılığı və Fövqəladə Hallar Nazirliyinin dəstəyi ilə keçirilən aksiya çərçivəsində sahilboyu əraziyə yayılmış neft tullantılarının və neftlə çirklənmiş qalıqların təmizlənməsi işləri davam etdirilib.

İştirakçıların sağlamlığının və təhlükəsizliyinin yüksək səviyyədə təmin olunması məqsədilə aksiyadan əvvəl onlara neft tullantıları ilə davranış, fərdi mühafizə vasitələrindən düzgün istifadə və fövqəladə hallarda görüləcək tədbirlərlə bağlı ətraflı təlimat verilib.

Aksiya nəticəsində toplanan neft tullantıları zərərsizləşdirilməsi məqsədilə müvafiq qaydada təhvil verilib.

***XQ***



# UFC ulduzları Bakıda







**Bakıda keçiriləcək “UFC Fight Night” turniri ərəfəsində əsas döyüşlərin iştirakçıları üçün açıq məşq və fan-zona təşkil olunub.**

Dənizkənarı Milli Parkda keçirilən məşqdə Rafael Fiziyev və Manuel Torres, gecənin ikinci əsas qarşılaşmasının iştirakçısı Şarabutdin Maqomedov, eləcə də yerli döyüşçülər Nazim Sadıxov və Fərman Həsənov açıq məşq keçiriblər.

Açıq məşq zamanı idmançılar təxminən 10 dəqiqə ərzində müxtəlif texniki fəndlər nümayiş etdirib, azarkeşlərlə ünsiyyətdə olub və xatirə fotoları çəkdiriblər.

Tədbir çərçivəsində xüsusi fan-zona da fəaliyyət göstərib. Azarkeşlər burada interaktiv oyunlarda iştirak edib, fotozonalarda şəkillər çəkdirib və UFC-nin rəsmi məhsulları ilə tanış olublar.

Qeyd edək ki, “UFC Fight Night Baku” turniri iyunun 27-də Milli Gimnastika Arenasında keçiriləcək.

***Tacir SADIQOV,***
***Cavid QAÇAYEV( fb )***
***XQ***

*"Azərbaycan Mədəniyyəti – 2040"*

# Qlobal çağırışlara cavab verən konsepsiya

***(əvvəli ötən sayımızda)***

**"Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasında bir sıra dövlət proqramlarının, o cümlədən Azərbaycan dilinin və ədəbiyyatının inkişafı ilə bağlı dövlət proqramının hazırlanması nəzərdə tutulur.**

Prezident İlham Əliyevin 2012-ci ildə imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında", "Azərbaycan Milli Elmlər Akademiyasının Nəsimi adına Dilçilik İnstitutunun maddi-texniki bazasının gücləndirilməsi haqqında" sərəncamları Azərbaycan dilinin dövlət dili kimi tətbiq və inkişaf sahələrini genişləndirdi. Dövlət başçısının, 17 iyul 2018-ci ildə imzaladığı "Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamda isə göstərilir ki, Azərbaycan dili xalqımızın mənəvi sərvəti və dövlətimizin müstəqilliyinin rəmzidir.

Ölkədə dil siyasətinin formalaşdırılması, ana dilinin dövlət dili olaraq tətbiqi işinin təkmilləşdirilməsi və dünya azərbaycanlılarının ünsiyyət vasitəsinə çevrilməklə, həmrəyliyin göstəricisi kimi beynəlxalq aləmdə rolunun və nüfuzunun yüksəlməsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır: "Bu gün Azərbaycan dilinin istifadəsi və əsaslı tədqiqi, ölkədə dilçilik elmi sahəsində vəziyyətin yaxşılaşdırılması üçün əlverişli zəmin yaradılmışdır. Eyni zamanda, elm və texnikanın sürətlə inkişaf etdiyi hazırkı qloballaşma dövrü Azərbaycan dilinin zənginləşməsi və tətbiqi imkanlarının genişləndirilməsi istiqamətində aparılan işlərin yeni səviyyəyə yüksəldilməsini tələb edir".

Konsepsiyada Azərbaycan dilinin mədəniyyətdəki rolunun gücləndirilməsinin, onun mahiyyətcə inkişafının, həmçinin beynəlxalq səviyyədə təbliği və təşviqinin vacibliyi xüsusi vurğulanır. Qeyd edilir ki, görüləcək mühüm işlər nəticəsində Azərbaycan ədəbi dili daha da inkişaf edəcək, ana dilində yeni bədii nümunələr, əsərlər yaradılacaq və Azərbaycan dilindən rəqəmsal platformalarda daha geniş istifadə olunacaq.

Müasir informasiya cəmiyyətində kommunikasiya vasitələrinin sürətlə dəyişməsi dil siyasətinə yeni yanaşmalar tələb edir. Hamımız yaxşı bilirik ki, sosial şəbəkələrin, rəqəmsal medianın və internet platformalarının geniş yayılması dil mədəniyyətinə həm müsbət, həm də mənfi təsirlər göstərir. Belə ki, bir tərəfdən informasiya mübadiləsi sürətlənir, digər tərəfdən isə dil normalarının pozulması, yad təsirlərin artması və nitq mədəniyyətinin zəifləməsi müşahidə olunur.

Konsepsiyada Azərbaycan dilinin beynəlxalq nüfuzunun artırılması, xarici ölkələrdə tədrisinin genişləndirilməsi və rəqəmsal mühitdə istifadəsinin gücləndirilməsi mühüm prioritetlərdən biri kimi müəyyən edilmişdir. Bu istiqamətdə elektron lüğətlərin və rəqəmsal tədris resurslarının hazırlanması xüsusi rol oynaya bilər.

Sənəddə kommunikasiya mədəniyyətinin inkişafı da diqqət mərkəzində saxlanılır. Müasir cəmiyyətdə etik informasiya davranışı, mediada peşəkarlıq və ictimai nitq mədəniyyəti mühüm əhəmiyyət kəsb edir. İnformasiya təhlükəsizliyi və media savadlılığının artırılması da bu sahədə mühüm vəzifələrdən biri hesab olunur.



Konsepsiyada ədəbiyyat və incəsənət milli mədəniyyətin əsas istiqamətlərindən biri kimi qiymətləndirilir. Klassik ədəbi irsin qorunması ilə yanaşı, müasir ədəbiyyatın inkişafı, yeni yaradıcı nəslin formalaşdırılması və müasir bədii düşüncənin dəstəklənməsi vacib məsələlər sırasında qeyd olunur. Bu baxımdan, gənc yazıçı və şairlərin yaradıcılıq imkanlarının genişləndirilməsi, nəşriyyat fəaliyyətinin təkmilləşdirilməsi və elektron kitab platformalarının inkişafı mühüm əhəmiyyət kəsb edir.

İnsanların mənəvi cəhətdən zənginləşməsinə xidmət edən teatr, kino, musiqi və təsviri sənət sahələrinin inkişafı da Konsepsiyanın əsas istiqamətlərindəndir. Mili kinomuzun beynəlxalq festivallarda təmsil olunması, milli musiqi irsinin qorunması və dünya miqyasında tanıdılması xüsusi diqqət tələb edən məsələlərdir.

Təhlillər əsasında gəldiyimiz qənaət ondan ibarətdir ki, "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası milli irsin qorunması və inkişafı üçün strateji yol xəritəsidir. Konsepsiya milli musiqi irsinin müasir texnologiyalar vasitəsilə sənədləşdirilməsini, tədris sisteminin gücləndirilməsini, beynəlxalq mədəni inteqrasiyanı və yaradıcı sənayelərin inkişafını əsas prioritetlər kimi müəyyən edir. Nəticə etibarilə, milli irsin qorunması ilə müasir inkişaf arasında strateji körpü rolunu oynayır.

Konsepsiyada yaradıcı sənayelərin inkişafı da prioritet istiqamətlərdən biri kimi göstərilmişdir. Dizayn, reklam, audiovizual sənaye, rəqəmsal incəsənət və mədəni turizm kimi sahələrin inkişafı həm iqtisadi gəlirlərin artmasına, həm də mədəni nüfuzun güclənməsinə xidmət edir.

Burada diqqətçəkən mühüm məqamlardan biri mədəniyyətin iqtisadi resurs kimi qiymətləndirilməsidir. Əvvəllər əsasən humanitar sahə hesab edilən mədəniyyət hazırda innovativ iqtisadiyyatın mühüm komponentlərindən biri kimi qəbul edilir. Konsepsiyada ədəbiyyat və incəsənətlə bağlı çağırışlar sırasında, ilk növbədə, Azərbaycan ədəbiyyatının və incəsənətinin araşdırılması, inkişafı və beynəlxalq aləmdə təbliği məqsədilə müasir yanaşmalara əsaslanan sistemli fəaliyyətin həyata keçirilməsi vurğulanır.

Dahi şəxsiyyət Heydər Əliyev taleyüklü məsələlərin həyata keçirilməsi, müstəqilliyimizin möhkəmləndirilməsi üçün milli köklərdən qaynaqlanmaqla, tarixi keçmişimizi öyrənmək, mədəni irsimizi dərindən mənimsəmək və ondan böyük qürur duymaqla qazanacağımız uğurları uzaqgörənliklə bəyan edirdi: "Bizim zəngin tariximiz, qədim mədəniyyətimiz və milli dəyərlərimiz "Kitabi-Dədə Qorqud" eposunda öz əksini tapmışdır. Bu epos bizim ümumi sərvətimizdir və hər bir azərbaycanlı onunla haqlı olaraq fəxr edə bilər. Dastanın məzmununu, onun hər bir kəlməsini hər bir azərbaycanlı məktəbdən başlayaraq bilməlidir. Bu bizim ana kitabımızdır.... dünya qorqudşünaslığı "Kitabi-Dədə Qorqud"un istər etnik, mənşə, istər tarixi-coğrafi, ərazi, istərsə də dil və məfkurə baxımından Azərbaycan xalqına mənsub olması fikrini qəti şəkildə təsdiq edir. "Kitabi-Dədə Qorqud"un Azərbaycan tarixi üçün ən böyük, ən əsas və ən birinci xidməti bundan ibarətdir".

Azərbaycan zəngin maddi və qeyri-maddi mədəni irsə malikdir. Tarixi abidələr, memarlıq nümunələri, folklor, muğam, aşıq sənəti, xalçaçılıq və digər milli dəyərlər xalqın tarixi yaddaşını formalaşdıran əsas amillərdəndir.

Konsepsiyada mədəni irsin qorunması və bərpası ilə bağlı sistemli tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Xüsusilə, işğaldan azad edilmiş ərazilərdə tarixi və dini abidələrin bərpası prioritet kimi müəyyən edilmişdir. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən mədəni dirçəliş siyasəti yalnız memarlıq və infrastruktur məsələsi deyil, həm də milli-mənəvi bərpa prosesidir.

Sənəddə UNESCO ilə əməkdaşlığın genişləndirilməsi, milli irs nümunələrinin beynəlxalq səviyyədə tanıdılması və dünya mədəni irs siyahılarına daxil edilməsinin əhəmiyyəti vurğulanır.

Mədəni irsin rəqəmsallaşdırılması da Konsepsiyanın mühüm istiqamətlərindən biridir. Elektron arxivlərin yaradılması, virtual muzeylərin təşkili və rəqəmsal kataloq sistemlərinin qurulması gələcək nəsillər üçün mədəni irsin qorunmasına xidmət edir.

Müasir qloballaşma şəraitində milli folklor nümunələrinin, adət-ənənələrin və xalq yaradıcılığı elementlərinin qorunması mədəni müxtəlifliyin saxlanılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Konsepsiyada mədəniyyətin hüquqi aspektləri də öz əksini tapır. Müasir hüquqi dövlətdə mədəniyyət hüquqları insan hüquqlarının mühüm tərkib hissəsi hesab edilir. Hər bir vətəndaşın mədəni həyatda iştirak etmək və yaradıcılıq fəaliyyəti ilə məşğul olmaq hüququ var.

Sənəddə mədəni hüquqların daha geniş şəkildə həyata keçirilməsi üçün hüquqi və institusional mexanizmlərin təkmilləşdirilməsi nəzərdə tutulur. Mədəniyyət və hüquq münasibətlərində müəllif hüquqları məsələsi də xüsusi aktuallıq kəsb edir. Hazırkı dövrdə rəqəmsal texnologiyaların inkişafı müəllif hüquqlarının qorunması sahəsində yeni problemlər yaratmışdır. Elektron resursların sürətlə yayılması intellektual mülkiyyət hüquqlarının müdafiəsini daha da aktuallaşdırır.

Konsepsiyada mədəniyyət sahəsində normativ-hüquqi bazanın müasirləşdirilməsi, beynəlxalq standartlara uyğunlaşdırılması və idarəetmədə şəffaflığın artırılması mühüm vəzifələr kimi qarşıya qoyulmuşdur.

Mədəni hüquqların inkişafı demokratik cəmiyyətin formalaşması ilə sıx bağlıdır. İnsanların mədəni fəaliyyətə sərbəst qoşulması, yaradıcılıq azadlığının təmin edilməsi və müxtəlif mədəni təşəbbüslərin dəstəklənməsi vətəndaş cəmiyyətinin inkişafına müsbət təsir göstərir.

Müasir dövrdə mədəniyyət yalnız humanitar sahə deyil, həm də iqtisadi inkişafın mühüm amillərindən biri hesab olunur. Konsepsiyada mədəniyyətin iqtisadi potensialından səmərəli istifadə olunması məsələsinə geniş yer verilmişdir. Mədəni turizm iqtisadi inkişafın perspektivli istiqamətlərindəndir. Azərbaycanın zəngin tarixi və mədəni irsi ölkənin turizm potensialını artırır. Tarixi abidələr, muzeylər, festivallar və milli mədəniyyət nümunələri xarici turistlərin cəlb edilməsində mühüm rol oynayır.

Kreativ iqtisadiyyatın inkişafı yeni iş yerlərinin yaradılmasına, gənclərin məşğulluğunun artırılmasına və innovativ biznes modellərinin formalaşmasına şərait yaradır. Dünyanın bir çox ölkələrində yaradıcı sənayelər ümumi daxili məhsulun əhəmiyyətli hissəsini təşkil edir.

Mədəniyyətin sosial funksiyasının xüsusi əhəmiyyət daşıdığını vurğulamaq lazımdır. Mədəni fəaliyyət insanların sosial inteqrasiyasını gücləndirir, vətəndaş həmrəyliyini artırır və mənəvi mühitin sağlamlaşdırılmasına xidmət edir. Bu baxımdan, mədəniyyət sosial sabitliyin mühüm amillərindən biridir . Konsepsiyada regionlarda mədəni infrastrukturun inkişaf etdirilməsi də vacib istiqamətlərdən biri kimi göstərilmişdir. Rayon və kəndlərdə mədəniyyət müəssisələrinin fəaliyyətinin gücləndirilməsi regional bərabərliyin təmin olunmasına xidmət edir.

Sənədin idarəetmə və institusional mexanizmlərinə gəlincə, onun uğurla həyata keçirilməsi səmərəli idarəetmə mexanizmlərinin formalaşdırılmasını tələb edir. Bu baxımdan dövlət qurumlarının fəaliyyəti, ictimai iştirakçılıq və institusional koordinasiya mühüm əhəmiyyət kəsb edir.

Mədəniyyət Nazirliyinin fəaliyyətinin müasir tələblərə uyğunlaşdırılması, elektron idarəetmə sistemlərinin tətbiqi və strateji planlaşdırma mexanizmlərinin inkişaf etdirilməsi Konsepsiyanın əsas istiqamətlərindən biridir.

Sənəddə qeyri-hökumət təşkilatlarının, yaradıcı birliklərin və vətəndaş cəmiyyətinin mədəniyyət siyasətində iştirakının artırılması da nəzərdə tutulur. Müasir demokratik cəmiyyətdə mədəniyyət siyasətinin yalnız dövlət tərəfindən deyil, ictimai institutlarla əməkdaşlıq şəraitində həyata keçirilməsi daha effektiv nəticələr verir.

Monitorinq və qiymətləndirmə sistemlərinin yaradılması da mühüm əhəmiyyət kəsb edir. Hər bir strateji sənəd kimi Konsepsiyanın da icra vəziyyətinin davamlı təhlil olunması və nəticələrin qiymətləndirilməsi zəruridir.

Maliyyələşdirmə mexanizmlərinin təkmilləşdirilməsi də vacib məsələlərdəndir. Dövlət büdcəsi ilə yanaşı, özəl sektorun, sponsorluğun və beynəlxalq qrant proqramlarının mədəniyyət sahəsinə cəlb olunması əlavə imkanlar yarada bilər.

"Azərbaycan Mədəniyyəti – 2040" Konsepsiyasının əsas üstünlüklərindən biri onun sistemli və kompleks xarakter daşımasıdır. Sənəd mədəni siyasəti yalnız ənənəvi çərçivədə deyil, müasir sosial-iqtisadi və texnoloji proseslərlə əlaqəli şəkildə təqdim edir.

Sənədin uğurlu icrası üçün maliyyə təminatı, peşəkar kadr hazırlığı, regional inkişaf və institusional koordinasiya məsələlərinin effektiv həlli xüsusi əhəmiyyət kəsb edir. İlk növbədə, maliyyə resursları yetərli olmalıdır, çünki mədəniyyət sahəsində genişmiqyaslı layihələrin icrası böyük maliyyə vəsaiti tələb edir. Müasir mədəni idarəetmə sahəsində peşəkar mütəxəssislərin hazırlanması da vacibdir. Rəqəmsal texnologiyalar və kreativ sənayelər üzrə müasir biliklərə malik mütəxəssislərin sayı artırılmalıdır.

***(ardı var)***

***İradə HÜSEYNOVA,***
***Bakı Dövlət Universiteti***
***Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor***

*Yeni tamaşalar*

# "Stalin – İzm" İrəvan Teatrı səhnəsində

**Bu günlərdə Cəfər Cabbarlı adına İrəvan Dövlət Azərbaycan Dram Teatrında görkəmli sənətkar, Xalq yazıçısı Elçinin "Stalin" siyasi farsı əsasında Əməkdar mədəniyyət işçisi İftixar Piriyevin quruluşunda qeyri-səlis məntiq sistemi ilə hazırlanan "Stalin – İzm" tamaşasına ictimai baxış keçirildi.**






Millət vəkili Günay Əfəndiyeva, Humay Əfəndiyeva, sənətşünaslıq doktoru, professor, Əməkdar incəsənət xadimi Məryəm Əlizadə, Xalq artisti, professor Bəsti Cəfərova, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Nərminə Ağayeva, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Yeganə Əliyeva və digər ictimaiyyət nümayəndələri iştirak etdilər. İctimai baxışdan sonra tamaşa ətrafında müzakirə keçirilmiş, müzakirədə mütəxəssislər tamaşanın uğurlu cəhətləri barədə müsbət fikirlər söyləmişlər.

Dünya dramaturgiyasında İosif Stalinin hakimiyyəti, fəaliyyəti və ömrünün son dövrü ilə bağlı çoxsaylı əsərlər yazılmışdır. Elçinin "Stalin" əsərində isə diqqət tarixi şəxsiyyətin bioqrafiyasından daha çox onun yaratdığı ideoloji sistemin mahiyyətinə diqqət yönəldilir. Tamaşada bir şəxsin taleyi fonunda bütöv bir dövrün düşüncə mexanizmi, qorxu və itaət üzərində qurulan siyasi sistemin insan həyatında yaratdığı mənəvi fəsadlar araşdırılır.

Rəmzlər, priyomlar, teatr ifadə vasitələrindən gen-bol istifadə metodologiyası, yeni oyun üslubu, təfəkkürü motivasiya edən yaradıcılıq postulatı, fərqli prinsiplərlə yoğrulan duyğuların, hisslərin hərəkət mexanizmi, ənənəvi teatr sisteminə adekvat olmayan konseptual yaradıcılıq dəst-xətti aktyorların zehnini itiləyir, hər kəlmədə yeni müstəviyə istiqamətləndirir.

Əsərdə obrazları olmayan, lakin müəllif ideyasına əsasən işarələri görünən, iştirakçılara əlavə olunan yeni personajların canlı şəkil alması tamaşaya zəngin çalarlar gətirdi. Müəllifin fikir fəlsəfəsinin geniş icmalının konturlarına bir neçə qütbdən istiqamətlər açıldı. Əsərdə yalnız müəllif tərəfindən verilmiş konkret personajların deyil, məhz ölüm hökmünü icra edən bir cəllad maşınının öz cəngində məhv etdiyi nurlu şəxsiyyətlərin, işıqlı ideyaların obrazları öz təzahürünü tapdı. Tamaşanın geniş miqyasda həm fikir-ideya məcmusu, həm də bütün teatr ifadə vasitələrinin orijinal görkəm alan ecazkar təzahüründə, əlvan rəngarəngliklə işıq selinin bütün tamaşa boyu hər personaja fokuslandıqca onun əhvalına, ovqatına xas rənglərlə obrazlı ifadədə hərəkət mexanizmi ilə ayrıca bir tamaşa ekvivalentinə çevrilir. Dekorların personajlar tipində obrazlarla paralel hərəkəti konsepsiyanın bədii ifadəsinin qeyri-səlis daşıyıcısıdır.

Böyük bir ölkəni bütün ruhu ilə psixoloji sarsıntılarla çulğadığı, tərəddüdlərlə dolu bir rejim altına salmış, xəstə ideologiyaya qurban verən "lider"in – özünə belə inanmayan, hər şeyə və hər kəsə şübhə ilə baxan, həbsxana qanunları ilə düşünən və ölkəni, cəmiyyəti həmin qanunlarla idarə edən Stalinin süjet istiqamətində aparılan gedişata əlavələr olaraq çoxsaylı təsəvvür predmetləri ilə zənginləşdirilməsi oyunun qeyri-səlis funksionallığını, disipativ özünütəşkilini bifurkasiya nöqtəsindən sonrakı yeni məkana daşıyan işıq sellərinin nəhayətsizliyinə qovuşdurur.

İnsan taleyinə biganə yanaşan, hətta daha dəhşətli aqressiya ilə münasibət göstərən, özünü həmişə haqlı sayan, cəmiyyətə özünü müqəddəslik rəmzi kimi tanıtmağa çalışan "lider" bir an içində ölüm cəzası verən şüurunun paralelində anasının müxtəlif vəziyyətlərdə (ana sevgisi ilə, övlad xilaskarlığı ilə, öyüdverici tərzdə, insanlığa çağıran hisslərlə, qəzəbə qarşı yumşaq duyğularla və s.) qeybdən gələn səsi ilə yanaşı, ölkənin ən ucqar nöqtəsində baş verən hər hansı bir cəza mexanizminin qan tökən səhnəciyi canlandırır. Eyni zamanda, sevgilisi Olqa Aleksandrovskaya ilə əylənmə prosesi, paraleldə tabeçiliyində süründürdüyü məmurların miskin və xidmətə vadar aşağılayıcı vəziyyətləri, istədiyi kimi onların taleyi ilə oynadığı anlar, ölüm hökmünə qurban etdiklərinin – Mikayıl Müşfiqin, Əhməd Cavadın ah-naləli iniltiləri, Sibirin həbs düşərgələrində can çəkən insanların, o cümlədən Hüseyn Cavidin, Şükriyyə xanımın acı taleyini canlandıran təzahürlər, hər an ölüm qorxusu altında yaşatdığı Səməd Vurğunun, Üzeyir Hacıbəylinin həyat faciələri, Mustafa Kamal Atatürkün milli ideoloji məfkurəsinə qarşı aqressiv mənfur "pantürkizm" qondarması, türk bayrağının Qara dənizi coşduran nəğməkar hayqırtısına qarşı kəskin mövqe və sair bu kimi neçə-neçə hadisələrlə zənginləşən epizodlar bir-birinə mane olmadan və hətta biri digərini əsaslandıran ştrixlərlə cərəyan edir.

Əlbəttə ki, bu proses müəllifin Stalin personajı tipində və onun ideoloji düsturunda formalaşdırdığı dramaturji materialdan irəli gələn, "həbsxana cəmiyyəti" strukturunda böyük bir ölkənin idarə edilməsinə ömrünü vermiş bir əmri-qəzəbin, qaniçən vandalın həyat hekayəsini eskizləyən tablosunda orijinal formada qurduğu səhnə-oyun üslubunda – Elçin teatrı strukturunda səciyyələnən düşüncələrin rejissor təxəyyülü ilə paralelləşən duyğusal hisslər məcmusudur.

Səhnə əsərində Stalin repressiyalarının qurbanı olmuş milli ruhun yaşaması uğrunda mübarizə aparan insanların mənəvi müqaviməti və totalitar ideologiyanın doğurduğu faciələr paralel dramaturji xətt kimi inkişaf edir. Hadisələrin inkişaf xətti həm tarixi yaddaşı, həm də insan vicdanının sarsılmazlığını ön plana çıxarır.

Əsərin səhnə həlli müəllif dramaturgiyasının poetik xüsusiyyətləri ilə rejissor təxəyyülünün sintezindən yaranmışdır. Paradoksal siyasi-faciəvi fars üslubunda qurulan tamaşa hakimiyyətlə insan taleyi arasındakı ziddiyyətləri kəskin bədii vasitələrlə təqdim edir. Tamaşada "Qeyri-səlis məntiq"in və "Qeyri-səlis çoxluqlar" nəzəriyyəsinin estetik imkanları teatr dilinə tətbiq edilməklə yeni bədii ifadə vasitələri formalaşdırır.

Tamaşada Xalq artisti Sabir Məmmədov, Əməkdar artist Esmiralda Şahbazova, aktyorlar Səmayə Nəbiyeva, Elnarə Heydərova, Əmrulla Nurullayev, Niyaməddin Səfərəliyev, Bəhruz Hikmətli, Sevinc Bəxtiyar, Ramil Məmmədov, Rövşən Cəfərov, Samir Əliyev, Güney Əliyeva, Sevinc Hüseynova, Ruhiyyə Orucova, Pərvin Dadaşova, Naibə Nemətova, Xədicə Məmmədova, Zəki Fətəliyev, Anar Həşimov, Ramin Həsənov iştirak edirlər.

Yaxın günlərdə "Stalin – İzm" tamaşasının premyerası olacaq.

***Mehparə ƏLİYEVA***
***XQ***

*Dünya çempionatı–2026*

# Qrup mərhələsinin həlledici görüşləri başladı

**DÇ-2026-nın qrup mərhələsinin 2-ci turunun son oyun günü 23 iyun axşam və 24 iyun gecə və səhər keçirilən gərgin qarşılaşmalarla başa çatdı və növbəti mərhələyə vəsiqə qazanan yeni komandalar bəlli oldu. Turnirin bu həlledici günündə K və L qruplarında yer alan komandalar son dərəcə gərgin mübarizə apardılar.**

Xəbər verdiyimiz kimi, K qrupunda Portuqaliya – Özbəkistan qarşılaşmasında Avropa təmsilçisi asiyalı rəqibini böyük hesabla məğlub etdi – 5:0. Bu oyunda Portuqaliya millisinin ulduzu Kriştiano Ronaldo 6 fərqli Dünya Çempionatında qol vuran ilk futbolçu kimi tarixə düşdü. Ronaldo matçın 6-cı dəqiqəsində hesabı açmaqla futbol tarixində ardıcıl 6 mundialda (2006,



2010, 2014, 2018, 2022, 2026) qol vuran ilk və yeganə oyunçu oldu.

Hücumçu vurduğu dublla mundiallardakı ümumi qol sayını 10-a çatdırdı. Beləliklə, o, əfsanəvi Eysebionun (9 qol) rekordunu qıraraq Portuqaliya millisi ilə Dünya çempionatlarında ən çox qol vuran futbolçu titulunu qazandı.

Matçı 41 yaş 138 günlüyündə ke-



çirən Ronaldo Dünya çempionatları tarixində 1 matçda 1-dən çox qol vuran ən yaşlı oyunçu kimi də rekordlar kitabına düşdü.

Ronaldo həmçinin Kamerun əfsanəsi Roje Milladan (1994-cü ildə 42 yaş 39 gün) sonra mundiallar tarixində qol vuran ikinci ən yaşlı futbolçu oldu.

Kriştiano bu qollarla Portuqaliya millisi adından Dünya çempionatlarında həm də qol vuran ən gənc oyunçu (2006-cı ildə), həm də ən yaşlı oyunçu (2026-cı ildə) rekordunu eyni anda özündə birləşdirdi.

L qrupunda İngiltərə – Qana matçı hücum ssenariləri ilə zəngin olsa da, qapılara qol vurulmadı və komandalar xalları yarı böldülər–0:0. Bu qrupun favoriti hesab olunan İngiltərə millisi Qananın sıx və intizamlı müdafiə səddini yara bilmədi. Qanalı futbolçuların fədakar oyunu ingilislərə turnirdəki ilk xal itkisini yaşatdı.

Həmin qrupda Panama – Xorvatiya qarşılaşmasında xorvatlar minimal hesabla qalib gələrək qrupdakı mövqelərini möhkəmləndirdilər. Matçda yeganə qolu xorvatiyalı hücumçu Ante Budimir 54-cü dəqiqədə vurdu. İkinci hissənin əvvəlində (46-cı dəqiqədə) meydana daxil olan Budimir komanda yoldaşı Josip Stanişiçin sağ cinahdan ötürdüyü dəqiq asmanı qapının uzaq küncündə tamamlayaraq Xorvatiyaya 1:0 hesablı vacib qələbəni qazandırdı. Xorvatiyaya 0:1 hesabı ilə uduzan Panama millisi, bu nəticə ilə qrup mərhələsinin bitməsinə bir tur qalmış turnirlə rəsmən vidalaşan komandalardan biri oldu.

K qrupunda Kolumbiya – Konqo DR görüşündə Cənubi amerikalılar çətinliklə də olsa qələbəni təmin etdi – 1:0. Qələbə qolunu 76-cı dəqiqədə Daniel Munyos vurub.

Xuan Fernando Kinteronun ötürməsindən sonra rəqib müdafiəçilərin arasından boşluğa sızan Crystal Palace klubunun cinah müdafiəçisi Munyos rikoşetlə tamamlanan zərbə ilə topu qapının yaxın küncünə göndərərək turnirdəki özünün ikinci qoluna imza atdı. Bu qol Kolumbiyaya Guadalajara stadionunda çətin qələbə qazandırdı və onların vaxtından əvvəl pley-off mərhələsinə daşıdı.

Qrup mərhələsinin 2-ci turunun oyunların tamamlanması ilə Meksika, ABŞ, Almaniya, Argentina, Fransa və Norveçdən sonra Kolumbiya da rəsmən pley-off mərhələsinə vəsiqə qazanmış oldu. DÇ-da qrup mərhələsinin 3-cü və sonuncu turunun oyunları davam edir.

B qrupunda dünən axşam İsveçrə – Kanada matçı Vankuver şəhərindəki BC Place Vancouver stadionunda Bakı vaxtı ilə 23:00-da, Bosniya və Herseqovina – Qətər görüşü ABŞ-ın Sietl



şəhərində Lumen Field stadionunda, C qrupunda saat 02:00-da, Şotlandiya – Braziliya qarşılaşması ABŞ-ın Mayami şəhərinin Hard Rock Stadiumda, Mərakeş – Haiti oyunu ABŞ-ın Atlanta Stadiumda, A qrupunda saat 05:00-da Çexiya – Meksika mübarizəsi paytaxt Mexikonun Estadio Azteca stadionunda, Cənubi Afrika – Cənubi Koreya matçı isə Meksikanın Estadio



BBVA stadionunda keçirildi.

Qeyd edək ki, A qrupunda Meksika artıq pley-offa vəsiqəni təmin edib (6 xal). Lakin Çexiya ilə oyunda məğlub olmasalar, qrup liderliyini rəsmiləşdirəcəklər.

Cənubi Koreya (3 xal) CAR ilə matçda qələbə qazanarsa, birbaşa 2-ci yeri götürərək pley-offa gedəcək.

Çexiya və CAR (hərəsi 1 xal) mütləq qalib gəlməli və digər matçın nəticəsini gözləməlidirlər. Qələbə qazanan



tərəf ən yaxşı üçüncülərdən biri olmaq üçün böyük şans əldə edəcək.

B qrupunda Kanada və İsveçrə hərəsi 4 xalla qrupun ilk iki pilləsini bölüşürlər. Onların şəxsi qarşılaşmasındakı heç-heçə hər iki komandanı birbaşa son 32-yə aparır. Qalib gələn isə qrup lideri olacaq.

Bosniya və Herseqovina ilə Qətər (hərəsi 1 xal) parallel matçda ölüm-dirim savaşına çıxır. Kim qalib gəlsə, xalını 4-ə yüksəldərək ən yaxşı üçüncülər sırasına girməyi (hətta Kanada–İsveçrə matçının nəticəsindən asılı olaraq 2-ci yeri) hədəfləyir.

C qrupunda Braziliya (4 xal) və Mərakeş (3 xal) üstün mövqedədir. Mərakeş artıq turnirdən kənarlaşdırılmış Haitini məğlub edib asanlıqla pley-offa adlamaq istəyir.

Şotlandiya (3 xal) Braziliya ilə qarşılaşır. Şotlandlar heç-heçə etsələr belə, 4 xalla qrupdan çıxmağı demək olar rəsmiləşdirirlər. Məğlub olsalar, digər qruplardakı üçüncü yerlərin xal durumunu gözləməli olacaqlar.

Qeyd edək ki, qrup mərhələsinin 3-cü turun oyunları iyunun 27-də başa çatacaq. İyunun 28-də 32/1 final görüşləri başlayacaq. Türkiyə, Haiti, Tunis, İordaniya və Panama Dünya çempionatı ilə rəsmən vidalaşıb. Ələnəcək daha 11 komandanın adına isə 3-cü turun qarşılaşmalarından sonra aydınlıq gələcək.

***Q.YUSİFOĞLU***
***XQ***

*Beynəlxalq həyat*

# İsrail–Livan danışıqlarında sülh axtarışı

## *Yaxın Şərqdə savaş diplomatiya ilə əvəzlənir*

**ABŞ-ın vasitəçiliyi ilə Vaşinqtonda keçirilən İsrail–Livan danışıqları regionda sabitliyin bərpası istiqamətində atılan ən mühüm addımlardan biri hesab olunur. Tərəflər arasında yekun sülh sazişindən danışmaq hələ tez olsa da, müzakirələrin məzmunu göstərir ki, həm İsrail, həm də Livan sərhəd bölgəsində yeni təhlükəsizlik mexanizmlərinin yaradılmasına maraqlıdır.**



Danışıqların mərkəzində Livanın cənubundakı vəziyyət dayanır. Son müharibə zamanı İsrail ordusunun nəzarətə götürdüyü bəzi ərazilərin gələcək statusu hazırda əsas müzakirə mövzusudur. ABŞ tərəfindən dəstəklənən təklifə əsasən, İsrail qüvvələri müəyyən bölgələrdən mərhələli şəkildə geri çəkilməli, həmin ərazilərdə təhlükəsizlik nəzarəti isə Livan Silahlı Qüvvələrinə verilməlidir. Məqsəd sərhəd boyunca gərginliyin azalmasına nail olmaq və yeni toqquşmaların qarşısını almaqdır.

Təklif olunan model "pilot zonalar" prinsipi üzərində qurulub. Həmin zonalarda yalnız Livan ordusunun fəaliyyət göstərməsi nəzərdə tutulur. ABŞ administrasiyası hesab edir ki, belə bir mexanizm həm Livan dövlət institutlarının gücləndirilməsinə, həm də sərhəd təhlükəsizliyinin daha effektiv təmin edilməsinə kömək edə bilər. Vaşinqton, eyni zamanda, prosesin monitorinqi və texniki dəstəyi ilə bağlı müəyyən öhdəliklər götürməyə hazır olduğunu bildirib.

Lakin danışıqların uğurunu şübhə altına alan əsas amil Hizbullah məsələsidir. İsrail tərəfi Livanın cənubunda yaradılacaq təhlükəsizlik zonalarının silahlı qruplardan tamamilə təmizlənməsini tələb edir. Təl-Əviv hesab edir ki, Hizbullahın bölgədə hərbi mövcudluğunu qoruyub saxlaması gələcəkdə yeni münaqişələrə səbəb ola bilər. Ona görə də İsrail hökuməti Livan ordusunun bölgədə real nəzarət quracağına dair konkret təminatlar istəyir.

Livan üçün isə vəziyyət daha mürəkkəbdir. Rəsmi Beyrut bir tərəfdən ölkənin cənubunda dövlət hakimiyyətini bərpa etməyə çalışır, digər tərəfdən isə ölkə daxilində mühüm siyasi və hərbi gücə malik olan Hizbullah faktorunu nəzərə almağa məcburdur. Bu səbəbdən danışıqlarda əldə ediləcək hər hansı razılaşmanın həyata keçirilməsi beynəlxalq dəstəkdən əlavə, həm də Livanın daxili siyasi balansından asılı olacaq.

Bütün bunların fonunda sərhəd bölgəsində insidentlərin davam etməsi vəziyyətin nə qədər həssas olduğunu göstərir. Son günlər Livanın cənubunda baş vermiş ölüm hadisələri tərəflər arasında əldə olunmuş atəşkəsin hələ də tam sabit mexanizmə çevrilmədiyini ortaya qoyub.

Beləliklə, Yaxın Şərqdə diplomatik proses davam etsə də, hərbi gərginlik riski tam aradan qalxmayıb.

***N.BEYDİYEVA***
***XQ***

## Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan "Azərbaycan Nəşriyyatı" MMC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyyəti haqqında hesabatı

*manatla*

| | 2025-ci il | 2024-cü il |
|---|---|---|
| **Aktivlər** | | |
| Uzunmüddətli aktivlər | 27 732 066 | 29 917 917 |
| Qeyri-maddi aktivlər | 2 559 | 2 843 |
| Əsas vəsaitlər | 27 729 507 | 29 915 074 |
| Qısamüddətli aktivlər | 1 489 648 | 1 194 251 |
| Ehtiyatlar | 554 131 | 386 039 |
| Debitor borclar | 321 974 | 378 546 |
| Pul vəsaitləri | 535 101 | 390 622 |
| Digər aktivlər | 78 442 | 39 043 |
| CƏMİ AKTİVLƏR | 29 221 715 | 31 112 168 |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 4 078 550 | 4 078 550 |
| Bölüşdürülməmiş M/Z | 24 319 943 | 26 271 791 |
| CƏMİ KAPİTAL | 28 398 493 | 30 350 341 |
| **Öhdəliklər** | | |
| Uzunmüddətli öhdəliklər | 233 769 | 233 769 |
| Uzunmüddətli borclar | 233 769 | 233 769 |
| Qısamüddətli borclar | 589 453 | 528 058 |
| Büdcə ilə bağlı öhdəliklər | 111 979 | 79 403 |
| Kreditor borclar | 468 273 | 427 967 |
| Digər Kreditor Borclar | 9 200 | 20 688 |
| CƏMİ ÖHDƏLİKLƏR | 823 222 | 761 827 |
| CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR | 29 221 715 | 31 112 168 |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| Göstəricilərin adı | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət və ya zərər | CƏMİ KAPİTAL |
|---|---|---|---|
| 2024-cü il dekabrın 31-nə qalıq | 4 078 550 | 26 271 791 | 30 350 341 |
| Nizamnamə kapitalında dəyişikliklər | | | |
| 2025-ci il üzrə xalis mənfəət (zərər) | | (1 951 849) | |
| Nizamnamə kapitalına qoyuluş | | | |
| Vergi təsiri üzrə ehtiyatlar | | | |
| Kapitalın istifadəsi il ərzində | | | - |
| 2025-ci il dekabrın 31-nə qalıq | 4 078 550 | 24 319 943 | 28 398 493 |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| Müştəridən daxilolmalar | 5 622 799 | 5 600 368 |
| Kreditorlara ödəmələr | (2 044 830) | (2 441 061) |
| İşçilərlə hesablaşmalar | (2 028 675) | (1 845 504) |
| Sosial xarakterli ödəmələri | (743 678) | (671 469) |
| Xarici valyuta üzrə məzənnə fərqləri | (3 090) | (1 610) |
| Əməliyyat fəaliyyətindən ümumi daxilolma (xərcləmə) | 8025262 | **640724** |
| Dividend ödənişi | - | - |
| Faiz ödənişi | - | - |
| Vergi ödənişləri | (612 392) | (530 572) |
| Yekun Əməliyyat fəaliyyəti üzrə | 190 134 | 110 152 |
| İnvestisiya fəaliyyəti | | |
| Əsas vəsait alışı | (45 655) | (213 362) |
| Uzunmüddətli aktivlərin satışından daxilolmalar | - | 4 153 |
| Yekun investisiya fəaliyyəti üzrə | (45 655) | (209 209) |
| Dövrün əvvəlinə pul və pul ekvivalentləri | 390 622 | 489 679 |
| Dövr ərzində net artım (azalma) | 144 479 | (99 057) |
| Dövrün sonuna pul və pul ekvivalentləri | 535 101 | 390 622 |

**Mənfəət və zərər haqqında hesabat**

| | | |
|---|---|---|
| Əsas fəaliyyətlər üzrə gəlir | 5 113 688.49 | 5 223 447 |
| Maya dəyəri | (1 823 848) | (1 821 823) |
| Ümumi mənfəət | 3 289 840 | 3 401 623 |
| Sair gəlir | 174 287 | 439 836 |
| Digər xərclər | (5 415 976) | (5 683 522) |
| Kommersiya xərcləri | (115 119) | (140 653) |
| İnzibati xərclər | (4 965 195) | (5 003 255) |
| Maliyyə xərcləri | | |
| Sair xərclər | (335 662) | (539 613) |
| Vergidən əvvəlki mənfəət (zərər) | (1 951 849) | (1 842 063) |
| Mənfəət vergisi | - | - |
| İl üzrə xalis mənfəət (zərər) | (1 951 849) | (1 842 063) |

### Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyətin Rəhbərliyinə

**Maliyyə hesabatları haqqında**
**Rəy**

Mən, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişiklikləri haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçotu siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.

**Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları "Azərbaycan Nəşriyyatı" Məhdud Məsuliyyətli Cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətdi aspektlərdə ədalətli əks etdirir.**

**Rəy üçün əsaslar.** Mən, auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikası maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Mən hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimlə əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**. Rəhbərlik maliyyə hesabatlarının İFRS (Beynəlxalq maliyyə hesabatları standartlarına) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrimcə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti** Mənim məqsədim təqdim etdiyim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimə daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zamanət vermir ki, əhəmiyyətli təhrif movcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmşə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin belə təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə etimalı olduğu halda, əhəmiyyətli hesab edilir. Azərbaycan Respublikası Auditorlar Palatasının 22 dekabr 2021-ci il tarixli SA/065 saylı İcazə qeydiyyatı ilə fəaliyyət göstərən sərbəst auditor Vəli Oruc oğlu Bayramov Müstəqil auditor rəyini 18 iyun 2026-cı il tarixində tərtib etmişdir.

**Sərbəst auditor Vəli Oruc oğlu Bayramov**

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 110 (31079) 25 iyun 2026-cı il, cümə axşamı

## İDMAN

### 6 rayonda yeni "Sağlam məhəllə"



**Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən həyata keçirilən "Sağlam məhəllə" layihəsi çərçivəsində iyunun 24-də Hacıqabul, Şirvan, Masallı, Cəlilabad, Biləsuvar və Salyan şəhərlərində idman zonaları istifadəyə verilib.**

Açılış mərasimində gənclər və idman naziri Fərid Qayıbov, müvafiq rayonların icra hakimiyyətlərinin rəhbər şəxsləri, rayon ictimaiyyətinin nümayəndələri, sakinlər və gənc idmançılar iştirak ediblər.

Hər bir sağlam məhəllədə minifutbol və basketbol meydançaları, stolüstü tennis, şahmat və trenajor avadanlıqları quraşdırılıb. Nazir Fərid Qayıbov idman qurğularında məşq edən uşaqlarla söhbət edib.

Qeyd edək ki, indiyədək Bakıda və müxtəlif rayonlarda 17 "Sağlam məhəllə" layihəsi icra edilib.

### Xankəndidə yeni cüdo salonu

**Xankəndi şəhərində yerləşən Nizami Gəncəvi adına 4 nömrəli tam orta məktəbdə yeni cüdo zalı fəaliyyətə başlayıb.**




Azərbaycan Cüdo Federasiyası tərəfindən müasir standartlara uyğun tatamilər və zəruri avadanlıqlarla təchiz olunan zalda paltardəyişmə otaqları və digər köməkçi sahələr yaradılıb. Burada 100-dən çox idmançının cüdo ilə məşğul olması üçün əlverişli şərait formalaşdırılıb.

Qeyd edək ki, 2022–2026-cı illər ərzində Gəncə, Sumqayıt, Qusar, Ağstafa, Zaqatala, Goranboy, Sabirabad, Zirə, Ağdaş, Kürdəmir, Astara, Cəlilabad, Tərtər, Qax, İmişli, Şabran, Daşkəsən və Yevlax da daxil olmaqla ölkənin müxtəlif şəhər və rayonlarında yeni cüdo zalları istifadəyə verilib. Bununla yanaşı, Bakı və regionlardakı 202 idman zalına ümumilikdə 14 300 tatami paylanılıb.

### Milli Paralimpiya Komitəsində görüş



**Milli Paralimpiya Komitəsində (MPK) Tunis Qran-prisində uğur qazanan nüvəitələmə üzrə paraatletlərlə görüş təşkil olunub.**

Komitədən verilən məlumata görə, tədbirdə turnirin gümüş və bürünc medalçıları – Oloxan Musayev, Samir Nəbiyev, Rüfət Rəfiyev və Elvin Astanov, həmçinin yığmanın baş məşqçisi Oleq Panyutin iştirak ediblər.

Görüş zamanı Tunis Qran-prisində nümayiş etdirilən çıxışlar barədə danışılıb, idmançıların yarışla bağlı təəssüratları dinlənilib.

Eyni zamanda, qarşıdan gələn beynəlxalq yarışlar, hazırlıq planları və komandanın gələcək hədəfləri ətrafında müzakirələr aparılıb.

MPK-nın baş katibi Toğrul Rəhimov paraatletləri uğurlu nəticələr münasibətilə təbrik edib, onların gələcəkdə də Azərbaycanı beynəlxalq arenada layiqincə təmsil edəcəklərinə əminliyini ifadə edib.

Görüşdə qurumun prezidentinin müşaviri Şahin Kazımzadə, İdman şöbəsinin müdiri Cavad Axundzadə və komitənin digər nümayəndələri də iştirak ediblər.

*Qabil YUSİFOĞLU*
*XQ*

*40 il əvvəl Meksikada*

# XIII Dünya Çempionatı nələri yada salır?

**Jurnalist taleyim düz 40 il əvvəl, 1986-cı ildə mənə də Meksikada keçirilən XIll Dünya Çempionatının görüşlərini birbaşa "hadisə yerində" izləmək, ən böyük futbolun canlı şahidi olmaq imkanı yaratmışdı. Onda dəri top sehrbazlarının ümumdünya bayramından unudulmaz təəssüratla qayıtmışdım.**



Bu günlər isə ABŞ, Kanada və Meksikanın birgə təşkilatçılığı ilə okeanın o tayında getdikcə sürətini artıran XXlll Mundialın oyunlarından uzaqdan-uzağa, evdə teleekran qarşısında zövq alırıq. 40 il əvvəlki kimi, indi də dünyada ən sevimli oyunun gücünə, qüdrətinə, əzəmətinə bir daha heyran qalırıq.

Artıq üçüncü dəfədir ki, Dünya Çempionatının təşkilatçısı kimi tarix yazan (əvvəllər 1970 və 1986-cı illərdə, həm də təkbaşına) və bununla haqlı olaraq fəxr edən Meksikada Dünya Kuboku başda əfsanəvi Maradona olmaqla Argentina komandasının üzünə gülmüşdü. Həmin çempionatda Argentina 1978-ci ildə öz meydanlarında keçirilmiş Xl çempionatdakı kimi planetin ən yaxşı komandası olduğunu inamla sübuta yetirmişdi.

Onda biz, keçmiş Sovet İttifaqının müxtəlif respublikalarından olan bir qrup idman jurnalisti paytaxt Mexikodakı əzəmətli "Asteka" stadionunda, eləcə də, Leon, İrapuato, Monterrey, Puebla, Qvadalaxara və digər şəhərlərdə keçirilən oyunlar zamanı əsl bayram mühitində yaşadıq. Həmin unudulmaz günlərin bir çox məqamları yaddaşımızda özünə möhkəm yer etmişdir.

Məsələn, Meksika millisi öz tarixində Dünya çempionatlarında ən böyük uğurunu məhz 40 il əvvəlki yarışda qazanmış, dörddəbir final mərhələsində oynamışdı. Komanda indi 23-cü turnirdə də ölkəsini ürəkdən sevindirir. Meksika artıq iki turdan sonra pley-off mərhələsinə vəsiqəni özünə təmin etmişdir.

Yaxud başqa bir xatırlatma. Qrup sınaqları finişə yaxınlaşan indiki çempionatda Mərakeş futbolçularının beşqat dünya çempionu Braziliya ilə heç-heçəsindən (1:1) və Şotlandiya komandası üzərində 1:0 hesablı qələbəsindən sonra "Mexico-86"da yerli qəzetlərdən birində oxuduğum bir cümlə yadıma düşür: "Mərakeş futbolçularının Portuqaliya komandası üzərində gözlənilməz və inamlı qələbəsindən (3:1) sonra Mərakeş Kralı ll Həsən gecəyarısı ölkəsinin baş şəhəri Rabatdan uzaq Meksikanın Qvadalaxara şəhərinə zəng edərək komandasını təbrik etmiş və ona yeni uğurlar arzulamışdır".

İndi izə Kralın həmvətənləri XXlll çempionatda ölkələrini layiqincə təmsil edirlər. İlkin mərhələnin ilk iki turunda qazanılmış 4 xal böyük əzmkarlığın, möhkəm iradənin, yüksək ustalığın bəhrəsidir.

Meksika stadionlarında 40 il əvvəlki yarış günlərində qəzetlər yazırdı ki, Braziliya parlamenti oyunlardan birini televizorda izləmək üçün parlamentin iclasını 3 saat təxirə salmışdır. İndi isə, şahidi olduğumuz kimi, Özbəkistan rəhbərliyi iyunun 18-də bizim yerlərdə səhər saatlarına təsadüf edən Kolumbiya ilə matçla əlaqədar ölkədə iş gününə 2 saat gec başlamaq barədə qərar vermişdi. Hamının görüşü rahat şəkildə izləmək və oyundan sonra iş yerlərinə vaxtında çatmaq imkanları nəzərə alınmışdı. Dünya çempionatının final mərhələsinə ilk dəfə vəsiqə qazanmaqla, sonra da Mundialda elə ilk oyununda qollarının hesabını açmaqla tarix yazan Özbəkistandan danışarkən keçmiş SSRİ çempionatlarında həmişə Bakıda da, Daşkənddə də maraqla gözlənilən "Neftçi"–"Paxtakor" görüşlərini də xatırlayırıq. Gələn il Azərbaycan ilə Özbəkistanın birgə təşkil edəcəkləri 20 yaşlı gənclərdən ibarət komandalar arasında dünya birinciliyi də futbol aləminin diqqət mərkəzində olacaq.

Növbəti, XXlll Dünya Kuboku yarışı planetin hər yerində qəlblərə hakim kəsilmişdir. Qarşıdan pley-off görüşləri gəlir. Uduzan komandalar dərhal çempionatla vidalaşacaq, qalib kollektivlər isə yollarına davam edəcəklər.

Nə yaxşı ki, ağılagəlməz nəticələrlə zəngin olan yarış meydanında nəhəng komandalarla yanaşı, Kabo Verde, Kurasao, Kot d'İvuar millilləri də var. Təkcə Kabo Verdenin hazırkı Avropa çempionu, keçmiş dünya çempionu İspaniya ilə, sonra da ikiqat dünya çempionu Uruqvayla heç-heçə oynaması hələ uzun illər ərzində çox xatırlanacaq.

1986-cı ildə Meksikanın Puebla şəhərində Argentina – Uruqvay görüşündə (1:0) gördüyüm Maradona qələbə sevinci yaşayanda Messi hələ həyata göz açmamışdı. Təzəcə, iyunun 24-də 39 yaşı tamam olmuş "Leo" ləqəbli Lionel indi ilk iki oyunda Əlcəzair və Avstriya komandalarının qapısına vurduğu üst-üstə 5 qolla (müvafiq surətdə 3:0 və 2:0) həm ölkəsini vaxtından əvvəl növbəti mərhələyə yüksəltmiş, həm də Dieqonun layiqli davamçısı olduğunu bir daha var gücü ilə bütün dünyaya nümayiş etdirmişdir. Həqiqətən, əfsanədir!

Mundial–2026 həyəcanları davam edir. Ən şirin, eyni zamanda, ən dramatik oyunlar hələ irəlidədir.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

# Azərbaycan Namanqan Muğam Sənəti Festivalında

**Özbəkistanın Namanqan şəhərində III beynəlxalq Muğam Sənəti Festivalı keçirilir.**



Festivala UNESCO, ICESCO, Müstəqil Dövlətlər Birliyi, Şanxay Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, TÜRKSOY, Türk Parlament Assambleyası, Türk Mədəniyyəti və İrsi Fondu və digər beynəlxalq təşkilatların rəhbərləri, mədəniyyət nazirləri, xarici ölkələrin səfirləri, dünyanın 80 ölkəsindən gələn 250-dən çox mədəniyyət və incəsənət xadimi, beynəlxalq təşkilatların rəhbərləri, mədəniyyət nazirləri və diplomatlar qatılıb.

Musiqi bayramında ölkəmizi Azərbaycanın mədəniyyət naziri Adil Kərimlinin rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir. Nümayəndə heyətinə Mədəniyyət Nazirliyinin nümayəndəsi Nəsibə Əsgərova, sənətşünaslıq üzrə fəlsəfə doktoru. Azərbaycan Milli Konservatoriyasının rektoru Kamilə Dadaşzadə, xanəndə Kamilə Nəbiyeva və müsiqiçilər daxildir. Azərbaycanın Əməkdar artisti, Özbəkistanın mədəniyyət səfiri, tarzən Sahib Paşazadə festivala qonaq kimi qatılıb.

Musiqi bayramın açılışında Özbəkistan Prezidenti Şavkat Mirziyoyev forumun UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına daxil edilmiş muğam sənətinin qorunması, öyrənilməsi və populyarlaşdırılması üçün mühüm beynəlxalq platformaya çevrildiyini qeyd edib. Prezident çıxışında muğamın təkcə musiqi janrı deyil, həm də millətin mənəvi irsinin mühüm bir hissəsi olduğunu vurğulayıb.

Prezident deyib: "Muğam millətin yaddaşıdır, xalqın ürəyidir və əsrlər boyu əks-səda verən ruhunun səsidir. Daşkənddə Dünya Muğam Mərkəzi statusu ala biləcək nadir Muğam Mərkəzinin yaradılmasını təklif edirəm. Onun rəhbərliyi altında Beynəlxalq Muğam Akademiyasının açılması planlaşdırılır. Burada özbək məktəbləri ilə yanaşı, Azərbaycan, ərəb, türk, fars, tacik, hind və digər Şərq klassik musiqi ənənələri də öyrəniləcək".

Festival öz işini davam etdirir.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin Türküstan müxbiri*
**Namanqan**

## HAVA

# Bakıda gecə yağmurlu, rayonlarda yağış və dolu…

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakının və Abşeron yarımadasının bəzi yerlərində arabir yağış yağacağı proqnozlaşdırılır. Gecə yarımadanın ayrı-ayrı yerlərində intensiv olacağı, şimşək çaxacağı ehtimalı var. Gündüz hava dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək. Şimal-şərq küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəzlənəcək. Atmosfer təzyiqi 757 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 55-60 faiz təşkil edəcək. Havanın temperaturunun gecə 19-22, gündüz 27-32 dərəcə isti olacağı ehtimal edilir.**



Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, gecə və axşam yağıntıların bir qədər güclənəcəyi proqnozlaşdırılır. Bəzi dağlıq ərazilərdə arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 19-22, gündüz 30-35, dağlarda gecə 9-14, gündüz 18-23, bəzi yerlərdə 25-27 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*


## "Şahşərab" ASC səhmdarlarının nəzərinə!

"Şahşərab" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı **26 iyul 2026-cı il saat 12.00-da Şahbuz şəhəri, H.Əliyev küçəsində** keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

1. Səhmdar cəmiyyətinin qanuni təmsilçisinin vəfat etməsi faktının nəzərə alınması.
2. Yeni idarə heyətinin seçilməsi.
3. İdarə heyətinin sədrinin (direktorun) seçilməsi.
4. Səhmdar cəmiyyətinin qanuni təmsilçisinin təyin edilməsi.
5. Səhmdar cəmiyyətinin nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi.
6. Nizamnamə dəyişikliklərinin və idarəetmə orqanlarında baş vermiş dəyişikliklərin dövlət qeydiyyatına alınması üçün səlahiyyətli şəxsin müəyyən edilməsi.
7. Digər təşkilati məsələlər.

**Qeyd:** Gündəlikdəki məsələlərlə bağlı sənədlərlə tanış olmaq üçün cəmiyyətin əsas səhmdarı Kazımov Faiq Feyzulla oğlu ilə əlaqə saxlanıla bilər.

**Əlaqə telefonu:** +994 50-280-75-49.

## "Azərtikintiservis" ASC səhmdarlarının nəzərinə!

10 avqust 2026-cı il saat 10.00-da "Azərtikintiservis" ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncagın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci ilin fəaliyyətinin yekunlarına aid idarə heyətinin hesabatı.

**2.** Digər məsələlər.

**Ünvan:** *Siyəzən şəhəri, Xətai küçəsi 148.*


DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 813
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI

Çapa imzalanmışdır 00:00